Beləliklə, 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra ölkədə vəziyyət sabitləşdi. Buna bir neçə il lazım oldu ki, vəziyyət sabitləşsin, ictimai-siyasi asayiş bərpa olunsun, sabitlik təmin olunsun və biz inkişafa başlayaq. 1993-2003-cü illər, sözün əsl mənasında, sabitlik və inkişaf illəri olmuşdur. Məhz, o illər ərzində Azərbaycanda dövlətçiliyin əsasları quruldu. Sözün əsl mənasında, müstəqil dövlət quruldu. O illərdə başlanmış və bu gün uğurla davam etdirilən həm siyasi, həm iqtisadi islahatlar Azərbaycanın dünya birliyinə inteqrasiya etmək istiqamətində atılmış addımlarını təmin etdi. O illərdə ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyamız bu gün Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, ölkəmizin müstəqil dövlət kimi yaşamasına xidmət edir. O illərdə hüquqi islahatlar aparılmışdır. Bir sözlə, 1993-2003–cü illər Azərbaycanın müstəqil dövlət kimi inkişaf etdirilməsində həlledici rol oynamışdır. Bu gün biz Heydər Əliyev siyasətinə sadiq qalaraq bu siyasəti davam etdiririk, onu yaşadırıq. Bu illərdə biz Heydər Əliyev siyasətinin təntənəsini görürük. Çünki onun fiziki yoxluğu şəraitində bu siyasət yaşayır və yaşayacaqdır. Azərbaycanın son beş il ərzində keçdiyi yol bir daha sübut edir ki, 1993-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdir və bu, yeganə düzgün seçim idi. Azərbaycan xalqı bu seçimə sadiqdir və biz müxtəlif mərhələlərdə bunu görmüşük.

Azərbaycan beynəlxalq mövqelərini yüksək dərəcədə möhkəmləndirə bilmişdir. Biz dünya birliyinə inteqrasiya edirik, eyni zamanda, öz siyasətimizi milli maraqlar üzərində qururuq, dərin tarixi və mədəni əsaslar üzərində qururuq. Azərbaycanın xarici siyasəti çox açıqdır, aydındır. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, ikitərəfli münasibətlərin inkişafında maraqlıyıq. Bu münasibətlər qarşılıqlı hörmət və qarşılıqlı maraq əsasında qurulubdur. Azərbaycan dünya birliyində etibarlı ölkə və tərəfdaş kimi tanınır. Son illərdə bizim dostlarımızın, müttəfiqlərimizin sayı böyük dərəcədə artmışdır. Azərbaycan, eyni zamanda, beynəlxalq təşkilatlarda çox fəal iştirak edir. Biz müxtəlif beynəlxalq təşkilatlarda iştirak edirik və öz mövqeyimizi müdafiə edirik. Müxtəlif təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə əlaqədar ədaləti, bizim mövqeyimizi əks etdirən çoxsaylı qərarlar və qətnamələr qəbul edilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı keçən ilin mart ayında BMT-nin Baş Məclisində qətnamənin qəbul edilməsi bizim həm mənəvi, həm siyasi qələbəmizdir. Eyni zamanda, bu, ədalətin təntənəsidir. Baxmayaraq ki, böyük dövlətlər bu qətnamənin qəbul edilməsinə etiraz etmişdilər, Azərbaycan böyük səs çoxluğu ilə bu qətnamənin qəbul edilməsinə nail oldu və dünya birliyi bizimlə həmrəy olduğunu göstərdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim xarici siyasətimizin əsas istiqamətidir. Əfsuslar olsun ki, bütün səylərə baxmayaraq, biz məsələnin həllinə nail ola bilməmişik. Bunun tək səbəbi var – Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqlar prosesini süni şəkildə uzatmaq taktikası. Artıq heç kim üçün sirr deyildir ki, bu taktika Ermənistan tərəfindən istifadə olunur. Ancaq bu taktikanın axırı yoxdur. Məsələ ancaq beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Azərbaycan öz prinsipial, ədalətli və beynəlxalq hüquq normalarına əsaslanmış mövqedən əl çəkməyəcəkdir. Biz geri bir addım atmayacağıq. Çünki dünya birliyi bizim mövqeyimizi dəstəkləyir, mötəbər beynəlxalq təşkilatların qərarları bizim tərəfimizdədir. BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilmişdir. Bu qətnamələr erməni qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Onlara məhəl qoyulmur. Digər beynəlxalq təşkilatların qərarları bizim mövqeyimizi dəstəkləyir. Biz çalışırıq və çalışacağıq ki, bütün beynəlxalq təşkilatlarda öz siyasi və diplomatik fəaliyyətimizi daha da gücləndirək və məsələnin tezliklə həll edilməsinə nail olaq.

Bəzi hallarda Ermənistan tərəfi xalqların öz müqəddəratını təyinetmə prinsiplərini ərazi bütövlüyü prinsipləri ilə bərabər, eyni səviyyədə göstərmək istəyir.

Ancaq, bu, yalnız məsələ ilə tanış olmayan, siyasətlə məşğul olmayan insanlar tərəfindən qəbul edilə bilər. Təsadüfi deyil ki, dünya ictimaiyyəti bu yanaşmanı inkar edir. 1975-ci il Helsinki Yekun Aktına baxmaq, onu yaxşı oxumaq kifayətdir, orada hər şey göstərilib. Ərazi bütövlüyü prinsipləri əsas prinsiplərdir. Xalqların öz müqəddəratını həll etmə, müəyyən etmə məsələsi ərazi bütövlüyünü pozmamalıdır, ərazi bütövlüyü prinsipi ilə ziddiyyət təşkil etməməlidir. Bir də ki, Ermənistan artıq müstəqil dövlətdir və erməni xalqı öz müqəddəratını bir dəfə təyin edibdir. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt imkan verməyəcəkdir.

Onu da qeyd etmək istəyirəm ki, bu gün danışıqlar daha da intensiv xarakter daşıyır. Azərbaycan bütün dövrlərdə olduğu kimi, öz konstruktiv, ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqeyini ortaya qoyur. Bu gün danışıqlar masasında işğal edilmiş bütün torpaqların Azərbaycana qaytarılması məsələsi dayanır, bütün köçkünlərin öz doğma torpaqlarına qayıtması məsələsi dayanır. Bir daha bəyan etmək istəyirəm, - çünki bu məsələ ilə əlaqədar vaxtaşırı müxtəlif spekulyasiyalar irəli sürülür, - danışıqlar masasında Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmləri yoxdur və ola da bilməz. Nə bu gün, nə 10 ildən, nə 100 ildən sonra Dağlıq Qarabağ müstəqil dövlət olmayacaqdır. Azərbaycanın mövqeyi birmənalıdır. Bütün təzyiqlərə baxmayaraq, bu mövqeyi biz axıra qədər müdafiə edəcəyik.

Bir daha demək istəyirəm ki, atəşkəsdən keçən 15 il ərzində biz öz konstruktiv mövqeyimizi göstərmişik. Amma bununla bərabər, Azərbaycanda ordu quruculuğu işlərinə də çox böyük diqqət veririk. Son illərdə bu istiqamətdə çox böyük nailiyyətlər əldə edilib. Bizim artıq peşəkar ordumuz var. Ordunun döyüş qabiliyyəti çox yüksəkdir. Ordumuzun maddi-texniki bazası son illər ərzində yüksək dərəcədə gücləndirilibdir. Heç kim bu gün Azərbaycana döyüş meydanında öz iradəsini diktə edə bilməz. Biz qısa müddət ərzində - cəmi üç il ərzində güclü və böyük perspektivi olan müdafiə sənayesini yaratmışıq və üç il ərzində biz ilkin istehsalatdan artıq böyük istehsalata başlamışıq. Bu gün Azərbaycan müdafiə sənayesinin istehsal etdiyi avadanlıq

beynəlxalq sərgilərdə nümayiş etdirilir və yüksək qiymət alır.

Biz öz müdafiə gücümüzü daha da artıracağıq. Bu məqsədlər üçün nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaqdır. Bəzi hallarda beynəlxalq ictimaiyyətdə belə bir fikir yaranır ki, Azərbaycan bu istiqamətdə çox böyük işlər görür və bu siyasət narahatlıq doğurur. Biz sadəcə olaraq, öz təbii hüquqmuzdan istifadə edirik. Biz öz vəsaitimizi xərcləyirik. Biz Azərbaycan xalqının zəhməti hesabına qazanılmış vəsaiti ordumuzun güclənməsinə sərf edirik. Bu gün Azərbaycanın artan iqtisadi qüdrəti bizə imkan verir ki, ordu quruculuğuna 2 milyard dollar vəsait xərcləyək. Bu rəqəm Ermənistanın bütün büdcəsinə bərabərdir. Növbəti illərdə Ermənistan ilə Azərbaycan arasında bu gün mövcud olan böyük uçurum daha da dərinləşəcək, genişlənəcək, Azərbaycan daha da qüdrətli dövlətə çevriləcəkdir. Ermənistan isə öz işğalçı siyasəti nəticəsində bütün beynəlxalq layihələrdən təcrid olunmuş vəziyyətdə qalmalıdır və qalacaqdır.

Azərbaycanın artan imkanları, dünyadakı əhəmiyyəti, nüfuzu və çox önəmli ölkəyə çevrilməsi, əlbəttə ki, bizim bütün mövqelərimizi gücləndirir. Biz bundan sonra da Ermənistanı bütün regional və qlobal layihələrdən təcrid etmək üçün öz siyasətimizi davam etdirəcəyik, o vaxta qədər ki, torpaqlarımız azad olunacaqdır.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan sülhsevər dövlətdir. Biz sülhməramlı siyasət aparırıq və əgər Azərbaycanın xarici və daxili siyasətinə nəzər salsaq görərik ki, bütün ölkələrlə dostluq, mehribanlıq şəraitində yaşamaq istəyirik. Ancaq geniş mənada regional əməkdaşlığın təmin edilməsi üçün Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir, işğalçı qüvvələr bizim torpaqlarımızdan çıxarılmalıdır.

Biz uğurlu iqtisadi siyasət aparırıq. Bu siyasət bizə güc verir, bizim imkanlarımızı genişləndirir, bizim iqtisadi inkişafımız çox uğurludur. Bu barədə dəfələrlə deyilibdir, təkrar etmək istəmirəm. Son beş il ərzində dünyada iqtisadi artım misli görünməmiş templərlə ölçülürdü. Deyə bilərəm ki, son beş il ərzində bu, rekord göstəricilərdir. Bununla bərabər, bizim iqtisadi uğurlarımızın əsas səbəbi neft-qaz amili deyil, iqtisadi islahatlardır. Dünyada hökm sürən iqtisadi və maliyyə böhranı bir daha göstərdi: Azərbaycan tək ölkələrdəndir ki, böhranlı aylarda da öz iqtisadi inkişafını davam etdirir. Bu ilin birinci rübündə iqtisadiyyat 4,3 faiz, qeyri-neft iqtisadiyyatı 13,7 faiz artmışdır. Bütün infrastruktur layihələri, sosial layihələr icra edilir. Manatın məzənnəsi sabitdir. Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün praktiki tədbirlər görülür. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı uğurla başa çatmışdır. Bu gün biz Proqramın ikinci mərhələsinin əvvəlindəyik və növbəti beş il ərzində ölkə qarşısında duran əsas iqtisadi, infrastruktur və sosial məsələlər öz həllini tapmalıdır. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq.

Biz bölgədə özümüzü çox yaxşı hiss edirik. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə, heç bir məsələ, heç bir təşəbbüs, - baxmayaraq ki, bu təşəbbüsün arxasında hansı qüvvələr var, - icra oluna bilməz. Bölgədə yaşanan son hadisələr, Azərbaycanın birmənalı və prinsipial mövqeyi, bütövlükdə bu gün mövcud olan vəziyyət bir daha göstərir ki, Azərbaycanın milli maraqlarını nəzərə almamaq, Azərbaycanı təcrid etmək istəkləri heç vaxt baş tutmayacaq. Bizim iştirakımız bölgədə bütün layihələri əfsanədən gerçəyə çevirə bilər. Ancaq Azərbaycanın liderlik rolu bölgədə siyasi, iqtisadi, enerji, nəqliyyat və başqa layihələri reallaşdıra bilər. Bunu bilirdik, biz öz gücümüzü bilirdik.

Bu gün bizim gücümüzü, imkanlarımızı, deyə bilərəm ki, nəinki bölgə ölkələri, bütün dünya bilir. Biz son illər ərzində çox ciddi işləmişik. Biz güc yığmışıq. Biz bu gücü ona görə yığmışıq ki, lazım olan anda ondan istifadə edək. Biz, bir daha demək istəyirəm ki, bütün ölkələrlə yaxşı münasibətlərin qurulmasının tərəfdarıyıq. Biz istəyirik ki, bölgədə bütün ölkələr bir-biri ilə yaxşı əlaqədə olsunlar. Ancaq bunu etmək üçün başlıca şərt Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Hesab edirəm ki, bunu artıq hamı bilməlidir və hamı, bütün dünya birliyi bu məsələnin həllinə çalışmalıdır. Bu, yeganə məsələdir ki, biz son beş il ərzində bunu həll edə bilməmişik. Bunun da səbəbi aydındır, çünki bu, təkcə bizdən asılı deyil. Eyni zamanda, ona görə ki, biz hələ sülh danışıqlarına ümidliyik, biz hələ bütün imkanlardan istifadə etmək istəyirik. Bizdə hələ ümidlər var ki, nəhayət, Ermənistan reallıqları, düşdüyü vəziyyəti dəqiq təhlil edərək düzgün nəticə çıxaracaqdır. Hər halda biz öz siyasətimizi bütün istiqamətlərdə davam etdirəcəyik. İqtisadi inkişaf davam etdiriləcəkdir.

Azərbaycanda siyasi islahatlar uğurla gedir. Azərbaycan demokratik dövlətdir və demokratiya

yolunu seçibdir. Bizim hüquqi dövlət quruculuğu işində böyük uğurlarımız var. Qanunun aliliyinin tətbiq edilməsində böyük addımlar atılıbdır. Azərbaycanda bütün azadlıqlar var – həm iqtisadi, həm siyasi azadlıqlar.

Azərbaycan öz tarixinə, milli irsinə bağlı olan, ancaq müasir, dünyəvi ölkədir və belə də inkişaf edəcəkdir. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm, çox nikbin görürəm. Bizim uzunmüddətli inkişaf strategiyamız var və biz fəaliyyətimizi bu strategiya əsasında qururuq. Mən şübhə etmirəm ki, ölkəmiz növbəti illərdə də sürətlə inkişaf edəcək, Azərbaycan xalqının rifah halı daha da yaxşılaşacaq, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənəcəkdir.

Bütün bu gözəl işlərdə sizə və bütün Azərbaycan xalqına yeni uğurlar, yeni nailiyyətlər arzulayıram.

Sağ olun.

# AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ
# 90TH ANNIVERSARY OF AZERBAIJAN'S DIPLOMACY
# 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

Məlum olduğu kimi, 24 avqust 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında aşağıdakı Sərəncamı imzalamışdır:

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Müsəlman dünyasında ilk Demokratik Respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu il iyul ayının 9-da Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq qərara alıram:

1. Hər il 9 iyul Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 avqust 2007-ci il
№ 2356

Sərəncamdan göründüyü kimi, milli diplomatiyamızın tarixi rəsmən 9 iyul 1919-cu ildən başlayır. Qeyd etmək lazımıdır ki, Diplomatiya gününün müəyyən olunması ilə bağlı bir neçə təkliflər nəzərdən keçirilmişdir, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlə imzaladığı ilk müqaviləsi - Osmanlı Türkiyəsi ilə bağlanan müqavilə günü, Paris Sülh Konfransında Antanta dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin de facto tanındığı gün və s. Lakin nəticədə qərara alınmışıdır ki, arxivlərdən Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə aid tapılmış ilk rəsmi sənəd 1919-cu il 9 iyul tarixli Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimat olduğundan məhz bu tarix Diplomatiya gününün əsasını təşkil etsin.

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində əldə etdiyimiz 1919-cu il iyul ayının 9-da qəbul edilmiş Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair aşağıdakı müvəqqəti təlimatı nəzərinizə çatdırırıq.

## ВРЕМЕННЫЙ НАКАЗЪ

## КАНЦЕЛЯРІЙ МИНИСТЕРСТВА ИНОСТРАННЫХЪ ДѢЛЪ

## АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ.

Во главѣ канцелярія Министерства Иностранныхъ Дѣлъ стоитъ Директоръ ея, въ рукахъ коего находится управленіе всѣми отдѣлами канцеляріи и внутренній распорядокъ.-

Непосредственнымъ помощникомъ и замѣстителемъ Директора Канцеляріи является Вице-Директоръ, на обязанности коего лежитъ завѣдываніе всей текущей перепиской Канцеляріи, не Дипломатическаго характера.

На обязанности Секретаря лежитъ завѣдываніе Дипломатическимъ отдѣленіемъ и личной перепиской Министра.

Канцелярія Министерства состоитъ изъ трехъ отдѣленій, а именно: Дипломатическаго, 2. Общихъ Дѣлъ и 3. Хозяйственнаго.

При канцеляріи состоятъ: Драгоманъ, обслуживающій всѣ отдѣленія Канцеляріи, Старшій и Младшій Чиновникъ Особыхъ порученій, исполняющіе порученія г. Министра, причемъ Младшій Чиновникъ Особыхъ Порученій вѣдаетъ также пріемомъ просителей.

Регистратура и архивъ-общіе для всей канцеляріи.

Отдѣленіе Общихъ Дѣлъ ввѣряется Дѣлопроизводителю его, хозяйственный Отдѣлъ-Бухгалтеру и Архивъ- Архиваріусу на правахъ начальниковъ Отдѣловъ, которые вѣдаютъ не только всей текущей перепиской ввѣренныхъ имъ отдѣловъ, но и являются отвѣтственными за полноту информаціи Директора Канцеляріи по всѣмъ вопросамъ подлежащимъ вѣдѣнію отдѣловъ.

### ДИПЛОМАТИЧЕСКОЕ ОТДѢЛЕНІЕ.

Отдѣленіемъ завѣдуетъ Секретарь Министерства. При отдѣленіи состоятъ: Дѣлопроизводитель, 2 помощника Дѣлопроизводителя, переводчика съ иностранныхъ и тюркскаго языковъ, 3 ремингтонистки, въ томъ числѣ одна иностранныхъ языковъ и одинъ канцелярскій служитель.

Вѣдѣнію Отдѣла подлежитъ переписка Дипломатическаго характера, а также:

I/ Составленіе, по порученію г. Министра протестовъ и нотъ, представляемыхъ иностраннымъ Правительствамъ.

2/ Составленіе отвѣтныхъ нотъ.

3/ Составленіе формальныхъ грамотъ и писемъ отъ имени Правительства.

4/ Дѣла о признаніи независимости Азербайджана и вопросы о территоріальныхъ границахъ.

5/ Дѣла о признаніи Дипломатическихъ представителей, Генеральныхъ Консуловъ, Вице-Консуловъ и Консульскихъ Агентствъ Иностранныхъ Державъ.

6/ Защита интересовъ гражданъ Республики за-границей.

7/ Повѣрка съ подлинниками переводовъ разныхъ актовъ и документовъ, писанныхъ на иностранныхъ и тюркскомъ языкахъ и наоборотъ.

8/ Переписка секретнаго характера.

9/ Шифръ.

II. ОТДѢЛЕНІЕ ОБЩИХЪ ДѢЛЪ.

Отдѣлъ ввѣряется Дѣлопроизводителю. При отдѣлѣ состоятъ: Помощникъ Дѣлопроиз-во-дителя, 2 ремингтонистки и Канцелярскій служитель.

Вѣдѣнію Отдѣла подлежатъ:

I/ Веденіе переписки съ Центральными и мѣстными Учрежденіями Республики,

2/ Оказаніе законнаго содѣйствія просьбамъ иностранцевъ, пребывающихъ на территоріи Республики,

3/ Дѣла объ юридическихъ отношеніяхъ гражданъ Республики заграницей и иностранцевъ въ предѣлахъ Республики.

4/ Разная переписка о гражданахъ Республики/пребывающихъ за границей и объ иностранцахъ/ пребывающихъ на территоріи Республики

5/ Удостовѣреніе по требованію Правительственныхъ учрежденій и просьбамъ частныхъ лицъ-засвидѣтельствованій посольствъ, Миссій и Консульствъ иностранныхъ государствъ на документахъ и актахъ, которые предъявляются въ присутственныя мѣста Республики.



AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

28

6/ Удостовѣреніе засвидѣтельствованій присутственныхъ мѣстъ Республики на актахъ и документахъ, которые отправляются въ установленія иностранныхъ государствъ.

7/ Удостовѣреніе засвидѣтельствованій и подписей биржевыхъ маклеровъ, Нотаріусовъ и другихъ лицъ, уполномоченныхъ на то закономъ на переводахъ, сдѣланныхъ съ тюркскаго на другіе языки и актахъ, подлежащихъ отправкѣ въ судебныя и правительственныя мѣста иностранныхъ государствъ.

8/ Веденіе дѣлъ о личномъ составѣ всѣхъ установленій Министерства,

9/ Веденіе дѣлъ о законопроектахъ различныхъ вѣдомствъ Республики, препровождаемыхъ для ознакомленія,

10/ Составленіе разныхъ законопроектовъ по подвѣдомственнымъ Министерству дѣламъ, а также справокъ и объясненій по нимъ.

11/ Веденіе нарядовъ: къ руководству и по предметамъ общаго характера.

ХОЗЯЙСТВЕННОЕ ОТДѢЛЕНІЕ.

Отдѣлъ ввѣряется Бухгалтеру. При отдѣлѣ состоитъ помощникъ Делопроизводителя.

Въ вѣдѣніи начальника хозяйственнаго отдѣла находятся всѣ курьеры канцеляріи, швейцаръ и горничная.

Вѣдѣнію отдѣла подлежитъ:

1. Составленіе смѣты расходовъ по Министерству,

2. Завѣдываніе всѣмъ казеннымъ имуществомъ Министерства, какъ въ предѣлахъ Республики, такъ и за-границей.

3/ Веденіе бухгалтерскихъ книгъ,

4/ Производство всѣхъ расходовъ по Министерству,

5/ Экзекуторская часть.

СВОДНАЯ РЕГИСТРАТУРА.

Регистратура находится въ вѣдѣніи регистратора; при немъ состоитъ его помощникъ.

Регистраторъ, кромѣ веденія входящаго и исходящаго журнала вѣдает также экспедиціей курьеровъ и на обязанности его лежитъ провѣрка разъѣздныхъ книжекъ курьеровъ.

## А Р Х И В Ъ.

Архивъ Министерства ввѣряется архиваріусу, который занимается собираніемъ и приведеніемъ въ систему всѣхъ актовъ, документовъ и бумагъ, относящихся къ Закавказью, а, главнымъ образомъ, къ Азербайджану.

Въ архивѣ хранятся:

1/ Акты и бумаги, относящіеся къ важнѣйшимъ событіямъ политической жизни Азербайджана,

2/ Дѣла, оконченныя производствомъ,

3/ Шнуровыя книги и документы всѣхъ установленій Министерства.

Канцелярскіе служащіе, какъ-то: канцелярскіе чиновники и ремингтонистки раздѣляются для работъ въ отдѣлахъ Директоромъ Канцеляріи соотвѣтственно количеству работъ въ томъ или иномъ отдѣленіи, а равно, въ зависимости отъ интенсивности работъ въ отдѣленіи Директором могутъ быть командированы къ временному исполненію тѣхъ или иныхъ обязанностей, всѣ чины канцеляріи.

\- - - -

Вся, получаемая Министерствомъ почта поступаетъ въ регистратуру гдѣ вскрывается регистраторомъ и заносится въ реестръ входящихъ бумагъ, за исключеніемъ секретныхъ пакетовъ и телеграммъ, которые по полученіи немедленно подаются г. Директору.

Въ неприсутственные дни для пріема почты, а также для экстренныхъ работъ устанавливается очередное дежурство канцелярскихъ служащихъ по одному человѣку изъ числа помощниковъ дѣлопроизводителей канцелярскихъ служителей и по одной ремингтонисткѣ.

Телеграммы, получаемыя въ неприсутственные дни немедленно, по ихъ вступленіи отсылаются на квартиру г. Директору.

По записи, поступающей почты въ реестръ входящихъ бумагъ, регистраторъ всю почту подаетъ Вице-Директору, причемъ послѣдній, по рассмотрѣніи почты, распредѣляетъ ее по соотвѣтствующимъ отдѣлен[illegible]

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

Journal of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan

Канцелярiи и возвращаетъ обратно въ регистратуру для передачи въ соотвѣтствующiя отдѣленiя подъ расписки начальниковъ отдѣленiй или ихъ помощниковъ.

По полученiи почты Начальники Отдѣленiй, ознакомившись съ содержанiемъ бумагъ, отмѣчаютъ на нихъ номера дѣлъ, къ коимъ они относятся и, въ случаѣ надобности, дѣлаютъ на нихъ, за своей подписью письменныя справки. После того, начальники отдѣленiй докладываютъ поступившую въ ихъ отдѣленiе переписку г. Директору.

Исходящiя бумаги составляются въ соотвѣтствующихъ отдѣленiяхъ Канцелярiи по резолюцiямъ и скрѣпляются Начальниками соотвѣтствующихъ отдѣленiй, которые, послѣ того, подаютъ ихъ на подпись г. Директору или Вице-Директору, согласно резолюцiи г. Директора.

Переписка дипломатическаго характера, а также всѣ бумаги, идущiе за подписью г. Министра скрѣпляются Начальниками Отдѣленiй и подписываются г. Директоромъ и г. Министромъ. Бумаги, исходящiя отъ Министерства подписываются г. Директоромъ или г. Вице-Директоромъ и скрѣпляются г. дѣлопроизводителемъ.

По записи исходящихъ бумагъ въ реестръ и отправкѣ ихъ по принадлежности, регистраторъ, отмѣтивъ номера исходящихъ бумагъ на отпускахъ, передаетъ послѣднiе въ соотвѣтствующiя отдѣленiя подъ расписку.

Отпуски бумагъ обязательно должны имѣть скрѣпку.

Веденiе Приказовъ по Министерству Иностранныхъ Дѣлъ, а также по Канцелярiи Министерства временно возлагается на Драгомана, у коего сосредотачиваются всѣ свѣдѣнiя, подлежащiя отдачѣ въ приказахъ. На Драгомана возлагается обязанность составлять черновые приказы по Министерству и Канцелярiи Министерства, Начальники отдѣловъ должны слѣдить за тѣмъ, чтобы Драгоману своевременно передавались бы всѣ свѣдѣнiя и распоряженiя, подлежащiя отдачѣ въ приказахъ.

Приказы по Министерству подписываются г. Министромъ или за него г. Товарищемъ Министра. Приказы по Канцелярiи Министерства подписываются г. Директоромъ Канцелярiи или за него г. Вице-Директо

ромъ. Всѣ черновые приказы скрѣпляются лицомъ, на обязанности ко лежитъ веденіе ихъ.

Посѣтителей, въ назначенные для пріема г. Министромъ, его Тов щемъ и Директоромъ, а также для выдачи справокъ изъ Канцеляріи ч сы, принимаетъ Младшій Чиновникъ Особыхъ Порученій, который веде списокъ посѣтителей.

Посѣтители допускаются на пріемъ къ г. Министру и его Товарищ по докладѣ о нихъ Директору Канцеляріи.

Изъ чиновъ канцеляріи, безъ особаго вызова въ кабинетъ г. Мин стра являются съ докладомъ: г. Директоръ, Вице-Директоръ, Секрета и Чиновники Особыхъ Порученій.

Ежемѣсячно, не позже 5 числа каждаго мѣсяца, приказомъ по кан целяріи, подъ Предсѣдательствомъ Директора назначается комиссія, состоящая изъ Предсѣдателя и двухъ членовъ для провѣрки прав[illegible] ности веденія бухгалтеріи, причемъ о результатахъ этой провѣрки [illegible]дается въ приказѣ по Канцеляріи Министерства.

Смѣта расходовъ по Министерству составляется Бухгалтеромъ и обсуждается въ Комиссіи подъ предсѣдательствомъ Директора Канцеляріи.

Членами этой Комиссіи состоятъ: Вице-Директоръ, Секретарь и Бухгалтеръ.

Составлено 9 Іюля 1919 г.

ВИЦЕ- ДИРЕКТОРЪ КАНЦЕЛЯРІИ

Съ подлиннымъ вѣрно: [signature]

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

Azərbaycan diplomatiyası ilk addımlarını atarkən - 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib.

Ukrayna Demokratik Respublikasının Xarici İşlər Naziri tərəfindən 1919-cu ildə Ukraynanın Azərbaycanda diplomatik nümayəndəliyinin başçısının təyin edilməsinə dair Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirinə göndərilən etimadnamənin surətini nəzərinizə çatdırırıq.

**Верительная грамота министра иностранных дел Украинской Демократической Республики В. Чеховского председателю Совета Министров, министру иностранных дел Ф. Х. Хойскому о назначении начальником Особой дипломатической миссии Украины в Азербайджане И. Красковского**

*Винница* *8 февраля 1919 г.*

От имени украинского народа Директория Демократической Украинской Республики удостоверяет настоящим, что г. Иван Красковский, бывший галицийский комиссар Центральной Рады, бывший министр внутренних дел, советник Министерства иностранных дел, управляющий делами Директории, назначен начальником Особой дипломатической миссии Украинской Демократической Республики при правительстве Азербайджанской Республики.

Я имею честь просить Ваше Высокопресвосходительство оказывать г. Красковскому полное доверие во всех делах, касающихся дипломатического представителя Украинской Демократической Республики и оказывать доверие всем сообщениям, кои он будет делать от имени украинского правительства.

В надежде, что г. Красковский окажется достойным возложенной на него высокой миссии, и это письмо было ему вручено.

Министр иностранных дел В. Чеховский

ГААР, ф. 897, оп. 1, д. 38, л. 42. Заверенная копия. Подлинник на фр. яз. — там же, л. 41.

11 yanvar 1920-ci ildə Paris Sülh Konfransında Azərbaycan Cümhuriyyətinin müstəqilliyi de facto tanınandan sonra Azərbaycan hökuməti tərəfindən Qərbi Avropa və Amerikada Azərbaycanın diplomatik nümayəndəliklərinin təsis edilməsinə dair qanun layihəsi hazırlanmışıdır. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində əldə etdiyimiz sözügedən qanun layihəsini nəzərinizə çatdırırıq.

ЗАКОНОПРОЕКТЪ

ОБЪ УЧРЕЖДЕНІИ ДИПЛОМАТИЧЕСКИХЪ МИССІЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ВЪ ЗАПАДНОЙ ЕВРОПѢ И АМЕРИКѢ И ОБЪ УПРАЗДНЕНІИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕЛЕГАЦІИ ПАРИЖСКОЙ МИРНОЙ КОНФЕРЕНЦІИ.

I.

Учредить съ I-го апрѣля с/г. Дипломатическія Миссіи Азербайджанской Республики: при Правительствахъ Французской Республики, Его Величества роля Великобританіи, Швейцарской Республики, Его Величества КороляИталі Сѣверо-Соединенныхъ штатовъ и Польской Республики согласно прилагаемы при семъ временнымъ штатамъ, составленнымъ на 6 мѣсяцевъ.

II.

Упразднить по прибытіи въ Парижъ Дипломатической Миссіи Азербайдже ской Республики при Правительствѣ Французской Республики учрежденную постановленіемъ Правительства отъ 28-го декабря 1919 года Азербайджан скую Делегацію на Парижской Мирной Конференціи.

III.

Ассигновать на содержаніе упомянутыхъ шести Дипломатическихъ Миссі съ I-го апрѣля с/г. на 6 мѣсяцевъ 88.320 фунтовъ стерлинговъ. ВОСЕМЬДЕС ВОСЕМЬ ТЫСЯЧЪ ТРИСТА ДВАДЦАТЬ фунтовъ стерлинговъ.

Министръ Иностранныхъ Дѣлъ Ф.Хойскій.

Съ подлиннымъ вѣрно:
Начальникъ Отдѣленія
Общихъ Дѣлъ

## ОБЪЯСНИТЕЛЬНАЯ ЗАПИСКА

Объявленіе независимости Азербайджана создавало необходимост
добиться признанія Европейскими Державами этой независимости.Съ
этой цѣлью,какъ извѣстно,была послана въ Парижъ на Конференцію
делегація,на которую и была возложена эта обязанность.

Въ связи съ работой нашей Парижской делегаціи явилась крайня
необходимость установленія тѣхъ или иныхъ взаимоотношеній,какъ
Европейскими странами и Америкой,такъ и съ вновь образовавшимис
государствами на территоріи б.Россіи,которые начали все болѣе и
лѣе интересоваться Закавказьемъ и въ частности Азербайджаномъ,п
лая сюда всевозможныя Миссіи.Присылка случайныхъ Миссій въ боль
ствѣ случаевъ съ какой либо спеціальной цѣлью не могла,конечно,
собствовать установленію правильныхъ взаимоотношеній между наше
Республикой и указанными государствами,почему Правительство 7-г
января с/г.постановило послать Дипломатическія Миссіи въ Западн
Европу,Америку,Польшу и во вновь образованныя государства на те
риторіи б.Россіи.

Съ признаніемъ же Антантой независимости нашей Республики во
можность и необходимость установленія правильныхъ взаимоотношен
Азербайджана съ Европейскими странами и Америкой еще болѣе усил
лась.

Одной изъ главныхъ задачъ указанныхъ Миссій,помимо взаимнаго
накомленія съ политическимъ и финансово-экономическимъ положені
этихъ странъ и нашего государства,является установленіе тѣсной
литической и экономической связи между нами.

Въ цѣляхъ упроченія политическаго положенія нашей страны Мис
должны будутъ:а/создавать условія соглашенія,направленныя къ об
нѣ нашего государства отъ всякихъ внѣшнихъ посягательствъ,в/доб
ваться юридическаго признанія суверенности нашего государства,с
стремиться къ установленію постоянныхъ нашихъ дипломатическихъ
ставительствъ въ тѣхъ государствахъ,гдѣ въ этомъ встрѣтится нео
димость.

Помимо политической работы,Миссіи должны способствовать экон
ческому и промышленному подъему нашей страны.Въ этихъ видахъ он
должны будутъ выяснять условія заграничныхъ рынковъ,вступать въ

глашенія о товарообмѣнѣ, пріобрѣтать необходимые для нашей страны продукты, техническіе матеріалы, орудія, машины и т.д., а также содѣйствовать заключенію займовъ на выгодныхъ условіяхъ, гдѣ представится возможнымъ, и даже заключать таковые.

Въ виду того, что проектируемыя Правительствомъ Миссіи носятъ пока временный характеръ и штаты выработаны временные, Министерство Иностранныхъ Дѣлъ находитъ возможнымъ, чтобы личный составъ Мисс былъ по возможности незначителенъ. Проектируемый штатъ по мнѣнію Министерства, состоящій изъ 4 лицъ - Дипломатическаго Представителя, или Начальника Миссіи, Совѣтника - спеціалиста по экономическимъ и техническимъ вопросамъ, Секретаря и одного Драгомана - является вполнѣ достаточнымъ.

Нѣкоторое исключеніе въ этомъ отношеніи приходится дѣлать Мис посылаемой въ Польшу. Этой Миссіи, какъ извѣстно, придется помимо установленія связей непосредственно съ Польшей, завязать сношенія съ Руминіей и съ государствами, образовавшимися на территоріи б. Россіи - Латвіей, Литвой, Украйной, Эстоніей, и Финляндіей.

Въ виду значительности, такъ сказать, района дѣйствія этой Миссіи необходимости частныхъ разъѣздовъ для установленія связи съ новообразовавшимися государствами, представляется необходимость усилить ~~этой~~ -составъ- Миссіи еще однимъ Совѣтникомъ и Секретаремъ.

Кромѣ того, чтобы имѣть постоянную связь Миссіямъ съ Министерствомъ Иностранныхъ Дѣлъ и получать отъ послѣдняго тѣ или иныя указанія, Министерство считало нужнымъ установить при каждой Миссіи одну должность Дипломатическаго курьера, который могъ бы служить для командировокъ, дабы не ослаблять состава Миссіи и не находится въ зависимости отъ равныхъ случайныхъ лицъ.

Обращаясь къ вопросу о валютѣ, въ которой должны быть оплачены расходы на содержаніе этихъ Миссій, Министерство находитъ нужнымъ остановиться на такой валютѣ, которая менѣе всего подвержена колебанію. Какъ показываетъ опытъ, такъ и свѣдѣнія, исходящія изъ разныхъ освѣдомленныхъ источниковъ, наиболѣе устойчивой валютой являются фунты стерлинговъ, которые къ тому же нынѣ легче раздобыть нежели французскіе франки, имѣющіе тенденцію къ пониженію.

Что же касается окладовъ содержанія, то Министерство, считаясь съ условіями жизни странъ, мѣста назначенія Миссій, каковыя условія почти вездѣ одинаковы, а также съ необходимостью созданія условій,

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

могущихъ обезпечить спокойную, продуктивную работу состава Миссіи,
находить проектируемые оклады вполнѣ достаточными тѣмъ болѣе, что
подобные оклады установлены и другими Правительствами своимъ пре
ставителямъ за-границей, напримѣръ, Японіей, Швейцаріей и т.д.

Такъ какъ опредѣлить заранѣе размѣры разныхъ расходовъ на пред
ставительство, агитацію, а также канцелярскіе и хозяйственные, наем
квартиры и т.д. не представляется возможнымъ, то Министерство нахо
цѣлесообразнымъ единовременный отпускъ на эти расходы въ распоря
ніе главы Миссіи подъ отчетъ той или иной суммы въ зависимости о
мѣста командированія Миссіи, при этомъ необходимо указать, что рас
ходы на агитацію въ печати, на наемъ квартиръ, въ виду дороговизн
послѣднихъ, а также представительство будутъ очень значительны.

Для Миссіи же, посылаемой въ Польшу, значительную статью расход
составятъ разъѣзды. Также большіе путевые расходы придется имѣть
Миссіи, посылаемой въ Америку, въ виду высокихъ тарифовъ, существую
щихъ нынѣ на океанскихъ пароходахъ. По изложеннымъ соображеніямъ
и размѣры единовременныхъ ассигнованій различны.

Въ виду того, что нынѣ не представляется возможнымъ заранѣе опр
дѣлить всѣ условія работы, а также условія жизни, Министерство нах
дитъ цѣлесообразнымъ, чтобы Начальникамъ Миссіи было предоставлен
право увеличивать установленные оклады содержанія за счетъ едино-
временныхъ ассигнованій.

Всѣхъ проектируемыхъ Дипломатическихъ Миссій предполагается ше
а именно въ Парижѣ, Лондонѣ, Римѣ, Швейцаріи, Америкѣ и Польшѣ вмѣстѣ
со всѣми пограничными съ Россіей государствами.

Конечно съ отправкой этихъ Миссій уже исчезаетъ необходимость
въ дальнѣйшемъ существованіи нашей мирной делегаціи въ Парижѣ, тѣм
болѣе, что Мирная Конференція, уже почти заканчиваетъ свои работы
она уже потеряла свой первоначальный компактный характеръ и свое
опредѣленное мѣстопребываніе; какъ извѣстно Верховный Совѣтъ засѣд
етъ то въ Парижѣ, то въ Лондонѣ, а нынѣ предполагается перенести св
засѣданія въ Римъ; при такихъ условіяхъ нѣтъ никакой надобности въ
дальнѣйшемъ существованіи нашей мирной делегаціи въ Парижѣ, цѣли,
преслѣдуемыя ею скорѣе и легче могутъ быть достигнуты отдѣльными
дипломатическими Миссіями въ столицахъ Союзныхъ Государствъ, по эт
соображеніямъ Правительство 5 марта с/г. постановило одновременно
установленіемъ въ Парижѣ Дипломатической Миссіи упразднить прежн

могущихъ обезпечить спокойную, продуктивную работу состава Миссiи,
находитъ проектируемые оклады вполнѣ достаточными тѣмъ болѣе, что
подобные оклады установлены и другими Правительствами своимъ пре
ставителямъ за-границей, напримѣръ, Японiей, Швейцарiей и т.д.

Такъ какъ опредѣлить заранѣе размѣры разныхъ расходовъ на пред
ставительство, агитацiю, а также канцелярскiе и хозяйственные, наем
квартиры и т.д. не представляется возможнымъ, то Министерство нахо
цѣлесообразнымъ единовременный отпускъ на эти расходы въ распоря
нiе главы Миссiи подъ отчетъ той или иной суммы въ зависимости о
мѣста командированiя Миссiи, при этомъ необходимо указать, что рас
ходы на агитацiю въ печати, на наемъ квартиръ, въ виду дороговизн
послѣднихъ, а также представительство будутъ очень значительны.

Для Миссiи же, посылаемой въ Польшу, значительную статью расход
составятъ разъѣзды. Также большiе путевые расходы придется имѣть
Миссiи, посылаемой въ Америку, въ виду высокихъ тарифовъ, существую
щихъ нынѣ на океанскихъ пароходахъ. По изложеннымъ соображенiямъ
и размѣры единовременныхъ ассигнованiй различны.

Въ виду того, что нынѣ не представляется возможнымъ заранѣе опр
дѣлить всѣ условiя работы, а также условiя жизни, Министерство нах
дитъ цѣлесообразнымъ, чтобы Начальникамъ Миссiи было предоставлен
право увеличивать установленные оклады содержанiя за счетъ едино-
временныхъ ассигнованiй.

Всѣхъ проектируемыхъ Дипломатическихъ Миссiй предполагается ше
а именно въ Парижѣ, Лондонѣ, Римѣ, Швейцарiи, Америкѣ и Польшѣ вмѣстѣ
со всѣми пригpаничными съ Россiей государствами.

Конечно съ отправкой этихъ Миссiй уже исчезаетъ необходимость
въ дальнѣйшемъ существованiи нашей мирной делегацiи въ Парижѣ, тѣм
болѣе, что Мирная Конференцiя, уже почти заканчиваетъ свои работы
она уже потеряла свой первоначальный компактный характеръ и свое
опредѣленное мѣстопребыванiе; какъ извѣстно Верховный Совѣтъ засѣд
етъ то въ Парижѣ, то въ Лондонѣ, а нынѣ предполагается перенести ег
засѣданiя въ Римъ; при такихъ условiяхъ нѣтъ никакой надобности въ
дальнѣйшемъ существованiи нашей мирной делегацiи въ Парижѣ, цѣли,
предлѣдуемыя ею скорѣе и легче могутъ быть достигнуты отдѣльными
дипломатическими Миссiями въ столицахъ Союзныхъ Государствъ, по эт
соображенiямъ Правительство 5 марта с/г. постановило одновременно
установленiемъ въ Парижѣ Дипломатической Миссiи упразднить прежн



AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

щую тамъ Мирную делегацію, отозвавъ обратно ея членовъ, если о и не получатъ другого назначенія. въ вышеуказанныхъ Дипломатическихъ Миссіяхъ.

Министръ Иностранныхъ Дѣлъ Ф. Хойскій.

Съ подлиннымъ вѣрно:
Начальникъ Отдѣленія
Общихъ Дѣлъ

**1919-cu ildə Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin blanklarında istifadə edilən rekivizit**

آذربایجان حکومت جمهوریه‌سی
خارجیه نظارتی
۱۹۱ ................................
نومرو ................
باکو

République d'Azerbeidjan
Ministre des affaires étrangères
BACOU

АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА
МИНИСТЕРСТВО ИНОСТРАННЫХЪ ДѢЛЪ

........ .................. 191 г.

№

г. БАКУ.

# Azərbaycanin xarici işlər nazirləri: Siyasi - bioqrafik portret*



## Məmmədhəsən Cəfərqulu oğlu Hacınski
## 28 may - 7 dekabr 1918

Azərbaycanın görkəmli siyasi və ictimai xadimlərindən, xalqımızın azadlığı və müstəqilliyi uğrunda mübarizəsinin fəal iştirakçılarından biri Məmmədhəsən Cəfərqulu oğlu Hacınski olmuşdur.

M.Hacınski 1875-ci il martın 3-də Bakı şəhərində anadan olmuşdur. O, XIX əsrin 80-90-cı illərində Bakı realnı məktəbini bitirərək təhsilini davam etdirmək məqsədilə 1897-ci ildə Rusiya imperiyasının mərkəzi Sankt-Peterburq şəhərinə getmişdir. O, Peterburq Texnoloji İnstitutuna daxil olmuşdur. 1902-ci ilin axırlarında Bakıya qayıdan Məmmədhəsən Bakı şəhər upravasının tikinti şöbəsinin rəisi təyin olunmuşdur. 1902-1917-ci illərdə Bakı Dumasının üzvü olmuş və onun bir çox iclaslarına sədrlik etmişdir.

1917-1920-ci illər M.Hacınskinin siyasi, ictimai fəaliyyətinin ən qızğın və gərgin dövrü olmuşdur. 1917-ci il martın 29-da Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi. Komitənin sədri M.Hacınski, müavini isə M.Rəsulzadə seçildi. M.Hacınski 1917-ci il noyabrın 15-də yaradılmış Zaqafqaziya Komissarlığının ticarət və sənaye komissarının müavini vəzifəsində çalışmışdır.

1918-ci il aprelin 26-da yaradılmış Zaqafqaziyanın yeni hökumətində M.Hacınski ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

Seymdəki Azərbaycan nümayəndələrinin gərgin səyləri nəticəsində Batumda sülh danışıqlarına başlamaq haqqında razılıq əldə edildi və nümayəndə heyəti yaradıldı. Buraya 6 nümayəndə, o cümlədən M.Hacınski daxil oldu. Mayın 11-də açılan konfransın cəmi bir iclası oldu. Burada M.Rəsulzadə ilə birlikdə M.Hacınski azərbaycanlıların mənafeyini fəal müdafiə etmişdir.

Zaqafqaziya Demokratik Federativ Respublikası həm daxili, həm də xarici məsələləri, həm də millətlər arasındakı ziddiyyətləri həll edə bilməyərək üç müstəqil dövlətə ayrıldı.

1918-ci il mayın 28-də Milli Şuranın ilk iclasında Azərbaycan Xalq Cümhuriyyəti elan edlidi. M.Hacınski Azərbaycanın ilk xarici işlər naziri vəzifəsinə seçildi.

M.Hacınski 1918-ci ilin may-dekabr aylarında Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər naziri olduğu dövrdə qonşu ölkələrlə sərhəd, dəmiryolu, Bakı-Batum neft kəmərindən birlikdə istifadə etmək və s. məsələlrin həllində gərgin fəaliyyət göstərmişdir.

1919-cu ildə M.Hacınski Ə.Topçubaşovla birlikdə Paris sülh danışıqları zamanı ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, Türkiyə, İran və s. ölkələrin başçıları, dövlət nümayəndələri, diplomatları ilə görüşərək Azərbaycanın azadlığa çıxması uğrunda xalqımızın apardığı mübarizə, ağır iqtisadi vəziyyət, zəngin neft ölkəsi olması haqqında məlumat vermişdir. Məhz onların ardıcıl və gərgin əməyi nəticəsində 1920-ci il yanvarın 11-də Ali Şura tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin de-fakto tanınması haqqında qərar qəbul edilmişdir.

Dekabrın 24-də N.Yusifbəyovun təşkil etdiyi V kabinədə M.Hacınski daxili işlər naziri, fevralın 18-dən isə ticarət, sənaye və ərzaq naziri vəzifəsini daşımışdır. 1920-ci il martın 30-da hökumət istefa verdi. Azərbaycan parlamenti yeni hökumətin təşkilini M.Hacınskiyə tapşırdı. 1920-ci ilin aprelində Sovet Rusiyası tərəfindən Şərqdə ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra M.Hacınski Azərbaycan SSR Ali Xalq

* Azərbaycanın xarici işlər nazirlərinin tərcümeyi-halı tarix elmləri doktoru, professor Musa Qasımlı və tarix elmləri namizədi, dosent Elmira Hüseynovanın "Azərbaycanın xarici işlər nazirləri. Bakı, Adiloğlu nəşriyyatı, 2005"-də nəşr edilmiş kitabı əsasında tərtib edilmişdir.

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

Təsərrüfatı Şurasında, Zaqafqaziya Dövlət Plan Komitəsində müxtəlif vəzifələrdə çalışmışdır. M.Hacınski də Azərbaycanın başqa görkəmli, siyasi və ictimai xadimləri kimi repressiyaya məruz qalmışdır. O, 1930-cu il dekabrın 3-də Tiflisdə Zaqafqaziya Dövlət Siyasi İdarəsi (DSİ) tərəfindən həbs edilərək dustaqxanaya salınmış və ağır işgəncələr verilmişdir. Ağır həbsxana həyatına dözməyərək ürək xəstəliyinə və vərəmə tutulan M.Hacınski 1931-ci il fevralın 9-da Tiflisdə vəfat etmişdir.



## Əlimərdan bəy Ələkbər oğluTopçubaşov
## 6 oktyabr - 26 dekabr 1918

Azərbaycanın görkəmli siyasi xadimlərindən, diplomatlarından və hüquqşünaslarından biri olan Əlimərdan bəy Topçubaşov 1865-ci ildə Tiflis şəhərində dünyaya gəlmişdir. İlk təhsilini I Tiflis gimnaziyasında almış və 1884-cü ildə oranı müvəffəqiyyətlə bitirərək Peterburq Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuşdur. Lakin birinci semestrdən sonra o, hüquq fakültəsinə keçmiş və 1888-ci ildə oranı müvəffəqiyyətlə bitirərək hüquq elmləri namizədi adını almışdır.

1905-1907-ci illər rus inqilabı dövründə Azərbaycanın bir çox ziyalısı, o cümlədən Ə.Topçubaşov xalqın azadlıq mübarizəsinə qoşulmuşdur. Ə.Topçubaşovun siyasi və ictimai fəaliyyəti 1917-ci illər Fevral inqilabından və Oktyabr çevrilişindən sonra daha da genişlənmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük sevinclə qarşılayan Ə.Topçubaşov F.Xoyskinin 1918-ci ilin iyununda təşkil etdiyi II kabinədə portfelsiz nazir, oktyabrında isə xarici işlər naziri vəzifəsinə təyin edilmişdir.

Azərbaycan hökuməti Osmanlı imperiyası və onun vasitəsilə Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə Ə.Topçubaşovu fövqəladə səlahiyyətli nazir kimi İstanbula göndərmişdir.

1918-ci il dekabrın 7-də ölkədə yaranmış çox ağır siyasi şəraitdə Azərbaycan parlamenti fəaliyyətə başladı. İstanbulda olmasına baxmayaraq, Azərbaycanda, o cümlədən bütün Qafqazda məşhur olan və hörmət qazanmış Ə.Topçubaşov yekdilliklə Azərbaycanın ilk parlamentinin sədri seçilmişdir. Dekabrın 28-də isə parlament Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibini seçdi. Bu tərkibə Ə.Topçubaşov (sədr), M.Hacınski (sədr müavini), Ə.Şeyxülislamov, Ə.Ağayev, M.Məhərrəmov və C.Hacıbəyli, M.Mehdiyev daxil oldu.

Parisə gələn Azərbaycan nümayəndələri bir ay ərzində Polşa, Gürcüstan, İran, ABŞ, İngiltərə və s. ölkələrin nümayəndə heyətləri ilə görüşmüş və siyasi-iqtisadi vəziyyətlə əlaqədar söhbətlər aparmışlar.

Ə.Topçubaşovun bilavasitə iştirakı ilə hazırlanmış «Qafqaz Azərbaycanı Respublikasının nümayəndələrinin Paris sülh memorandumu» sülh konfransının katibliyinə təqdim edildi. Bu sənəd 14 bölmədən ibarətdir. Burada konfrans nümayəndələrinə Azərbaycanın tarixi-etnoqrafik, iqtisadi və siyasi vəziyyəti haqqında geniş və ətraflı məlumat verilirdi.

1920-ci il yanvarın 15-də Azərbaycan nümayəndələrindən Ə.Topçubaşov və M.Məhərrəmov, Gürcüstan nümayəndələrindən İ.Sereteli və Z.Avalov Fransa Xarici İşlər Nazirliyinə dəvət edildilər. Nazirliyin birinci katibi Jül Kambon Azərbaycanın yanvarın 11-də Ali Şura üzvləri və müttəfiq dövlətlər tərəfindən de-fakto tanındığını bildirdi və Ə.Topçubaşova Paris sülh konfransının rəsmi sənədini verdi.

Azərbaycan Respublikasının dünyanın böyük dövlətləri tərəfindən tanınması Ə.Topçubaşovun başçılığı ilə Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimi Ə.Topçubaşov 1920-1934-cü illərdə Parisdə yaşamış, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, AXC-nin yaranması, ədəbi xadimlər haqqında kitab, qəzet və jurnallarda məqalələr yazmışdır. Siyasi mühacirətin görkəmli xadimlərindən biri kimi Ə.Topçubaşov Fransa rəsmi

dairələrinin nümayəndələri ilə görüşərək Azərbaycanın işğalına son qoyulması uğrunda mübarizədə milli qüvvələrə yardım edilməsi məsələsini qaldırmış, ikitərəfli əlaqələrə dair problemləri müzakirə etmişdir. O,1920-ci il iyulun 5-16-da Spa (Belçika), 1921-ci il fevralın 21-dən martın 14-ə kimi keçirilən London (Böyük Britaniya), 1922-ci ilin aprel-may aylarında keçirilən Genuya (İtaliya) konfranslarında və b. iştirak etmişdir. Ə.Topçubaşov 1934-cü il noyabrın 8-də Parisdə vəfat etmişdir.



## Fətəli xan İsgəndər xan oğlu Xoyski
## 26 dekabr 1918 - 14 mart 1919;
## 24 dekabr 1919 - 1 aprel 1920

Azərbaycanın görkəmli dövlət və siyasi xadimlərindən, müstəqil Azərbaycan dövlətinin yaradıcılarından biri və onun ilk baş naziri Fətəli xan Xoyski olmuşdur. F.Xoyski 1875-ci il noyabrın 25-də Şəki şəhərində anadan olmuşdur.

F.Xoyski 1892-ci ildə Yelizavetpol (indiki Gəncə) klassik gimnaziyasını bitirdikdən sonra Moskva şəhərinə gedərək Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. 1897-ci ildə Moskva Universitetinin hüquq fakültəsini birinci dərəcəli diplomla bitirən F.Xoyski Tiflis Məhkəmə Palatasının sərəncamına göndərilmişdir. F.Xoyski 1897-1907-ci illərdə Yelizavetpol, Kutaisi, Yekatirinodar dairə məhkəmələrində kiçik məhkəmə məmuru, katib, böyük məhkəmə məmuru, istintaq sahəsi müdiri, qəza, dairə məhkəmə prokurorlarının müavini və s. vəzifələrdə çalışmışdır.

F.Xoyski 1917-ci il Fevral inqilabından və Oktyabr çevrilişindən sonra siyasi və ictimai mübarizə hərəkatına fəal surətdə qoşulmuş, qısa müddət ərzində Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda aparılan hərəkatın liderlərindən birinə çevrilmişdir.

1917-ci il oktyabrın 29-da ümumi seçki hüququ əsasında Bakı Şəhər Dumasına seçkilər keçirildi. Yeni seçilmiş Dumanın ilk iclası noyabrın 10-da çağrılmış və burada F.Xoyski 46 səslə Şəhər Dumasının sədri seçilmişdir.

F.Xoyski 1917-ci il noyabrın 15-də Tiflisdə Y.Gegeçkorinin sədrliyi ilə yaradılmış Müstəqil Zaqafqaziya hökuməti - Zaqafqaziya Komissarlığının xalq maarif komissarı vəzifəsini tutmuşdur.

1918-ci il aprelin 22-də Seym səs çoxluğu ilə Zaqafqaziyanı müstəqil, demokratik və federativ respublika elan etdi. F.Xoyski yeni yaradılmış hökumətin tərkibinə ədliyyə naziri kimi daxil olmuşdur.

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında Seymin buraxılması və Gürcüstanın müstəqilliyi elan edilməsi ilə əlaqədar olaraq mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclası keçirildi. M.Rəsulzadənin sədrliyi ilə Müvəqqəti Milli Şura və F.Xoyskinin sədrliyi ilə Milli Şuranın İcra Komitəsi yaradıldı.

Müvəqqəti Milli Şuranın 1918-ci il mayın 28-dəki iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olundu. Bu istiqlal bəyannaməsini imzalayan 24 nəfərdən biri F.Xoyski olmuşdur. Həmin iclasda Milli Şura F.Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etməyi tapşırdı.

1918-ci il dekabrın 26-da yaradılmış yeni hökumətdə F.Xoyski baş nazir vəzifəsilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutmuşdur.

1919-cu il fevralın 25-dən istefaya çıxsa da, F.Xoyski siyasi və ictimai fəaliyyətini davam etdirmişdir. 1919-cu il dekabrın 22-də Azərbaycan parlamenti N.Yusifbəyovun təşkil etdiyi beşinci hökumət kabinəsində F.Xoyskini xarici işlər naziri vəzifəsinə təyin etmişdir. F.Xoyski bu vəzifədə 1920-ci ilin aprelinə qədər çalışmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 27-də XI Qızıl ordu tərəfindən işğal edildi. F.Xoyski bu zaman Tiflis şəhərinə getmiş və orada 1920-ci il iyunun 19-da erməni quldurları tərəfindən xaincəsinə öldürülmüşdür. Xoyski Tiflisdə azərbaycanlıların qəbiristanlığında görkəmli filosof, maarifçi dramaturq M.F.Axundovun məzarı yanında dəfn olunmuşdur.



## Məmmədyusif Hacıbala oğlu Cəfərov
## 14 mart-22 dekabr 1919

Azərbaycanın tanınmış siyasi və ictimai xadimlərindən biri Məmmədyusif Cəfərov 1885-ci ildə Bakıda neft sənayesinin sürətlə inkişafa başladığı bir dövrdə anadan olmuşdur. 1907-ci ildə Bakıda kişi gimnaziyasını bitirən M.Cəfərov o dövrdə Rusiya imperiyasının ikinci böyük şəhəri sayılan Moskvaya getmiş və Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur.

1912-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirən M.Cəfərov Bakıya gələrək Bakı məhkəmələrinin birində andlı hakim köməkçisi vəzifəsində çalışmağa başlamışdır.

M.H.Cəfərov 1912-1917-ci illərdə Sankt-Peterburqda fəaliyyət göstərmiş IV Dövlət Dumasında iştirak etmişdir.

1917-ci il noyabrın 15-də Tiflisdə Müstəqil Zaqafqaziya hökuməti - Zaqafqaziya Komissarlığı yaradıldı. M.Cəfərov bu hökumətdə ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

Müvəqqəti Milli Şuranın 1918-ci il mayın 28-dəki iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olundu. Həmin iclasda F.Xoyskinin elan etdiyi Azərbaycan hökumətinin tərkibində M.Cəfərov ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

M.Cəfərov 1918-ci ilin iyun ayının axırlarından 1919-cu ilin martın ortalarına kimi Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi olmuşdur.

1919-cu il aprelin 14-də Azərbaycan parlamenti N.Yusifbəyovun sədrliyi ilə yeni Azərbaycan hökumətini təsdiq etdi. M.Cəfərov bu hökumətdə xarici işlər naziri vəzifəsini tutdu. O, bu vəzifədə 1919-ci il dekabrın 22-nə kimi çalışdı.

1920-ci il fevralın 2-də Azərbaycan parlamentinin 121-ci iclasında parlament sədrinin müavini H.Ağayevin xəstəliyi ilə əlaqədar olaraq vəzifəsindən getməsi nəticəsində yeni müavin vəzifəsinə Müsavat fraksiyası adından M.Cəfərov təklif edilmişdir. M.Cəfərov 1920-ci il aprelin 27-də parlamentin son iclasında gərgin müzakirədən sonra hakimiyyətin başda N.Nərimanov olmaqla Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır.

M.Cəfərov Azərbaycan Xalq Cümhuriyyəti süquta yetirildikdən sonra Azərbaycan pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışmışdır. O,1938-ci il mayın 15-də Bakıda vəfat etmiş və Sağan kəndində dəfn olunmuşdur.



## Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov
## 28 aprel - 2 may 1920

Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov 1870-ci il aprelin 14-də Tiflis şəhərində anadan olmuşdur. O, 1885-ci ildə Tiflis müsəlman ruhani məktəbini bitirdikdən sonra Qori şəhərindəki Zaqafqaziya müəllimlər seminariyasına daxil olmuşdur. 1890-cı ilin iyununda Zaqafqaziya müəllimlər seminariyasını müvəffəqiyyətlə bitirən N.Nərimanov Tiflis quberniyasının Borçalı qəzasının Qızıl Hacılı kəndinə müəllim vəzifəsinə təyin edilmişdir.

1908-ci ildə Odessa universitetinin tibb fakültəsini müvəffəqiyyətlə bitirən N.Nərimanov Bakıya gələrək şəhər xəstəxanasında həkim işləməyə başlamışdır.

N.Nərimanov 1917-ci ilin aprel-dekabr aylarında Hümmət təşkilati üzvlərinin iclaslarına sədrlik etmiş, komitənin sədri seçilmiş, onun redaktorluğu ilə «Hümmət» qəzeti nəşr olunmuşdur.

N.Nərimanov 1919-cu ilin iyulundan - 1920-ci ilin mayına qədər Moskvada müxtəlif vəzifələr

daşımışdır: RSFSR Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri, RSFSR Xalq Milli İşlər Komissarının müavini və komissarlığın kollegiya üzvü.

Aprelin 27-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsi yaradıldıqda N.Nərimanov qiyabi olaraq onun sədri seçilmişdir. Aprelin 28-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin iclasında Azərbaycan Xalq Komissarlar Soveti təşkil olundu. Azərbaycan Xalq Komissarlar Sovetinin sədri və xarici işlər komissarı vəzifələrinə N.Nərimanov təsdiq edilmişdir.

N.Nərimanov 1920-ci il aprelin 28-dən 1922-ci il martın 12-ə kimi Azərbaycan İnqilab Komitəsinin, Azərbaycan SSR Xalq Komissarları Sovetinin və Müdafiə Şurasının sədri vəzifələrində çalışmışdır. O, Azərbaycanda sovet hakimiyyətinin ilk vaxtlarında daxili və beynəlxalq vəziyyətin gərginliyi ilə əlaqədar olaraq 1920-ci il aprelindən mayın əvvəlinədək Azərbaycan xalq xarici işlər komissarı vəzifəsini də daşımışdır. N.Nərimanov Moskvada 1925-ci il martın 19-da vəfat etmişdir.



## Mirzədavud Bağır oğlu Hüseynov
## 2 may 1920 - dekabr 1921

Mirzədavud Bağır oğlu Hüseynov 1894-cü ilin martında Bakı şəhərində anadan olmuşdur. O, 1906-cı ildə ödənişsiz şəhər məktəbini bitirmiş və Bakı realnı məktəbinə daxil olmuşdur.

1913-cü ildə Bakı realnı məktəbini müvəffəqiyyətlə bitirən M.Hüseynov Moskvaya gedərək Kommersiya İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olmuşdur. 1917-ci ilin may ayında tam kursu dinləmiş və bütün imtahanları verib Bakıya qayıtmışdır.

1918-1919-cu illərdə M.Hüseynov Hümmət Partiyasının üzvü, sədrin müavini, sonra isə sədri kimi Bakının müsəlman fəhlələri arasında iş aparmışdır. O, eyni zamanda bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Maliyyə Nazirliyində şöbə müdiri vəzifəsində çalışmışdır.

1920-ci il fevralın 11-12-də Bakıda gizli şəraitdə Azərbaycan kommunist təşkilatlarının I qurultayı keçirilmişdir. Qurultayda M.Hüseynov AK(b)P MK Rəyasət Heyətinin sədri təsdiq edilmişdir.

Aprelin 28-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin iclasında yeni sovet hökuməti - N.Nərimanov başda olmaqla Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti təşkil olundu. N.Nərimanov Azərbaycan XKS-nin sədri və xalq xarici işlər komissarı, M.Hüseynov XKS sədrinin müavini və xalq maliyyə komissarı təsdiq edildi.

M.Hüseynov N.Nərimanov Bakıya gələnə kimi rəsmi olaraq istər Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə, istərsə də Azərbaycan SSR XKS-ə sədrlik etmiş, Azərbaycan MİK və Azərbaycan SSR XKS-nin verdiyi dekret və sərəncamları imzalamışdır.

M.Hüseynov I Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan MİK üzvü seçilmiş və Azərbaycan MİK-in mayın 21-də keçirilmiş I sessiyasında Azərbaycan XKS tərkibinə daxil olmuş, xalq xarici işlər komissarı və Ali İqtisadi Şuranın sədri təsdiq edilmişdir.

Azərbaycan MİK 1922-ci il 15 may tarixli qərarı ilə XXİK-i ləğv etdi. Azərbaycan XKS isə iyunun 21-də bu barədə müvafiq qərar qəbul etdi.

1922-ci ildə Moskvaya çağırılmış M.Hüseynov RSFSR milli işlər komissarının müavini vəzifəsində çalışmışdır. 1922-1929-cu illərdə M.Hüseynov bir sıra rəhbər vəzifələrdə çalışmışdır. O, ZSFSR XKS sədrinin müavini, xarici işlər komissarı, maliyyə komissarı olmuşdur.

O, 1931-1934-cü illərdə Tacikistan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində çalışmışdır. M.Hüseynov ömrünün son illərində Moskvada işləmişdir. 1934-1937-ci illərdə o, RSFSR Xalq Maarif Komissarlığında qeyri-rus natamam və orta məktəblər idarəsi rəisinin müavini işləmişdir. M.Hüseynov 1937-ci ildə repressiya edilərək öldürülmüşdür.

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА



## Mahmud İsmayıl oğlu Əliyev
## noyabr 1943 - sentyabr 1944

Mahmud İsmayıl oğlu Əliyev 1908-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1926-cı ildə Bakıda orta məktəbi, 1931-ci ildə isə Azərbaycan Tibb İnstitutunun müalicə fakültəsini bitirmiş, gənc həkim kimi hökumət tərəfindən əlaçılar sırasında Azərbaycan rayonlarına işə göndərilmişdir.

1936-1938-ci illərdə Azərbaycan Tibb İnstitutunun aspiranturasında oxumuş, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tibbi təhsil, elm və ali məktəb idarəsinin rəisi, Bakı səhiyyə şöbəsinin müdiri olmuşdur. 1937-ci ildə Naxçıvan MSSR Naxçıvan rayonundan SSRİ Ali Sovetinə keçirilən ilk seçkilərdə İttifaq Sovetinə deputat seçilmişdir. 1938-1943-cü illərdə M.Əliyev Azərbaycan Tibb İnstitutunun rəhbəri işləmişdir. M.Əliyev 1943-1944-cü illərdə Azərbaycan K(b)P MK-nın ali və orta məktəblər şöbəsinə başçılıq etmiş və SSRİ xalq xarici işlər komissarının müavini vəzifəsində işləmişdir.

1944-cü il yanvarın 28-dən fevralın 1-dək keçirilmiş SSRİ Ali Sovetinin X sessiyasının qəbul etdiyi qanunlara əsasən xarici dövlətlərlə bilavasitə əlaqə saxlamaq, beynəlxalq əlaqələri daha da genişləndirmək və artırmaq məqsədi ilə müttəfiq respublikalarda Xalq Xarici İşlər Komissarlıqları təşkil edilməyə başlandı. Bu dövrdə Azərbaycan Xalq Xarici İşlər Komissarlığı yaradılmış və onun ilk komissarı M.Əliyev təyin edilmişdir. M.Əliyev ömrünün son gününə kimi Azərbaycan SSR xarici işlər naziri vəzifəsində çalışmışdır. Lakin bu illərdə Xarici İşlər Nazirliyi yalnız formal olaraq fəaliyyət göstərmiş, demək olar ki, real səlahiyyətləri olmamışdır.

M.Əliyev Azərbaycan xarici işlər naziri olmaqla yanaşı 1950-1953-cü illərdə Azərbaycan SSR səhiyyə naziri, 1953-1958-ci illərdə isə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru olmuşdur. Ona eyni zamanda Fövqəladə və Səlahiyyətli səfir dərəcəsi və Azərbaycanın əməkdar həkimi fəxri adı verilmişdir.

M.Əliyev 1958-ci il sentyabrın 24-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn edilmişdir.



## Tahirə Əkbər qızı Tahirova
## aprel 1959 - 23 noyabr 1983

Tahirə Əkbər qızı Tahirova 1913-cü il noyabrın 7-də Zakaspi vilayətinin (Türkmənistan) Bayraməli şəhərində anadan olmuşdur.

1920-ci ildə Tahirovlar ailəsi Bakıya köçmüşdür. Tahirə xanım Bakıda məktəbə getmiş və 1929-cu ildə onu müvəffəqiyyətlə bitirərək Azərbaycan Neft İnstitutunun nəzdindəki fəhlə fakültəsinə daxil olmuşdur. 1935-ci ildə Azərbaycan Neft İnstitutunun dağ-mədən fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və Azərbaycan Elmi-Tədqiqat İnstitutuna elmi işçi göndərilmişdir.

1936-1937-ci illərdə o, gənc neft mühəndisi kimi Bakının neft mədənlərində çalışmışdır.

T.Tahirova 1937-1940-cı illərdə Azərbaycan Sənaye İnstitutunun Neft yataqlarının istismarı kafedrasının aspirantı və asistenti olmuşdur. 1940-1942-ci illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunda çalışmış və respublika neft sənayesinin tərəqqisi, yeni-yeni elmi nailiyyətlərin və səmərəli təkliflərin, ixtiraların tətbiqi sahəsində xeyli iş görmüşdür.

İstehsalatda və elmi işdə təcrübə qazanan T.Tahirova partiya işinə irəli çəkilmişdir. O, 1942-1949-cu illərdə Azərbaycan K(b)P MK neft şöbəsi müdirinin müavini, MK katibinin neft üzrə

müavini, Azərbaycan K(b)P Bakı Komitəsinin kadrlar üzrə katibi olmuşdur. 1954-cü ilin iyununda qiyabi olaraq Sov.İKP MK yanında Ali Partiya məktəbini bitirmişdir.

1954-1957-ci illərdə T.Tahirova Azərbaycan Həmkarlar İttifaqı Şurasının sədri olmuşdur. T.Tahirova 1957-1963-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Elm və Texnika Komitəsinin sədri və Dövlət Elmi-Tədqiqat İşlərini Əlaqələndirmə Komitəsinin sədri vəzifələrində çalışmışdır. 1959-1983-cü illərdə o, Azərbaycan SSR xarici işlər naziri və Nazirlər Soveti sədrinin müavini (1963-1968) işləmişdir. T.Tahirova xarici işlər naziri kimi Azərbaycanın xarici ölkələrlə iqtisadi, elmi-texniki və mədəni əlaqələrinin ildən-ilə genişləndirilməsində, respublikanın sənaye və kənd təsərrüfatı müəssisələrinin SSRİ-nin xaricdəki ticarət-sənaye sərgi və yarmarkalarında öz mallarını nümayiş etdirməsində, Bakıda Bolqarıstan, Macarıstan, ADR, ABŞ və s. ölkələrin ixtisaslaşdırılmış sərgilərinin, Fransa, Danimarka, Portuqaliya, Avstriya və İtaliyada isə Azərbaycanın timsalında SSRİ günlərinin keçirilməsində, xarici diplomatlarla danışıqlar aparılmasında, eyni zamanda BMT Baş Assambleyasının XII, XXIII, XXX sessiyalarında sovet nümayəndə heyətləri tərkibində iştirak etmişdir. O, dünya ölkələrinin bu ali məclisində diplomat kimi iştirak etmiş ilk azərbaycanlı qadın olmuşdur.

1991-ci il oktyabrın 26-da Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.



**Elmira Mikayıl qızı Qafarova**
**dekabr 1983 - 22 dekabr 1987**

Elmira Mikayıl qızı Qafarova 1934-cü il martın 1-də Bakıda anadan olmuşdur. 1953-cü ildə orta məktəbi müvəffəqiyyətlə, 1958-ci ildə isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1958-1961-ci illərdə E.Qafarova ADU-nun aspirantı olmuş və namizədlik dissertasiyasını müdafiə edib filologiya elmləri namizədi elmi dərəcəsini almışdır.

E.Qafarova 1961-1962-ci illərdə Azərbaycan KP MK-da elm və ali məktəblər şöbəsində təlimatçı, 1961-1962-ci illərdə isə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının katibi vəzifələrində çalışmışdır. Tezliklə respublika gəncləri arasında böyük hörmət və nüfuz qazanan E.Qafarova Azərbaycan LKGİ-nin birinci katibi seçilmişdir. O, bu vəzifədə 1966-1970-ci illərdə işləmişdir.

E.Qafarova 1970-1971-ci illərdə Azərbaycan KP MK mədəniyyət şöbəsi müdirinin müavini, 1971-1980-ci illərdə isə Azərbaycan KP Bakı Komitəsinin ideologiya katibi olmuşdur.

1980-1983-cü illərdə Azərbaycan SSR maarif naziri vəzifəsində çalışmışdır.

E.Qafarova 1983-1987-ci illərdə Azərbaycan SSR xarici işlər naziri vəzifəsini daşımışdır. E.Qafarova xarici işlər naziri kimi Azərbaycanın Avropa, Asiya və Afrikanın bir sıra ölkələri ilə siyasi, ictimai və mədəni əlaqələrinin genişləndirilməsi, bir-birinə nümayəndələr göndərməsi sahəsində, beynəlxalq müşavirə, konfrans və sessiyalarda yaxından iştirak etmişdir. O, 1984-cü ilin oktyabrında BMT Baş Məclisinin XXXIX sessiyasının və onun komitələrinin iclaslarında iştirak və çıxış etmişdir.

1987-1989-cu illərdə E.Qafarova Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışmışdır.

Məsul vəzifələrdə inam və xalqa sədaqətlə, pillə-pillə addımlayan E.Qafarova 1989-1990-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. O, Rəyasət Heyətinin sədri kimi bir sıra iqtisadi və siyasi əhəmiyyətli sərəncam və qərarlarının verilməsində fəal iştirak etmişdir. 1989-cu il dekabrın 30-da Gəncə şəhərinin adının bərpa olunması və 1990-cı il martın 13-də Azərbaycan xalqının milli bayramı olan Novruz bayramının rəsmən qeyd edilməsi haqqında fərmanları E.Qafarova imzalamışdır.

O, 1990-1992-ci illərdə Azərbaycan Ali Sovetinə sədrlik etmişdir.

E.Qafarova 1993-cü il avqustun 1-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

## Hüseynağa Musa oğlu Sadıqov
## 27 yanvar 1988 - may 1992



Hüseynağa Musa oğlu Sadıqov 1940-cı il martın 14-də Bakı şəhərində anadan olmuşdur. 1958-ci ildə Bakı şəhər 132№-li orta məktəbi bitirmişdir. 1958-1963-cü illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili şöbəsində təhsil almışdır. 1962-ci ildən «İnturist»də işlər idarəsinin müavini, 1970-ci ildən Azərbaycan KP MK xarici əlaqələr şöbəsində təlimatçı, 1974-cü ildən Almaniya Demokratik Respublikasının Leypsiq şəhərində SSRİ konsulluğunda vitse-konsul, 1980-ci ildən ADR-in Rostok şəhərində SSRİ konsulluğunda konsul olmuşdur.

1988-ci il yanvarın 27-dən 1992-ci ilin may ayınadək Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsində işləmişdir.



## Tofiq Məsim oğlu Qasımov
## may 1992 - 26 iyun 1993

Tofiq Məsim oğlu Qasımov 1938-ci il aprelin 10-da Azərbaycan Respublikası Ağdaş rayonunun Ləki kəndində anadan olmuşdur. O, 1955-ci ildə 22 №-li Ağstafa dəmiryol orta məktəbini bitirmişdir. 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuş və 1960-cı ildə həmin Universitetin fizika fakültəsini nəzəri fizika ixtisası üzrə bitirmiş, təyinat əsasında Azərbaycan Respublikası Elmlər Akademiyasının Fizika İnstitutunda işə başlamışdır. 1969-cu ilin aprel ayında Leninqrad şəhərində SSRİ Elmlər Akademiyasının Yarımkeçiricilər İnstitutunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini almışdır.

1987-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan edilməsinin təşəbbüskarlarından və Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya aktının müəlliflərindən biridir.

1992-ci ilin may ayında Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin sədrinin fərmanı ilə xarici işlər naziri təyin edilmiş və 1993-cü ilin iyunun 26-dək bu vəzifədə çalışmışdır.

## Həsən Əziz oğlu Həsənov
## 2 sentyabr 1993 - 17 fevral 1998



Həsən Əziz oğlu Həsənov 1940-cı il oktyabrın 20-də Tiflis şəhərində anadan olmuşdur. 1963-cü ildə isə Azərbaycan Politexnik İnstitutunu bitirmiş və inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. Bakı Ali siyasi məktəbini bitirərək politoloq ixtisası almışdır. Moskvada yuxarı dərəcəli məmurların ali kursunu (1969) və yuxarı dərəcəli siyasi xadimlərin ali kursunu (1981) bitirmişdir.

Müxtəlif siyasi və dövlət strukturlarında çalışmışdır. 1960-cı ilin oktyabrından Azərbaycan Politexnik İnstitutunun komsomol komitəsinin təşkilat məsələləri üzrə katibi və Bakı şəhəri Tələbə Şurasının sədri olmuşdur. 1961-ci ilin dekabrından Bakı şəhəri Oktyabr rayon komsomol komitəsində (indiki Yasamal r-nu)

üçüncü katib, 1962-ci ildən Bakı şəhər komsomol komitəsinin təbliğat və təşviqat şöbəsində təlimatçı, Bakı şəhəri Oktyabr rayon komsomol komitəsində ikinci katib, Azərbaycan Komsomolu Mərkəzi Komitəsi texniki peşə məktəblərinin şagirdləri ilə iş üzrə şöbə müdiri, 1966-cı ildə inşaat materialları və konstruksiyası institutunda aspirant, 1969-cu ildə Moskvada komsomolun Mərkəzi Komitəsinin məsul təşkilatçısı, 1971-ci ildən təlimatçı, şöbə müdiri, Azərbaycan KP MK-nın inşaat məsələləri üzrə şöbə müdirinin müavini, 1975-ci ildən Bakı şəhəri 26 Bakı komissarı rayonu (indiki Səbayil r-nu) partiya komitəsinin birinci katibi, 1978-ci ildən Sumqayıt, Kirovabad (indiki Gəncə) şəhər partiya komitələrinin birinci katibi, 1981-ci ildən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın ideologiya məsələləri, inşaat və nəqliyyat, iqtisadi məsələlər üzrə katibi, 1990-1992-ci illlərdə Nazirlər Sovetinin sədri, Azərbaycan Respublikasının baş naziri, 1990-1991-ci illərdə SSRİ Nazirlər Sovetinin üzvü, 1992-1993-cü illərdə Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi olmuşdur. H.Həsənov 1993-cü il sentyabrın 2-dən 198-ci il fevralın 17-dək Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsində çalışmışdır. 2004-cü ildə H.Həsənov Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlhiyyətli səfiri təyin edilmiş və hazırda bu vəzifədə çalışır.



## Tofiq Nadir oğlu Zülfüqarov
## 5 mart 1998 - oktyabr 1999

Tofiq Nadir oğlu Zülfüqarov 1959-cu il noyabrın 1-də Rusiyanın Rostov-Don şəhərində anadan olmuşdur. 1961-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. 1966-1976-cı illərdə Bakı şəhərində 193 saylı orta məktəbdə təhsil almışdır.

1976-cı ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb dili və ədəbiyyatı şöbəsinə daxil olmuş, 1981-ci ildə ərəb, rus dili və ədəbiyyatı müəllimi ixtisasına yiyələnmişdir. 1984-cü ildə Bakı şəhəri Lenin rayonu komsomol komitəsinə işə dəvət olunmuş, bir ildən sonra Azərbaycan Respublikası Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna keçmiş və burada 1990-cı ilə qədər işləmişdir. Sonra isə Azərbaycan EA Tarix İnstitutuna elmi işçi vəzifəsinə keçmişdir. 1988-ci ildə Ermənistan-Azərbaycan münaqişəsinin yaranmasından sonra digər elmi işçilərlə birlikdə Azərbaycan KP MK-nın ekspert-analitik qrupuna göndərilmişdir. 1992-ci ildə T.Zülfüqarov Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə işə qəbul edilmişdr. 1994-cü ilin iyununda Azərbaycan Respublikası xarici işlər nazirinin müavini təyin olunmuşdur. 1998-ci il mart ayından 1999-cu ilin oktybarınadək Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsində çalışmışdır. 2005-ci ildə T.Zülfüqarov Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlhiyyətli səfiri təyin edilmiş və hazırda bu vəzifədə çalışır.



## Vilayət Muxtar oğlu Quliyev
## 26 oktyabr 1999 - 2 aprel 2004-cü il.

Vilayət Muxtar oğlu Quliyev 1952-ci il noyabrın 5-də Ağcabədi rayonunun Ağcabədi qəsəbə-sində anadan olmuşdur. 1970-ci ildə Beyləqan rayonundakı G.Əsədov adına orta məktəbi bitrmişdir. 1970-1975-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1975-ci ildə Beyləqan rayon orta məktəbində müəllim kimi başlamışdır. 1978-1981-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur. 1981-1992-ci illərdə həmin institutda elmi işçi, şöbə müdiri, direktor müavini vəzifələrində işləmişdir. 1982-ci ildə elmlər namizədi, 1990-cı ildə isə elmlər doktoru alimlik dərəcəsini almışdır.

1992-1993-cü illərdə Türkiyə Respublikasında Atatürk Universitetinin professoru, 1994-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifələrində çalışmışdır. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

26 oktybar 1999-cu ildən 2 aprel 2004-cu ilədək xarici işlər naziri vəzifəsində çalışmışdır. 2004-cü ildə V.Quliyev Azərbaycan Respublikasının Polşada fövqəladə və səlhiyyətli səfiri təyin edilmiş və hazırda bu vəzifədə çalışır.



## Elmar Məhərrəm oğlu Məmmədyarov
## 2 aprel 2004

Elmar Məhərrəm oğlu Məmmədyarov 1960-cı il iyulun 2-də Bakı şəhərində anadan olmuşdur. 1977-1982-ci illərdə Kiyev Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Beynəlxalq Hüquq bölməsində təhsil almışıdır. 1982-83-cü illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun xarici tələbələrlə iş üzrə dekanlığında çalışmışdır. 1983-cü ildə Azərbaycan SSR Xarici İşlər Nazirliyinə işə qəbul olunmuşdur. 1987-1990-cı illərdə SSRİ Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında təhsil alaraq, orada tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 1989-1990-cı illərdə ABŞ-ın Braun Universitetinin Xarici siyasətin planlaşdırılması mərkəzində təhsil almışdır. 1990-1992-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsində şöbə müdiri vəzifəsində çalışmışdır. 1992-1995-ci illərdə Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin 1-ci katibi vəzifəsində işləmişdir. 1995-1998-ci illərdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Beynəlxalq Təşkilatlar İdarəsinin rəis müavini olmuşdur. 1998-2003-cü illərdə Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyinin müşavir vəzifəsində çalışmışdır. 2003-cü ildə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfir rütbəsini almışdır. 2003-2004-cü illərdə Azərbaycan Respublikasının İtaliya Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri olmuşdur. 2 aprel 2004-cü ildə Azərbaycan Respublikasının Xarici İşlər Naziri vəzifəsinə təyin edilmişdir.

# MÜASİR AZƏRBAYCAN DİPLOMATİYASININ BANİSİ – HEYDƏR ƏLİYEV



"Xarici siyasət ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir»

**Azərbaycan Respublikasının**
**Ümummilli Lideri**
**Heydər Əliyev**

1993-cü ilin yarısından bəri hazırlanıb həyata keçirilən Azərbaycan Respublikasının xarici siyasəti Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü və rəhbərliyi altında bu siyasət özünün mahiyyəti və məzmunu etibarilə elmi əsasda dərindən düşünülmüş konsepsiyaya söykənərək hazırlanmaqla bərabər, həm də səliqə-sahmanla, siyasi səriştə ilə ardıcıl olaraq həyata keçirilməyə başlandı. Əvvəllər məqsədi, məramı, başlanğıcı, sonu bəlli olmayan, səriştəsiz aparılan, konkret şəraiti, reallığı, qüvvələr nisbətini nəzərə almayan və xalqın, respublikanın milli mənafelərinə ziyan verərək nəticə etibarı ilə yenicə müstəqillik qazanan




və ağır müharibə şəraitində olan respublikanın beynəlxalq aləmdə təklənməsinə gətirib çıxaran kortəbii xarici siyasətdən qətiyyətlə imtina edildi.



Çox düzgün olaraq və həm də böyük uzaqgörənliklə həyata keçirilən bu yeni yanaşma xarici siyasətimizin sonrakı gedişləri üçün zəruri bir başlanğıc kimi müəyyən olundu. Lakin nə qədər yaxşı hazırlanmış bir konsepsiya olsa da, həyata keçirilməsinin dəqiq mexanizmi işlənilməzsə, onun həyata keçirilməsi üçün əlverişli lazımi şərait yaradılmazsa, həmin konsepsiya kağız üzərində qalar. Odur ki, hər şeydən əvvəl yeni xarici siyasət xətti üçün dinc şərait təmin edilməli idi. Bunun

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА



üçün müharibəni dayandırmaq və daxildə sabitlik yaratmaq lazım idi. Bu məqsədlə də 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Heydər Əliyev bütün amilləri nəzərə alaraq əqlin, zəkanın, zəngin təcrübənin gücünə arxalanaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyən etdi. Bu



yeniləşmiş xarici siyasət xətti ilk növbədə bir sıra ən mühüm və ən başlıca təxirəsalınmaz vəzifələri yerinə yetirməli idi.

Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, Azərbaycan əleyhinə yaradılmış fikir cəbhəsini darmadağın etmək, haqq işimizi dünya dövlətləri və dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi.





Digər vəzifələrdən biri də bəzi dövlətlərlə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan götürməkdən, xarici ölkələrlə münasibətdə tarazlaşdırılmış xarici siyasət xəttini təmin etməkdən, qonşu ölkələrlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı səmərəli əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaqdan ibarət idi.

Qarşıda duran mühüm vəzifələrdən biri də böyük dövlətlərlə əlaqələri beynəlxalq hüquq normalarına, beynəlxalq prinsiplərə tam uyğun tərzdə mehriban qonşuluq və qarşılıqlı faydalı



əməkdaşlıq əsasları üzərində qurmaqdan, dünyada mövcud olan müxtəlif beynəlxalq və regional təşkilatlara qoşulmaq və orada fəal iştirak etməkdən, beləliklə də müstəqil Azərbaycanın böyük dünya siyasətində lazımınca iştirakını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etməkdən ibarət idi.

Azərbaycanın indiki qarışıq, tələtümlü dünyada və eləcə də həddindən artıq mürəkkəb Qafqaz regionunda tutduğu yerinin, rolunun,





onun strateji əhəmiyyətinin düzgün müəyyən edilməsi də mühüm və vacib məsələlərdən idi.

Bütün bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün müasir dünyadakı hadisələrin siyasi gedişini dərindən bilmək və mövcud şəraiti düzgün qiymətləndirmək, dövlətlərarası münasibətlərdən, regiondakı konkret siyasi vəzifələrdən, onların iqtisadi əhəmiyyətindən və bunun dünya siyasətinə təsir dairəsindən, orada toqquşan maraqlardan düzgün nəticə çıxarmaq bacarığı tələb olunurdu. Odur ki, olduqca çevik, müxtəlif gedişli xarici siyasət yeridilməli idi.



Heydər Əliyev çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi.

Bu, Azərbaycana beynəlxalq aləmdə nüfuz və şöhrət qazandırdı, Heydər Əliyevin müəyyən



etdiyi yeni xarici siyasət xəttinə və mövqeyinə inam yaratdı. Bunun nəticəsi olaraq Azərbaycan dünyanın bütün aparıcı ölkələrinin maraq mərkəzinə çevrildi, beynəlxalq və regional əməkdaşlıq sahəsində mühüm rol oynamağa başladı, investisiyaların axışdığı ən cəlbedici ölkələrdən birinə çevirdi.

Heydər Əliyevin çoxtərəfli gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan Respublikası Avropa Şurasına



bərabərhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşdu və burada layiqli yerini tutdu. Heydər Əliyev nəinki Azərbaycan Respublikasının yeni siyasət xəttini müəyyən etdi, həmçinin bu siyasətin həyata keçirilməsinin yollarını, vasitələrini, üsul və metodlarını da dəqiq və böyük məharətlə düşünüb hazırladı.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN LAYİQLİ DAVAMÇISI AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV

**Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır... Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir... Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir... Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.**

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**





"Bu gün Azərbaycan regional çərçivələrdə çox önəmli rola malikdir. Getdikcə bu rol daha da böyüyəcəkdir. Biz artıq regional çərçivələrdən çıxıb daha böyük əməkdaşlıq məkanında öz rolumuzu gücləndiririk. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər, konkret layihələr, əməkdaşlığa yönəldilmiş enerji siyasətimiz əlbəttə ki, ölkəmizin imkanlarını gücləndirir" (Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev).

"Bildiyiniz kimi, bizim xarici siyasətimiz çox açıqdır, çevikdir. Bizim bəyanatlarımız və əməllərimiz arasında heç bir fərq yoxdur və auditoriyadan, yaxud da ki, səfər etdiyim ölkədən asılı olmayaraq bütün məsələlərlə






AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА





- istər daxili məsələ, istər xarici, istər münaqişələr, istər dünyada narahatlıq doğuran məsələlərlə bağlı Azərbaycanın mövqeyi birmənalıdır. Biz bütün ölkələrlə ikitərəfli formatda qarşılıqlı maraq, qarşılıqlı hörmət, bir-birimizin işinə qarışmamaq prinsiplərini üstün tuturuq" (Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev) .

"Mən bunu əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan qarşıdurma məkanına çevrilməyəcəkdir, rəqabət məkanına çevrilməyəcəkdir. Azərbaycan əməkdaşlıq üçün gözəl bir ölkədir. Azərbaycan dünyada əməkdaşlıq üçün, işbirliyi üçün, iqtisadi layihələr üçün, sosial məsələlərin həlli üçün və dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır" (Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev).

"Bizim siyasətimizdə konyunktura meyilli heç bir məqam yoxdur. Yaxud da ki, qeyri-səmimi, ləyaqətsiz addımlar yoxdur. Biz öz milli maraqlarımızı müdafiə edirik. Belə də olmalıdır və biz bütün ölkələrlə münasibətləri, qarşılıqlı hörmət əsasında qurmuşuq. Bu siyasət dünyada böyük rəğbətlə qarşılanır" (Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev).

"Biz müstəqillik arzusu ilə yaşamışdıq. Nəsillər müstəqillik arzusu ilə yaşamışdılar. Biz bu gün müstəqilik. Bu, bizim ən böyük sərvətimizdir. Müstəqil olmaq öz xalqının maraqlarına qulluq etməkdir, öz müstəqil siyasətini aparmaqdır. Biz bunu edirik və edəcəyik" (Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev).






AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

# ADDRESS BY THE DOYEN OF THE DIPLOMATIC CORPS IN BAKU, AMBASSADOR OF ROMANIA TO AZERBAIJAN H.E. MR. NICOLAE URECHE ON THE OCCASION OF THE 90th ANNIVERSARY OF AZERBAIJANI DIPLOMACY

I thank you very much for your proposal to share with the readers of the review World Diplomacy a few ideas and thoughts of mine about Azerbaijan and its Foreign Service. For me it is a very good opportunity to make public my comments of Azerbaijani Diplomatic Service and Azerbaijani diplomats. I think I am in an appropriate position to make such comments after a period of 5 years of activity in Azerbaijan. Today I am in the position of doyen of the Diplomatic Corps in Baku which gives me the pleasant opportunity to express the opinions of some other foreign Ambassadors also.

I came in Baku in March, 2004, that mean I have today more than 5 years of diplomatic activity in Azerbaijan. It is a long period which gave me the opportunity and all the time to have a good knowledge of the country and the people.

In the last five years I have noticed with pleasure the increasing of the numbers of the foreign missions in Baku. This is a direct result of the strengthening of the role of the republic of Azerbaijan on international arena. More and more countries reached the conclusion it is in their own interest to open embassies in Baku to promote bilateral relations in accordance with the mutual interests of the two sides. Right now more than 40 states of all continents have diplomatic missions in Baku, together with the representations of all important regional and international organizations. Not very big, but dynamic and very professional, the diplomatic community in Baku enjoys the friendship of Azerbaijani people. Mostly of the foreign diplomats who ended their mission in Baku sincerely regrets they have to leave this country.

It is my opinion that Baku it is a very good place for diplomatic activities, because of the general atmosphere, because of the intense political, social, economic and cultural activities. So, every foreign career diplomat has all opportunities to perform one of the most important parts of his job, to make report and evaluations. In the same time, the importance of the Republic of Azerbaijan, in terms of geo-strategic position and of energy security, stimulates very much our activity to develop bilateral ties. Also, Baku offers very good opportunities for observing the regional evolutions.

We, the foreign diplomats, cannot perform appropriate our duties without the help of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan, as of all the other official institutions in this country. Working on almost daily base with the Ministry of Foreign Affairs I had the opportunity to notice the high professionalism of the Azerbaijani diplomats, their skills and their ambitions to improve these skills. From this point of view of greatest importance is the permanent training of the diplomats, no matter of the age. A here comes, again, the importance of the professional training realized by the Diplomatic Academy. I had the opportunity to meet some students of the diplomatic academy in Baku and I was very much impressed by their level of knowledge and their determination to learn anything necessary to become good diplomats, devoted to their country and leaders. On the occasion of the recent meeting of H.E. Mr. Elmar Mammadyarov, the Minister of Foreign affairs with the Romanian State secretary for Strategic Affairs, Mr. Bogdan Aurescu, it was agreed to broaden the cooperation in the field of diplomatic training and to realize an exchange of young diplomats. I am sure the Diplomatic Academy of the republic of Azerbaijan, with the new facilities, will become a real regional center for diplomatic training.

Of course, in 5 years of activity in Azerbaijan, I had very good opportunities to learn a lot about the country and the people, about local conditions and traditions. The high level of the economic development of the country is really impressive. The changes are so big that I can say the Azerbaijan, and Baku especially, is very much different of that of 2004. But the people,

the wonderful Azerbaijani people, are the same as before, very warm, very hospitable, and very tolerant.

Such happy occasion as the 90th anniversary of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan ask for an appropriate message from hart, from one colleague to the other one. So, let me give to you a copy of the message of the Minister of Foreign Affairs of Romania, Mr. Cristian Diaconescu to the Minister of Foreign Affairs of the Republic of Azerbaijan, Mr. Elmar Mammadyarov. The message is the following:

**ROMANIA**
**MINISTRY OF FOREIGN AFFAIRS**

Bucharest, June 2009

Your Excellency,

It gives me great pleasure to extend lo you my sincere congratulations on the occasion of the anniversary, on 9 July 2009, of 90 years of activity of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan, together with my high appreciation for the professionalism demonstrated over the years by the diplomats of your country.

I express my confidence that the excellent collaboration between our ministries will contribute to the strengthening of the relations in all fields, thus fully motivating the promotion of the strategic partnership between our countries.

1 would like to use this opportunity to express my belief that the upcoming visit of President Ilham Aliyev to Bucharest in September this year, will contribute in a decisive matter to the strengthening of our political dialogue and the official launch of the strategic partnership, as an expression of the undeniable progress of the bilateral cooperation between Romania and the Republic of Azerbaijan

Please accept, Your Excellency, the assurances of my highest consideration

(signature)

Cristian Diaconescu

His Excellency
Mr. Elmar Mammadyarov
Minister of Foreign Affairs
Republic of Azerbaijan

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: TƏSİR EDƏN AMİLLƏR VƏ PRİORİTETLƏR

Elmar MƏMMƏDYAROV*

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etmək və Azərbaycanın dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Həmin vaxtlar çoxları qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxacağına və uğur qazanacağına inanmırdı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin prezident seçilməsindən sonra xalqın firavanlığı və ölkənin davamlı inkişafı üçün ilkin şərt olan Azərbaycanın müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi istiqamətində uğurlu strategiyanın həyata keçirilməsi başlanıldı. Müasir Azərbaycanın memarı olan ümummilli lider Heydər Əliyev dövlət institutlarını təkmilləşdirdi, çox ehtiyac duyulan xarici əlaqələrimizi genişləndirdi, hərtərəfli enerji strategiyasını reallaşdırdı və ölkənin uzunmüddətli inkişafının təməlini qoydu. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmiş strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev cənabları tərəfindən hal-hazırda uğurla davam etdirilir.

Bugünkü Azərbaycan dövlətçiliyinin kökləri müsəlman şərqində ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikası ilə bağlıdır. 23 aylıq ömür yaşamış Azərbaycan Demokratik Respublikası regionda geosiyasi vəziyyətin dəyişməsi ilə süqut etmişdir. Qısa müddət ərzində mövcud olmasına baxmayaraq, Xarici İşlər Nazirliyi də daxil olmaqla əsas dövlət institutları məhz həmin dövrdə yaradılmışdır. Biz bu il böyük fəxr hissi ilə Azərbaycanın diplomatik xidmətinin yaranmasının 90 illiyini qeyd edirik.

Azərbaycan iqtisadiyyatda yüksək artıma, habelə sabit siyasi sistemə malik, sürətlə inkişaf edən gənc demokratik ölkədir. Azərbaycan öz milli maraqlarının gerçəkləşdirilməsi, habelə regional və qlobal mövqelərinin möhkəmləndirilməsi üçün özünün iqtisadi və siyasi imkanlarından məharətlə istifadə edir. Azərbaycan regionda lider və beynəlxalq aləmdə etibarlı tərəfdaş ölkə kimi tanınmışdır. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Azərbaycanın xarici siyasət istiqamətləri və strateji seçimləri aşağıdakı təsiredici amillərlə müəyyənləşir:

Ermənistanın Azərbaycana qarşı təcavüzü – Hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkəmizin təhlükəsizlik mühitinin əsas təyinedici amili olaraq qalır və bu da öz növbəsində Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynayır.

Qlobal proseslər - Azərbaycan öz müstəqilliyini bərpa etməsi ilə eyni vaxtda beynəlxalq münasibətlər sistemi köklü surətdə dəyişməyə başlamışdır və son iyirmi il ərzində cərəyan edən hadisələr göstərir ki, sistem mahiyyətcə hələ də rəqabətlidir. Dövlətlər müxtəlif və bəzən də mübahisəli xarici siyasət məqsədləri güdürlər. "İkiqütblülük" və "çoxqütblülük" konsepsiyalarının toqquşmasında təzahür edən çağdaş dünya nizamına dair ziddiyyətli təsəvvürlər dünyanın müxtəlif yerlərində siyasi və iqtisadi nüfuz uğrunda rəqabəti canlandırmışdır. Davamlı olacağı təqdirdə bu rəqabət qlobal və regional təhlükəsizlik mühitinə mənfi təsir göstərəcəkdir.

Strateji coğrafi yerləşmə - Azərbaycanın coğrafi yerləşməsi bir çox mənada strateji əhəmiyyətə malikdir. Yaranmaqda olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji dəhlizi üzərində böyük ticarət yollarının kəsişməsində

*Azərbaycan Respublikasının Xarici İşlər Naziri

yerləşməsi ölkəyə enerji və infrastruktur mərkəzinə çevrilmək üçün əhəmiyyətli imkan verir. Ölkənin belə bir mərkəzə çevrilməsi üçün Azərbaycanın coğrafi yerləşməsi kimi üstünlükdən tam istifadə edilməsi vacib şərtdir.

Zəngin təbii ehtiyatlar – Azərbaycanın zəngin təbii sərvətlərə malik olması nəinki ölkənin çiçəklənməsinə və xalqın rifahına xidmət edir, eyni zamanda bu fakt ölkənin milli təhlükəsizliyinin, siyasi müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsində mühüm amildir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının işlədilməsi və dünya bazarlarına nəqli sonradan Azərbaycanın enerji strategiyası kimi adlandırılan siyasətin əsas elementinə çevrilmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilən bu strategiya Azərbaycanın xarici siyasətinin təməl daşıdır.

Müasir dövrdə təhlükəsizliyə təhdidlər və risklər – Beynəlxalq arenada qeyri-dövlət aktorları olan beynəlxalq terrorçu qruplaşmalar, hərbi separatçı hərəkatlar, etnik və dini ekstremizm, mütəşəkkil cinayətkarlıq şəbəkələri, habelə qeyri-qanuni miqrasiya, narkotik maddələr və insan alveri, kütləvi qırğın silahlarının yayılması, vacib enerji və nəqliyyat infrastrukturunda sabotaj riski və son illərin fenomeni olan kiber hücumlar qlobal və regional təhlükəsizlik mühitinə təsir göstərirlər.

Məsuliyyət və özünəməxsusluq – Azərbaycan tarixi əsas etibarilə müxtəlif regional güclər arasındakı müharibələr və real müstəqillik uğrunda gedən davamlı mübarizə tarixindən ibarətdir. Bu "irs" kiçik ölkələrin suverenliyi və hüquqlarını təmin edə biləcək beynəlxalq mexanizmlərin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycanın beynəlxalq birliyin fəal və məsuliyyətli üzvü olmasını tələb edir. Məsuliyyətin kökləri hər zaman müxtəlif dini etiqada, dünyagörüşünə, etnik qruplara aid insanların birgə yaşaması və tolerantlıq kimi Azərbaycanın səciyyəvi xüsusiyyətlərinə bağlıdır. Azərbaycan dərin tarixi köklərə malik, həqiqətən də etnik və dini dözümlülük baxımından unikal dünyəvi müsəlman dövlətidir. Azərbaycan 1918-ci ildə müsəlman şərqində ilk demokratik respublika elan edilmişdir. Əsrlər boyu burada müsəlman, xristian və yəhudilər biri-biri ilə dinc yanaşı yaşamışdır. Mədəniyyətlər arasında körpü rolunu oynayan Azərbaycan beynəlxalq birliyin mənafeyi naminə bu dəyərləri təşviq etmək məsuliyyətini hiss edir.

Azərbaycan beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazisinin böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət həyata keçirir. Şəffaflıq və öncədən müəyyənləşdirmə Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda sülh içində birgə yaşama və mehriban qonşuluğu təşviq etməkdə çox maraqlıdır.

Ölkəmiz mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirir. Bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq Azərbaycanın başqa ölkələrlə qarşılıqlı əlaqələrində əsas prinsiplərdir.

Ölkənin milli maraqlarının təmin olunmasına və onun qlobal və regional mövqeyinin möhkəmləndirilməsinə yönələn Azərbaycanın xarici siyasət prioritetləri aşağıdakılardır:

Azərbaycanın ərazi bütövlüyünün bərpası – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ölkəmizin təhlükəsizliyi ilə bağlı təxirəsalınmaz narahatçılıq doğuran məsələ və xarici siyasətimizin bir nömrəli prioriteti hesab olunur. Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi danışıqların ilk günlərindən dəyişməz olaraq qalır. Biz münaqişənin həlli üçün erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın pozulmuş suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, Azərbaycanın Dağlıq Qarabağ regionunda ölkənin hərtərəfli iqtisadi inkişafı çərçivəsində kommunikasiyaların bərpası və sosial-iqtisadi inkişaf üçün şərtlərin müəyyən olunması, qanuni və demokratik proses çərçivəsində Dağlıq Qarabağ regionunda Azərbaycan və erməni icmalarının dinc yanaşı yaşamasını və Azərbaycan Respublikasının tərkibində müxtariyyətini təmin edəcək statusun müəyyənləşdirilməsindən başqa bir yol görmürük. Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi yalnız etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz doğma yurdlarına qaytarılmasından sonra və yalnız Azərbaycanın

tərkibində mümkündür. Azərbaycan heç bir zaman öz ərazi bütövlüyünü müzakirə obyektinə çevirməyəcəkdir.

Münaqişənin həllinin hüquqi və siyasi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Assambleyasının 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir. Bundan əlavə, Strasburq/Kehl sammitində NATO Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmasına yönəlmiş səyləri bir daha dəstəkləmişdir.

Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına sadiqdir və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli və davamlı həllinin dəstəklənməsi üçün bütün səylərin səfərbər olunması məqsədi ilə öz tərəfdaşları, beynəlxalq və regional təşkilatlarla aparılan işi davam edəcəkdir. Buna baxmayaraq, sülh prosesinin uğurla nəticələnməsi Ermənistan tərəfinin eyni ilə bu prosesə sadiqliyindən və konstruktiv yanaşmasından, həmçinin beynəlxalq birliyin, ATƏT-in bütün üzv dövlətlərinin, xüsusən də Minsk Qrupunda təmsil olunan və həmsədrlik edən ölkələrin fəal töhfəsindən asılıdır.

Beynəlxalq sülh və sabitliyin təşviqi – İstər ənənəvi, istərsə də yeni təhlükə və problemlərin qarşısı fəal beynəlxalq səylər hesabına alına bilər və onların birtərəfli qaydada aradan qaldırılması mümkün deyil.

Azərbaycan beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdur. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan ölkə kimi Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir və müvafiq məruzələr hazırlayır. Bizim sülhməramlılar Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzvlərindən olan əsgərlərlə çiyin-çiyinə xidmət göstərmişlər. Azərbaycan hökuməti və şirkətlərinin Əfqanıstana yardımı və bu ölkənin bərpası ilə bağlı səyləri ehtiyac içində yaşayan əhali üçün də imkanlar yaradır.

Azərbaycan istər "Kütləvi Qırğın Silahlarının Yayılmaması haqqında Saziş", istərsə də digər ölkələrlə əməkdaşlıq çərçivəsində ixraca nəzarət və sərhəd təhlükəsizliyi tədbirləri vasitəsilə kütləvi qırğın silahlarının yayılmaması istiqamətində fəaliyyət göstərir. Azərbaycan kütləvi qırğın silahlarının yayılmaması ilə bağlı beynəlxalq rejimin gücləndirilməsinə tərəfdardır və müvafiq nəzarətin həyata keçirilməsi üçün dünya birliyi və aidiyyəti üzrə təşkilatlarla əməkdaşlığı davam etdirəcəkdir.

Transmilli cinayətkarlıq və insan alverinə qarşı mübarizə region ölkələri ilə, eləcə də BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın gündəliyində duran məsələdir.

Cənubi Qafqazdakı sabitliklə ümumilikdə qlobal təhlükəsizlik arasında əlaqənin mövcudluğu məlum məsələdir. Cənubi Qafqazdakı uzadılmış münaqişələr regiondakı təhlükəsizliyə və sabitliyə zərbə vurması, region ölkələrinin iqtisadi və siyasi inkişafına maneə yaratması və regiondakı real əməkdaşlığın qarşısını alması səbəbindən region ölkələri və geniş anlamda beynəlxalq birlik üçün xüsusi narahatlıq kəsb edir.

Səmərəli çoxtərəfli beynəlxalq münasibətlər sisteminin təşviqi – Beynəlxalq sülhün ən yaxşı halda səmərəli çoxtərəfli münasibətlər sistemi vasitəsilə əldə edilməsinə əmin olaraq, Azərbaycan bütün dünyada və regionumuzda beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində BMT-nin rolunun mühüm olduğunu qəbul edir. BMT-nin Nizamnaməsində öz əksini tapan beynəlxalq hüququn norma və prinsipləri mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşını təşkil edir. Azərbaycan XXI əsrin problemlərinə və təhdidlərinə daha səmərəli şəkildə cavab vermək üçün beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların həyata keçirilməsi də daxil olmaqla, BMT-nin operativ imkanlarının artırılmasına yönələn BMT çərçivəsində islahatları dəstəkləyir.

ATƏT ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədlər bu təşkilata üzv olan ölkələr arasında münasibətləri tənzimləyən norma və prinsipləri müəyyən edir və kollektiv təhlükəsizliyin saxlanılması üçün əsas yaradır. BMT kimi ATƏT-in də fəaliyyətinin onun bütün sənədlərinə və mexanizmlərinə əsaslanmış əməli nəticələr vasitəsilə səmərəliliyinin artırılmasına ehtiyac var.

Eyni zamanda, milli maraqlarımızın təmin olunması, daxili siyasi və institusional islahatların səmərəli şəkildə həyata keçirilməsi,

həmçinin Azərbaycan qanunvericiliyinin Avropanın norma və standartlarına uyğunlaşdırması nöqteyi-nəzərdən Avropa Şurası ilə əməkdaşlıq vacibdir.

Azərbaycan regional çoxtərəfli əməkdaşlığı çox vacib hesab edir və GUAM-ın əsas yaradıcısı kimi biz regionda daha mehriban və daha sabit münasibətlərə nail olunmasına öz töhfəmizi veririk.

Azərbaycanın həm Qərb, həm də Şərq mədəniyyətinə məxsus olması ilə bağlı unikal xüsusiyyəti dini məlumatsızlığın və dözümsüzlüyün aradan qaldırılması üçün dinlərarası dialoqda mühüm rol oynamaq üçün imkanlar yaradır. 2007-ci ildə İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurasının sədri kimi Azərbaycan İslam Konfransı Təşkilatının strukturlarının və funksiyalarının daha da gücləndirilməsi və Avropa təşkilatları ilə əməkdaşlıq mexanizmlərinin yaradılması istiqamətində səylər göstərmişdir. Azərbaycan sivilizasiyalar arasındakı dialoqda fəal iştirak edir və bu məsələyə töhfə verən ilk ölkələr sırasında olmuşdur. Təqdirəlayiq hal kimi qeyd etmək lazımdır ki, bu istiqamətdə Azərbaycanın fəaliyyəti Birinci Xanım Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilir. Habelə, beynəlxalq səviyyədə tanınmış elmi-tədqiqatçıların və mütəxəssislərin iştirakı ilə Bakıda mədəniyyətlərarası dialoqa dair üç möhtəşəm beynəlxalq tədbir təşkil olunmuşdur.

Qarşılıqlı faydalı ikitərəfli əlaqələrin inkişafı – Azərbaycan regional əməkdaşlığı regionda sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edir və yuxarıda qeyd olunmuş səbəblərə görə Ermənistan istisna olmaqla bütün yaxın qonşuları ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurmuşdur. Qonşu dövlətlərlə əlaqələrin daha da inkişafı həllini gözləyən regional problemlərin qarşılıqlı olaraq qəbul olunan şəkildə nizamlanmasının tapılmasına imkan yaradacaqdır.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Rusiya ilə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir və bu əməkdaşlığın genişlənməsi davam edir. Azərbaycan İranla proqressiv və gələcəyə istiqamətlənmiş dialoq aparır, habelə Xəzər dənizi ilə Avropa regionu arasında körpü yaratmaq məqsədilə Orta Asiya dövlətləri ilə münasibətlərini inkişaf etdirir.

Azərbaycan strateji tərəfdaşı olan ABŞ ilə qlobal problemlər və təhlükələrə qarşı mübarizə aparmaq məqsədilə ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlıq edir. Azərbaycan ABŞ-ın rəhbərlik etdiyi antiterror koalisiyasının üzvüdür, beynəlxalq birliyin terrorizmə qarşı mübarizəsini hərtərəfli şəkildə dəstəkləyir və bu istiqamətdə bir sıra əhəmiyyətli addımlar atır. Biz ABŞ-la, habelə iqtisadi, enerji təhlükəsizliyi və demokratik inkişafın təşviqi sahələrində də əməkdaşlığımızın genişləndirilməsi istiqamətində iş aparırıq.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində yerləşən Azərbaycan Avropa ölkələrindən mal və xidmətlərin böyüyən Asiya bazarlarına və əksinə daşınması üçün təbii keçid imkanını təmin edir. Bu mənada Orta Şərq və Asiya ölkələri ilə əlaqələr Azərbaycanın xarici siyasətində vacib yer tutur. Yaranmaqda olan siyasi güc mərkəzləri və sürətlə artan iqtisadiyyatlara malik bu regionlar iqtisadi, telekommunikasiya və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün perspektivlər açır.

Avropa və Avro-Atlantik strukturlara inteqrasiya – Azərbaycan Avropa və Avro-Atlantik birliyin dəyərləri ilə bölüşür, çoxtərəfli Trans-Atlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Azərbaycan 1994-cü ildə NATO-nun "Sülh naminə Tərəfdaşlıq" proqramına qoşulan ilk ölkələrdən biri olmuşdur və Avro-Atlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. Azərbaycan Fərdi Tərəfdaşlıq Fəaliyyəti Planının (FTFP) birinci mərhələsini uğurla başa vurmuşdur və FTFP-nın ikinci mərhələsinin icrasına başlamışdır ki, bu da növbəti illərdə NATO-Azərbaycan münasibətlərini istiqamətləndirəcəkdir.

Azərbaycanın Aİ ilə əməkdaşlığı ölkənin təhlükəsizlik ehtiyacları çərçivəsindən kənara çıxaraq iqtisadi, siyasi və sosial sahələrdə də genişlənir. "Avropa Qonşuluq Siyasəti" çərçivəsində 2006-cı ildə qəbul olunmuş Aİ-Azərbaycan Fəaliyyət Planı Azərbaycan və Aİ arasında siyasi dialoqu gücləndirir, siyasi, iqtisadi və institusional islahatlar sahələrində əməkdaşlığı inkişaf etdirir və əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün əsaslar yaradır. Aİ-Azərbaycan Fəaliyyət Planının yerinə yetirilməsi Aİ ilə Azərbaycan arasında qarşılıqlı siyasi və iqtisadi asılılığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Biz Aİ-nin Şərq Tərəfdaşlığı Təşəbbüsünü alqışlayır və bunun bizim Aİ ilə əməkdaşlığımızı sürətləndiricəyinə ümid edirik.

Davamlı inkişaf və Avropanın enerji və nəqliyyat dəhlizinin genişləndirilməsi - Neft və qaz kəmərlərinin, digər müvafiq infrastrukturun tikintisi də daxil olmaqla, Azərbaycanın neft sektorunun inkişafı artıq Azərbaycanın iqtisadi yüksəlişinə töhfə vermiş, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaratmışdır. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri və Cənubi Qafqaz qaz kəməri kimi regional infrastruktur layihələrinin uğurla həyata keçirilməsi ilə nəticələnən bu əməkdaşlıq Cənubi Qafqaz regionunun əhəmiyyətini artırmış, Avropa və qlobal enerji təhlükəsizliyinə töhfə vermiş və Avropa üçün yeni, həyati əhəmiyyətli enerji mənbələrinin əsasını qoymuşdur. Azərbaycanın karbohidrogen ehtiyatları strateji coğrafi yerləşmə ilə birlikdə ölkəni əhəmiyyətli enerji mənbəyinə və beynəlxalq enerji təchizatı sisteminin vacib tərkib hissəsinə çevirir. Yalnız enerji istehsalçısı və ixracatçısı kimi deyil, eyni zamanda vacib tranzit ölkəsi kimi Azərbaycanın regionun mərkəzi oyunçusu və beynəlxalq arenada əhəmiyyətli aktor olaraq imkanları getdikcə artır.

Azərbaycanın coğrafi yerləşməsi ölkənin dünya bazarlarına çıxışını şaxələndirmək imkanı verir. Cənubi Qafqaz regionu üzərindən beynəlxaql nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının vacib elementdir. Bu mənada, Azərbaycan "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Habelə, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin qurulması istiqamətində əməkdaşlıq edir. Bu xəttin həyata keçirilməsi regional əməkdaşlığın sürətləndirilməsi və gücləndirilməsi üçün vacib addım olacaq, eyni zamanda qlobal təsirlərə malik yeni regional imkanlar yaradacaqdır.

Bazarlar və xarici sərmayələrin rəqabəti, fiskal və monetar siyasətlərin əlaqələndirilməsi məqsədilə mövcud beynəlxalq kommersiya şəbəkələrini cəlb etmək zərurəti ilə səciyyələnən beynəlxalq mühit fəal xarici iqtisadi siyasətin həyata keçirilməsini tələb edir. Biz Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorlarına xarici sərmayələrin cəlb edilməsi, ölkədə istehsal olunan malların beynəlxalq bazarlara maneəsiz keçidinin təmin olunması, ticarət, sərmayə qoyuluşu və iqtisadi yüksəlişin gücləndirilməsi vasitəsilə davamlı iqtisadi inkişafa töhfə vermək üçün regiondakı və ondan kənarda yerləşən ölkələrlə əməkdaşlıqda maraqlıyıq. Azərbaycanın iqtisadi inkişaf fəlsəfəsi çox sadədir – qonşu ölkələrin çiçəklənməsi qarşılıqlı fayda gətirir.

Azərbaycan xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərə çarpan və hörmət edilən ölkəyə çevirilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Avstraliya istisna olmaqla, bizim bu gün dünyanın bütün qitələrində diplomatik nümayəndəliklərimiz mövcuddur. İkitərəfli sənədlərin imzalanması, qarşılıqlı yüksək səviyyəli səfərlər, beynəlxalq konfrans və dünya forumlarında iştirak bizim gündəlik diplomatik həyatımızın ayrılmaz hissəsinə çevrilib.

Diplomatik xidmət orqanlarımızın rəhbərlərinin son müşavirəsində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının qeyd etdiyi kimi xarici siyasətimiz bütün istiqamətlərdə uğurludur, biz işimizi məhz bu istiqamətdə davam etdirəcəyik və xarici siyasət fəaliyyətimizdə fəal olmalıyıq.

Müstəqilliyimizin bərpa olunmasından sonra keçən on səkkiz ili ərzində Azərbaycanın xarici siyasət strategiyasının uğurlu olmasının sübutu ondan ibarətdir ki, bu dövr ərzində ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda regional liderə çevrilməyə nail olub. Milli maraqların həyata keçirilməsi, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət strategiyası, habelə özünəməxsus və bəzən ziddiyyətli siyasət yürüdən regional və regiondan kənarda olan aktorlarla modus vivendi-nin tapılmasına imkan yaradan elastiklik arasında mürəkkəb balans Azərbaycanın xarici siyasətinin səciyyəvi xüsusiyyətidir.

Diplomatik xidmətimizin 90 illik yubileyi ilə eyni vaxtda xarici siyasətimizin keçdiyi yolu nəzərdən keçirərək qeyd etməliyik ki, çoxsaylı uğur və nailiyyətlərimizin olması ilə yanaşı, hələ də bir sıra məsələlərin həlli, ən əsası isə ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində işlərin daha da gücləndirilməsi Xarici İşlər Nazirliyinin başlıca vəzifəsi olaraq qalır və əminəm ki, Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında biz tezliklə bütün bu uğurlara nail olacağıq.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARİS SÜLH KONFRANSI TƏRƏFİNDƏN TANINMASI

Cəmil HƏSƏNLİ*

Azərbaycan Xalq Cümhuriyyəti dünya müharibəsinin başa çatması ilə müşayiət edilən gərgin diplomatik mübarizə şəraitində yarandı və fəaliyyət göstərdi. İnqilabın dağıtdığı Rusiya imperiyasının 1914-cü il hüdudlarında bərpa edilməsinə göstərilən cəhdlər 1918-1920-ci illərdə gənc Azərbaycan Respublikasından böyük diplomatik bacarıq, dünya siyasətinin dönüş məqamlarından baş çıxarmaq qabiliyyəti tələb edirdi. İki ilin hürriyyət sevdası ilə istiqlal davasının kəsişməsində Azərbaycan diplomatiyası bu mühüm vəzifənin öhdəsindən uğurla gəldi. 1918-ci ilin may ayının 28-də elan edilən İstiqlal Bəyannaməsi ilə Azərbaycan ideyasına siyasi məzmun verənlər 1920-ci ilin yanvarında diplomatik baxımdan bu ideyanın Versal Ali Şurası tərəfindən tanınmasına nail oldular. Bu tarixi hadisə ilk addımlarını atan Azərbaycan diplomatiyasının böyük uğuru idi.

Keçmiş Rusiya imperiyasının dağılması nəticəsində 1918-ci ildə yeni yaranmış respublikaların taleyində hiss ediləcək dönüş Böyük Britaniyanın Baş naziri Lloyd Corcun 1919-cu ilin noyabr ayının 17-də İngiltərə Parlamentinin İcma palatasındakı çıxışı ilə başlandı. Bu çıxış Rusiyada baş ve-rən hadisələrin, ilk növbədə, Kolçakın məğlub olması, Denikinin isə 1919-cu ilin oktyabr ayından başlayaraq, öz mövqelərini tərk etməsinin aydın təzahürü idi. 1919-cu ilin axırlarında məlum oldu ki, "ağların" silahlı qüvvəsi ilə Rusiyanı kommunistlərin əsarətindən qurtarmaq işi demək olar ki, uduzulmuşdur. Yudeniçin Petroqradı almaq cəhdi baş tutmamış, Kolçak Sibirin dərinliklərinə qədər geri oturdulmuş, Denikin isə bir-birinin ardınca şəhərləri təslim edərək, Cənuba doğru geri çəkilmişdi. Lakin uzun müddət Denikin təhlükəsi altında olan Azərbaycan və Gürcüstan üçün indi Denikin ordusunun məğlubiyyəti yeni daha qorxulu bir vəziyyət yaradırdı. T.Svyatoçevski haqlı olaraq yazır: "Denikinin məğlubiyyəti Cənubi Qafqaz respublikalarında sevinc doğurmadı, çünki onlar qələbədən ruhlanmış bolşeviklərin simasında daha güclü düşmən qazandılar."[1]

Denikinin məğlubiyyətindən Qərb ölkələrinin, ilk növbədə, Böyük Britaniyanın narahatçılığı, 1919-cu ilin sonlarında ingilislərin Cənubi Qafqaza marağının artması qorxulu bolşevizm xəstəliyi-nin Yaxın və Orta Şərqə yayıla biləcəyi ehtimalından irəli gəlirdi. Baş Nazir Lloyd Corcun İcma palatasındakı 17 noyabr tarixli çıxışında iki dəfə Azərbaycan və Gürcüstanın adlarını çəkməsi xeyli dərəcədə bu amillərlə bağlı idi. Lloyd Corc öz çıxışında Rusiyadakı vəziyyəti təhlil edərək göstərirdi ki, Rusiyanın müxtəlif xalqlarının hərəkətləri o qədər də aydın deyildir, ruslar özləri isə o qədər mürəkkəb xalqdır ki, hələ, nə vaxtsa, kənardan kiminsə onların başına ağıl qoymaq cəhdi heç vaxt uğurlu nəticə verməyib. Ona görə də indi Rusiyada "bolşevizm arabasını terror və soyğunçuluq sürükləyir."[2] Lloyd Corc bolşevik siyasətinin gücünü kəndlilərdə görürdü. O, XVIII əsr Fransa inqilabına müraciət edərək göstərirdi ki, "yakobinçilər həmişə xalqı "İnqilab təhlükədədir" şüarı ilə birləşdiriblər. Bu, o demək idi ki, inqilabın kəndlilərə verdiyi torpaq təhlükədədir. Heç şübhə yoxdur ki, bolşeviklərin əsas müdafiəçisi olan rus kəndlisinin təfəkküründə də inqilaba münasibət belədir."

Lloyd Corcun fikrincə, Rusiyada bolşevizm əleyhinə olan qüvvələr heç də az deyildilər. Bu qüv-vələr sırasına o, Baltik ölkələrini, Finlandiya və Polşanı, Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistanı, Rusiyada Kolçak, Petlyura və Denikini daxil edirdi. Eyni zamanda

---

* Tarix elmləri doktoru, professor

[1] T.Swietochowski. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge, 1985, p.159

[2] D.Lloyd Corcun İcma palatasında nitqi. Fransız dilindən tərcümə. 17.11.1919. //Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.970, s.1, i.145, v.29

İngiltərənin Baş naziri belə bir maraqlı sual irəli sürürdü: niyə onlar birləşə bilmirlər? Bu sualın cavabında təcrübəli siyasətçi düzgün olaraq bildirirdi: "Ona görə ki, onların mənafeyi əsas məsələdə bir-birinə uyğun deyildir."[1] Onun fikrincə, Kolçak və Denikin iki əsas məqsəd uğrunda mübarizə aparırdı: birincisi, bolşevikləri devirmək və Rusiyada köhnə rejimi bərpa etmək; ikincisi isə, vahid və bölünməz Rusiya uğrunda mübarizə idi. Əgər birinci məsələdə antibolşevik qüvvələr bir-birilə həmrəydilərsə, ikinci məsələdə bir-birinə münasibətdə düşmən mövqelərində dayanırdılar. O deyirdi: "Estonlar vahid Rusiyanı istəmir, litvalılar üçün bu zəhərdir, ukraynalıları dəqiq deyə bilmərəm... Digər ölkələri götürək, Denikin deyir ki, Gürcüstan, Azərbaycan, Rus Ermənistanı Rusiyanın bir hissəsidir. Onları Rusiyaya birləşdirmək onun siyasətinin başlıca məqsədidir, lakin yeni respublikalar bu haqda eşitmək belə istəmirlər. Onlar müstəqillik uğrunda mübarizə aparırlar... Onlar bolşevizm hücumuna qarşı birləşmək üçün belə bir şərt qoyurlar, biz onların müstəqilliyinə təminat verək və eyni zamanda biz onların ordusunu pulla və sursatla təchiz edək."[2] Lloyd Corc İngiltərə İcma Palatasının üzvlərinə bildirirdi ki, işin çətinliyi Rusiyada antibolşevik qüvvələrin mənafelərinin bir-biri-nə uyğun gəlməməsindədir, bir tərəfdən Rus ağqvardiyaçı generalları köhnə, qüdrətli, vahid və bölünməz Rusiya uğrunda mübarizə aparır, digər antibolşevik qüvvələr isə öz milli müstəqilliklərini qoruyurlar. Lloyd Corcun çıxışında açıq deyilməsə də, onun məzmunundan aydın olurdu ki, o, öz müstəqilliyi uğrunda mübarizə aparan milli respublikalara və bu respublikalar içərisindən də, xüsusilə, Azərbaycan və Gürcüstana yardım göstərilməsinə tərəfdar idi.

Böyük Britaniya siyasi dairələrinin, ilk növbədə isə Lloyd Corcun Azərbaycan haqqında fikrinin yaxşılığa doğru dəyişməsində ingilis jurnalisti Skotland Liddelin 1919-cu ilin sentyabr ayında "Morninq Post" və noyabr ayının 11-də "Tariq" qəzetlərində Azərbaycan haqqında çap edilmiş məqalələri də az rol oynamamışdı.[3] S.Liddel birinci məqaləsində İngilis ictimaiyyətinə bildirirdi ki, Azərbaycan haqqında onlarda formalaşdırılan təsəvvürlər heç də düzgün deyildir. O, Azərbaycanı Cənubi Qafqazda müstəqil yaşamağa qadir olan birinci respublika hesab edirdi.[4] Ermənilərin Böyük Britaniya və digər ölkələrdə yaydığı Qarabağ hay-küyü ilə bağlı S.Liddel yazırdı: "Öz coğrafi vəziyyətinə görə Qarabağ həqiqətən Azərbaycana məxsus olmalıdır."[5] Cənubi Qafqazdakı erməni-azərbaycanlı münaqişəsi ilə bağlı ingilis jurnalisti bildirirdi: "Nə Rusiyada, nə Qafqazda elə bir adam tapa bilməzsən ki, ermənilər haqqında hansısa bir yaxşı söz desin. Rusların, tatarların /azərbaycanlıların – C.H./ və gürcülərin onlardan zəhləsi gedir, onları görməyə gözləri yoxdur. Doğrudur, ya yox, bunu mən demirəm, lakin fakt göz qabağındadır ki, ermənilər qonşularında özlərinə qarşı nifrət yaradıblar. Bununla belə, onların xaricdə təbliğatı elədir ki, Avropa, eləcə də, bütün dünya onların tərəfindədir." Azərbaycanlılara gəldikdə S.Liddel yazırdı ki, bir sıra keyfiyyətlərinə görə "tatarlar / azərbaycanlılar – C.H./ ermənilərdən çox üstündür." Onun fikrincə, əgər erməni təbliğatçılarının təxribatı olmasa idi, bu iki xalq bir-biri ilə dinc şəraitdə yaşaya bilərdi. Hətta o, yazırdı ki, Qarabağda Azərbaycanın suverenliyi bərpa olunduqdan sonra ermənilər özləri etiraf edirlər ki, heç vaxt burada belə dinclik olmayıb.[6]

Böyük Britaniyanın Baş naziri Lloyd Corcun noyabr anının 17-də İngilis Parlamentindəki çıxışı və noyabrın axırına qədər yenidən "Rus məsələsinə" iki dəfə toxunması, Fransa Millətlər liqası müstəmləkə və xarici siyasət bölməsinin sədri Pol Burdarinin Ə.M.Topçubaşovun adına göndərdiyi məktubun noyabr ayının ortalarında elan olunması bütün Avropa mətbuatında sensasiyaya səbəb oldu.[7] Xüsusilə, Parisdə toplanmış ağ rus mühacirlərin mətbuatı daha bərk hay-küy qaldırdı və bu hadisəni böyük əsəbiliklə qarşıladılar. Ə.M.Topçubaşov Bakıya - Azərbaycan Nazirlər Şurasının sədrinin adına göndərdiyi məlumatda yazırdı: "Noyabrın 17-də Nümayəndələr Palatasında İngilis baş naziri Lloyd Corcun çıxışını fakt hesab etmək lazımdır. Britaniya hökumətinin başçısı yenidən

[1] Yenə orada, v.30-31
[2] Yenə orada, v.31
[3] Азербайджан, 1919, 14 декабря.
[4] Bax: Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.1-2
[5] Skodland-Liddel. Erməni-tatar (azərbaycanlı-C.H.) sazişi. Qarabağa sülhün gəlişi. 1919. // ARDA, f.894, s.1, i.103, v.10
[6] Yenə orada, v.11-13
[7] Uni letter de Bourdarie // Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 15 Decembre, №5, p.3

Rusiyanın tərkibinə daxil olmaq istəməyən Azərbaycan, Gürcüstan və rus Ermənistanının iki dəfə adlarını çəkmişdir. Bu çıxış böyük hay-küy doğurmuşdur və hərtərəfli şərh olunur. Əgər noyabrın 17-də nəşriyyat fəhlələrinin tətili olmasaydı /elə ona görə də qəzetlər çıxmır/, artıq bu çıxışa həsr olunmuş tam bir ədəbiyyat tərtib olunardı... Rus elementləri, xüsusilə, onların sol cinahı narazıdır." [1]

1919-cu ilin axırlarında mətbuatda və siyasi dairələrin çıxışlarında Azərbaycana və Gürcüstana münasibətdə yaxşılığa doğru dönüşün yaranmasını Ə.M.Topçubaşov aşağıdakı amillərlə şərtləndirirdi: "Yudeniç və Kolçakın məğlubiyyəti, Denikinin ümidsiz vəziyyəti, müttəfiqlərin bundan sonra onlara pulla, azuqə və sursatla köməkdən imtina etmələri, Almaniyanın Rusiya ilə yaxınlaşmaq planları, Baltik dövlətlərinin bolşeviklərlə sülh bağlamaq cəhdləri, Amerika Senatında əksə-riyyətin Sülh konfransına, xüsusilə də, Versal sülhünə olan mənfi münasibəti - ümumiyyətlə, bü-tün bunlar kiçik xalqlar üçün ruhlandırıcı və ümidverici müsbət cəhətlərdir. Belə şəraitdə Lloyd Corc əbəs yerə çıxış etmədi. Heç şübhəsiz ki, mətbuatda və ictimai rəydə yaxşı mənada dönüş yuxarıda dediyim hadisələrlə bağlıdır."[2]

Noyabr ayının axırlarında Parisdə olan ABŞ dövlət katibinin müavini F.Polkla söhbətində Lloyd Corcun keçmiş Rusiya ərazisində yeni dövlətlərə münasibəti daha da aydınlaşdı. Lloyd Corc danışıqlar zamanı Amerika tərəfinə açıq şəkildə bildirdi ki, Kolçak və Denikinə kömək etməyin heç bir əhəmiyyəti yoxdur, onların məğlubiyyəti göz qabağındadır və onlara göndərilən bütün silah və hərbi sursat isə Qırmızı Ordu tərəfindən ələ keçirilir. Danışıqlar zamanı Lloyd Corc Polka bildirdi ki, vahid bolşevik Rusiyası Avropa üçün böyük təhlükəyə çevriləcəkdir. Ona görə də o, bu fikirdədir ki, "Gürcüstan, Azərbaycan, Ukrayna, Bessarabiya, Baltik əyalətləri və Finlandiya, ola bilsin ki, Sibirin müstəqilliyi tanınmalıdır."[3] Noyabr ayının 29-da F.Polk Lloyd Corcla olan bu söhbəti barədə ABŞ-ın dövlət katibi Rabert Lansinqə məlumat verdi.

Böyük Britaniyanın Azərbaycana və Gürcüstana münasibəti aydınlaşdığı üçün, dekabr ayının ilk günlərində İngiltərə Xarici İşlər Nazirliyi özünün Cənubi Qafqazda olan ali komissarı Oliver Uordrop vasitəsi ilə respublika Nazirlər Şurasının sədri N.Usubbəyova bildirmişdi ki, "İngiltərə hökuməti Azərbaycanın müstəqilliyini müdafiə edir və Azərbaycana çox böyük rəğbətlə yanaşır."[4] 1920-ci ildə yanvar ayının ilk günlərində O. Uordrop demək olar ki, hər gün müttəfiqlərə və İngiltərə hökumətinə teleqram göndərib məlumat verirdi ki, Denikin ordusu cənuba doğru geri çəkilir, bolşevik qüvvələri onu təqib edir. Uordrop təklif edirdi ki, təcili şəkildə Cənubi Qafqaz respublikalarını, eyni zamanda Dağıstan Respublikasını onların mövqelərini möhkəmləndirmək üçün tanımaq lazımdır. O yazırdı: "Əgər İngiltərə fəal hərəkət etməsə, Qafqaz respublikaları məcburdurlar ki, bolşeviklərlə sazişə girsinlər".[5]

Yanvar ayının 2-də RSFSR xarici işlər naziri G.Çiçerin Azərbaycan və Gürcüstan hökumətlərinə nota ilə müraciət edərək, Könüllü orduya qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş bağlamağı təklif etdi. Lakin bu təklif səmimi niyyətlərdən irəli gəlməyib, Azərbaycan və Gürcüstan hökumətlərini zəiflətmək üçün təbliğati xarakterə malik idi. Könüllülər ordusu üzərində və ümumilikdə vətəndaş müharibəsinin gedişində Sovet ordusunun qazandığı qələbələr onun mövqeyini getdikcə möhkəmləndirirdi. Hərbi qələbələr öz növbəsində qonşu dövlətlərə diplomatik təzyiqləri gücləndirir və bolşevik təbliğatı üçün əlverişli şəraiti təmin edirdi. Azərbaycanın timsalında bu təzyiqlər 1920-ci ilin yanvarından aprelinədək diplomatik qarşıdurma səviyyəsinə qədər yüksəlmiş notalar mübadiləsində öz əksini tapmışdı. Ermənistan Respublikasının Azərbaycan ərazilərinə qarşı qəsbkarlıq planlarını həyata keçirdiyi bir vaxtda Sovet Rusiyasının çağırışı üzrə Azərbaycanın denikinçilərə qarşı müharibəyə daxil olub iki cəbhədə vuruşması onun üçün ağır nəticələr verə bilərdi. RSFSR

[1] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Top¬çu¬başovun Nazirlər Şurasının sədrinə məktubu. 29.11.-02.12.1919.//ARDA, f.970, s.1, i.145, v.8-9

[2] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 29.11.-02.12.1919.//ARDA, f.970, s.1, i.145, v.16-17

[3] Papers Relating to the Foreign Relations of the USA, Russia, 1919, US Government Printing Office, Washington, 1937, p.126

[4] Zəngəzur hadisələri zamanı xarici dövlətlərin nümayəndələri ilə görüşlər. 1919.// Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARPİİ SPİHDA), f.276, s.9, i.12, v.47

[5] R.Ullman. Anglo-Soviet Relations 1917-1921. London, 1968, p.322

xalq xarici işlər komissarı Q.V.Çiçerin isə 1920-ci il 2 yanvar tarixli notasında əslində Azərbaycan hökumətindən Denikinə qarşı tələsik müharibəyə girməyi tələb edirdi.[1]

G.Çiçerinin notası alınandan sonra, yanvar ayının 6-da N.Usubbəyovun sədrliyi ilə Azərbaycan Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi. İclasda 1919-cu ilin dekabrında N.Usubbəyovun təşkil etdiyi ikinci hökumət kabinəsində xarici işlər naziri vəzifəsini tutan Xan Xoyski Sovet Rusiyasının Azərbaycanla və Gürcüstanla hərbi saziş bağlamaq təklifi barədə məruzə etdi. Məruzəni dinləyərək, iclas iki bənddən ibarət qərar qəbul etdi: 1. Xarici işlər nazirinə tapşırılsın: Sovet Rusiyasının təklifi barədə Gürcüstanla məsləhətləşdikdən sonra, Sovet Rusiyasına cavab versin ki, Azərbaycan Respublikası azad və müstəqil dövlət kimi Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara girməyə hazırdır. 2. Antanta ölkələri ilə münasibətlərlə bağlı Böyük Britaniyanın son günlərin siyasi şəraitinə münasibətini aydınlaşdırmalı və İngiltərənin nüfuzundan respublikanın mənafeyinə uyğun istifadə edilməli.[2]

Yanvarın 6-da Xan Xoyski G.Çiçerinin notasını və Azərbaycan Xarici İşlər Nazirliyinin Sovet Rusiyasına cavabını Bakıda olan ingilis nümayəndəsi polkovnik Stoksla ətraflı müzakirə etdi. Həmin axşam Stoks Britaniya Ali komissarlığının yerləşdiyi Tiflisə yola düşdü. Yanvar ayının 7-də Azərbaycan xarici işlər naziri Tiflisdə olan diplomatik nümayəndə Faris bəy Vəkilova göndərdiyi teleqramda Gürcüstan Respublikasının və İngiltərə Ali komissarlığının Sovet Rusiyasının notasına münasibətlərini öyrənməyi xahiş edirdi. Teleqramda deyilirdi ki, dünən mən Sovet Rusiyasından Denikinə qarşı mübarizə aparmaq üçün hərbi saziş bağlamaq haqqında danışıqlara başlamaq təklifi barədə teleqram almışam. Eyni ilə belə bir teleqramı Gürcüstan hökuməti də almışdır. Xahiş edirəm təcili surətdə Geqeçkori ilə görüşün və Gürcüstan hökumətinin bu məsələ ilə bağlı fikrini və hansı tədbirlər görmək istədiyini aydınlaşdırın. Bizim hökumətimizin fikri belədir ki, bu məsələ ilə bağlı Azərbaycan və Gürcüstan hökumətlərinin sıx surətdə vahid fəaliyyət göstərməsi zəruridir. Hələlik biz belə fikirləşirik ki, suveren dövlətlər olan Azərbaycan və Gürcüstanla Sovet Rusiyası arasında qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara başlamağa razılıq vermək olar. Təcili şəkildə Uordropla görüşün və İngiltərənin nöqteyi-nəzərini aydınlaşdırın, dəqiqləşdirin ki, İngiltərə ən yaxın vaxtlarda bizə hansı yollarla və necə yardım göstərə bilər.[3]

Tiflisdəki Azərbaycan diplomatik nümayəndəsinin Gürcüstan xarici işlər naziri ilə görüşü zamanı Xan Xoyskinin teleqramında göstərilən təkliflər bəyənildi və qərara alındı ki, qarşılıqlı münasibətləri qaydaya salmaq üçün Sovet Rusiyası ilə danışıqlar aparmaq olar, lakin Denikinlə mübarizəyə gəldikdə isə Rusiyanın daxilində gedən vətəndaş müharibəsinə Azərbaycan və Gürcüstanın müdaxilə etməsinin yolverilməz olduğu göstərildi. Oliver Uordropla görüş zamanı Britaniya Ali komissarı tezliklə Azərbaycan və Gürcüstanın müstəqilliyinin Antanta tərəfindən tanınacağını, bu respublikalara müdafiə olunmaq üçün yardım göstəriləcəyini bildirdi. Eyni zamanda Uordrop Sovet Rusiyasının notası ilə bağlı Qafqazda yaranmış vəziyyət barədə İngiltərə Xarici İşlər Nazirliyinə geniş məlumat göndərdi. Yanvar ayının 12-də Gürcüstan Xarici İşlər Nazirliyi Sovet Rusiyasına bildirdi ki, gürcü hökuməti mehriban qonşuluq münasibətləri yaratmaq üçün danışıqlara başlamağa hazırdır, lakin Rusiyanın daxili işi olan vətəndaş müharibəsinə qarışmaq fikrində deyildir.[4] İki gün sonra Azərbaycan xarici işlər naziri Xan Xoyski də G.V.Çiçerinə cavab notasında Denikinin uzun müddət Azərbaycan üçün təhlükə təşkil etməsinə və ona qarşı Azərbaycan-Gürcüstan müdafiə paktı olmasına baxmayaraq, bu məsələnin Rusiyanın daxili işi olduğunu qeyd edərək, Azərbaycan Respublikasının Sovet Rusiyası ilə mehriban qonşuluq münasibətləri yaratmaq məqsədilə danışıqlara başlamağa hazır olduğunu bildirdi.[5] Lakin Azərbaycan tərəfi bu fikirdə idi ki, danışıqlara başlamaq üçün Sovet Rusiyası rəsmi şəkildə Azərbaycan

---

[1] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Mars, №10, p.1

[2] Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsinin qərarları jurnalından çıxarış. 06.01.1920. //ARDA, f.970, s.1, i.112, v.8

[3] Xarici işlər naziri F.X.Xoyskinin Gürcüstandakı Azərbaycan nümayəndəsi F.Vəkilova təcili diplomatik məlumatı. 07.01.1920. //ARDA, f.970, s.1, i.112, v.1a

[4] З.Авалов. Независимость Грузии в международной политике. Париж, 1924, с.240

[5] Bax: Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Mars, №10, p.2; Xarici işlər naziri Xan Xoyskinin Sovet Rusiyasının xarici işlər üzrə xalq komissarina radioqramı. 14.01.1920. //ARDA, f.970, s.1, i.112, v.7

Respublikasını tanımalıdır. Məhz, bu addım Azərbaycanın milli müstəqilliyinin qorunmasına təminat ola bilərdi. G.Çiçerinə göndərilən notanın məzmunu barədə ingilis Ali Komissarı Oliver Uordropa da məlumat verildi.[1]

Qafqazda bolşevik təhlükəsi ilə bağlı yaranmış vəziyyət Antanta ölkələrini ciddi şəkildə düşündürməyə və real əməli addımlar atmağa vadar edirdi. Qərbin siyasi dairələri yaxşı bilirdi ki, sovet ordusunun Cənubi Qafqaza təcavüzü bolşevik ideyasının İrana və Turkiyəyə yayılmasına səbəb olacaq, bütün Yaxın və Orta Şərqi həyəcan bürüyəcəkdir. Ona görə də Avropa siyasətçilərinin çoxu bu fikirdə idi ki, sovet hücumuna qarşı dura bilmək üçün Azərbaycan və Gürcüstanın müdafiəsini möhkəmləndirmək, onları müdafiə vasitələri ilə təmin etmək lazımdır. Lakin yeni formalaşan beynəlxalq münasibətlərin prinsiplərinə görə, müstəqilliyi tanınmayan dövlətlərə yardım göstərmək məsələsi hüquqi baxımdan ciddi çətinliklərlə qarşılaşırdı. Digər tərəfdən, 1920-ci ilin ilk günlərində yaranmış gərgin vəziyyətdə bu respublikaların müstəqilliyinin tanınmasına mane ola biləcək "vahid və bölünməz Rusiya" ideyası artıq öz əhəmiyyətini itirmiş, onun tərəfdarlarının ümidləri doğrulmamışdı. Ona görə də, hadisələrin çox sürətlə cərəyan etdiyi bir vaxtda Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz bir vəzifə kimi meydana çıxmışdı. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə yanvar ayının 10-da Paris Sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiyanın isə Sülh konfransındakı nümayəndələri və Fransadakı səfirləri iştirak edirdi. Ke d'Orsedə keçirilən sessiyada Cənubi Qafqaz respublikalarının məsələsi çox geniş və ətraflı müzakirə edildi. İngiltərənin Baş naziri Qafqazdakı vəziyyət barədə sessiyaya ətraflı məlumat verdi. O bildirdi ki, bolşeviklər Xəzər boyunca hərəkət edirlər, əgər onlar Denikini əzsələr və Xəzər dənizini ələ keçirsələr, ola bilsin ki, türklər onlarla birləşsinlər / burada Mustafa Kamal paşanın başçılığı ilə Türkiyədə başlanmış milli hərəkat nəzərdə tutulur – C.H./. Belə olduqda Qafqaz dövlətləri çıxılmaz vəziyyətdə qalacaqlar. Ona görə də Lloyd Corc təklif edirdi ki, bu dövlətlərə silah və hərbi sursat göndərmək üçün ağıllı bir yol fikirləşmək lazımdır.[2] Onun təklifi ilə Ali Şura qərar qəbul etdi ki, hərbi ekspertlər Cənubi Qafqaz respublikalarına hərbi yardım göstərmək barədə təkliflər versinlər. Jorj Klemanso Lloyd Corcun bəyanatı ilə tam razılaşdı və qeyd etdi ki, Qafqaz işləri üzrə çox təcrübəsi olan Britaniya nümayəndələri "Cənubi Qafqaz respublikalarına kömək haqqında" memorandum hazırlasınlar. İclasda qərara alındı ki, bolşeviklərlə mübarizə məqsədilə Qafqaza hərbi yardım göstərilməsi məsələsi ekspertlər tərəfindən öyrənilsin və Britaniya nümayəndələri ilə birlikdə bu haqda Ali Şuraya məruzə edilsin.[3]

Günorta Baş Şuranın iclası D.Lloyd Corç, J.Klemanso və F.Nittinin iştirakı olmadan xarici işlər nazirləri səviyyəsində davam etdirildi. İngiltərənin xarici işlər naziri Lord Kerzonun təşəbbüsü ilə xarici işlər nazirləri Cənubi Qafqaz respublikalarına münasibət məsələsinin siyasi tərəflərini müzakirə etdilər. Kerzon öz çıxışında dedi ki, Lloyd Corc Ali Şuranın iclasında Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınmasını qoymaq fikrindədir. O, əlavə etdi ki, Ermənistan məsələsi Türkiyə məsələsi ilə birlikdə həll ediləcəkdir. Xarici işlər nazirləri uzun müzakirələrdən sonra belə bir yekdil qərara gəldilər ki, Azərbaycan və Gürcüstan respublikaları üçün üç tərəfdən təhlükə yaranmışdır. Birincisi, bolşevik Rusiyasının qoşunları cənub istiqamətində hərəkət edir, ikincisi, geri çəkilən Denikin ordusu bu respublikalara soxula bilər, üçüncüsü, kamalçılar Rusiya ilə razılıq əsasında bu respublikalara müdaxilə edə bilər.[4] Vəziyyət böhranlı olduğu üçün Azərbaycan və Gürcüstan hökumətləri Antanta dövlətlərinə yardım üçün müraciət etmişdilər.[5] Kerzon həmin müraciətlər barədə məlumat verib təklif etdi ki, yubanmadan Azərbaycan və Gürcüstanı de-fakto tanımaq lazımdır. Bu dövrdə yaranmış vəziyyəti təhlil edərək, sonralar M.Mehdiyev yazırdı: "Versal konfransının mühitindən aydın oldu ki, real surətdə mövcud olan dövlətləri tanımaq üçün artıq bütün şərait yaranmışdı. Sadəcə olaraq, bir təkan kifayət idi və bu

[1] Gürcüstanda diplomatik nümayəndə F.Vəkilovun O.Uordropa məlumatı. 14.01.1919. //ARDA, f.897, s.1, i.69, v.33
[2] Papers Relating to the Foreign Relations of the United States. Paris Peace Conference, 1919, vol.IX. US Government Printing Office. Washington, 1946, p.851
[3] İbid, p.837-838
[4] İbid, p.953
[5] З.Авалов. Независимость Грузии в международной политике, с.240

təkanı Sülh konfransında nümayəndə olan İngiltərənin xarici işlər naziri Lord Kerzon verdi."[1] Kerzona görə, Mudros barışığından sonra Britaniya qoşunları Cənubi Qafqaza birinci daxil olduğu üçün Britaniya hökumətinin digərlərinə nisbətən bu respublikalarla daha yaxın münasibətləri vardır. Bir gün sonra, yanvarın 11-də Müttəfiqlərin Ali Şurası Kerzonun təklifi üzrə bu məzmunda bir qərar qəbul etdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar."[2] Bununla da Azərbaycanın müstəqilliyi 1920-ci ilin yanvar ayının 11-də de-fakto olaraq Paris Sülh konfransı tərəfindən tanındı.

Yanvar ayının 12-də müttəfiqlərin birləşmiş hərbi komitəsi Qafqaz məsələsinə dair öz təkliflərini Versal Ali Şurasına göndərdi. Sənədi marşal Ferdinand Foş, general Sakvill Uest və Uqo Kovallero imzalamışdılar. Orada deyilirdi: Əgər bolşevizmi öz ərazilərində əzmək mümkün olmasa, o, Qafqaz kimi təhlükəli ərazilərə keçə bilər. Ona görə bolşeviklərin Qafqaza doğru hərəkətinə qarşı hərbi maneə yaradılması məsələsini bir daha diqqətlə nəzərdən keçirmək lazımdır. Yerli hökumətlərin qeyri-stabilliyini və hərbi birliklərin zəifliyini nəzərə alsaq, bolşevizmə qarşı bu maneə ilk dövrlərdə Avropa orduları tərəfindən yaradılmalıdır. Bu vəzifəni iki güclü diviziya yerinə yetirə bilər. Sonrakı mərhələdə təlim keçmiş yerli silahlı qüvvələr bu işə cəlb edilə bilər və tədricən Qafqazda Avropa Ordusu azaldıla bilər. Maliyyə və maddi məsələlərdən əlavə, Qafqaz müdafiə səddini yaratmaq üçün kifayət qədər zaman lazımdır. Buna ən azından üç ay vaxt gedəcək. Ona görə, bütün məsələlərə təcili şəkildə başlamaq lazımdır.[3] Ekspertlər belə hesab edirdilər ki, müdafiə səddi yaradılana qədər müəyyən şərtlər daxilində Qafqaza hərbi sursat göndərmək işini davam etdirmək lazımdır və Xəzər dənizində müttəfiqlərin donanması vəziyyətə nəzarət etməlidir. Ekspertlərin fikrincə, müttəfiq dövlətlər qeyd edilənlərlə razılaşardılarsa, Qafqaz respublikalarına yardım göstərməyin yolunu və formalarını araşdırmaq olardı.

Həmin gün Britaniya nümayəndələri də buna bənzər bir sənəd hazırladılar. Onların fikrincə bolşeviklərin Avropanı dağıtmaq arzuları gerçəkləşmədi, buna görə onlar müsəlmanlarla danışığa girib Şərqə hərəkət etməyə qərar verdilər. Denikinin qaçılmaz məğlubiyyəti müttəfiqlərin hər iki cinahdan qorumaq istədikləri Cənubi Qafqazı təhlükəli bir koridora çevirir. İndi hər şey etmək lazımdır ki, hər iki qüvvənin (bolşevik Rusiyası və kamalçı Türkiyənin – C.H.) birləşməsinə yol verilməsin. Britaniyalılar belə hesab edirdilər ki, Gürcüstana hücum müttəfiqlər üçün pis nəticələr verə bilərdi və əgər Gürcüstana müttəfiqlərin köməyi göstərilərdisə, onlar öz sərhədlərini qoruya bilərdilər. Sənəddə təklif edilirdi ki, Gürcüstana və Azərbaycana siyasi, hərbi, maliyyə və ərzaq yardımı göstərilməsi zəruridir.[4]

Versal Ali Şurasının qərarından sonra yanvar ayının 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət edildilər. Azərbaycan nümayəndələrindən Ə.M.Topçubaşovu və M.Məhərrəmovu, Gürcüstan nümayəndələrindən İ.Sereteli və Z.Avalovu nazirliyin Baş katibi Jül Kambon, ingilis nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi markiz dela Torreta qarşıladılar. Jül Kambon Ali Şuranın üzvləri və müttəfiq ölkələr tərəfindən Azərbaycanın de-fak-to tanınması barədə Paris Sülh konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi.[5] O, nümayəndələri təbrik edib bildirdi ki, bundan sonra Azərbaycan və Gürcüstan müstəqilliyi tanınmış dövlətlər kimi, Sülh konfransına zəruri məsələlərlə bağlı rəsmən müraciət edə bilərlər.[6] M.Mehdiyev bu məsələ ilə bağlı yazır: "Müsyö Kambon bəyan elədi ki, Azərbaycan və Gürcüstan respublikaları rəsmi və beynəlxalq hüquq normalarına uyğun olaraq, müstəqil dövlətlər kimi tanınmışdır. Bu məqamdan başlayaraq, bu iki ölkə rəsmi olaraq "Ali Şura" ilə əlaqəyə girə bilər, öz ehtiyaclarını, qeydiyyata alınmalarını, konfransın iclaslarında qanuni hüquqlarını, bərabər hüquqlu üzv olmalarını tələb edə bilərlər. Bundan başqa Kambon bildirdi ki, bu dövlətlərin hökumətlərinin tanınması aktı,

[1] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.IX, p.985-959; Mir Yacoub. Le probleme du Caucase. Paris, p.121
[2] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, Vol.IX, p.959; Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.1
[3] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.IX, p.902-903
[4] Ibid, p.903-904
[5] La reconnaissance de l'independance de l'Azerbaidjan et de la Georgie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.1
[6] З.Авалов. Независимость Грузии в международной политике, с.241

eyni zamanda onların Rusiyadan ayrılmasının tanınması ilə müşayiət olunmalıdır. Bundan çıxış edərək demək olar ki, Azərbaycan və Gürcüstan Respublikaları bu gündən belə suveren dövlətlər hesab ediləcəkdir".[1] Sonra J.Kambon nümayəndələrin "hər hansı arzu və təklifini soruşduqda Azərbaycan Respublikası adından Ə.M.Topçubaşov Azərbaycanın siyasi quruluşu haqqında qısa məlumat verib, onun tanınması üçün təşəkkürünü bildirdi və qeyd etdi ki, Azərbaycan Respublikası böyük dövlətlərdən yardım və müstəqilliyinin de yure tanınmasını gözləyir. Versal Ali Şurasının qərarı Azərbaycan nümayəndələrinə təqdim edildikdən sonra Fransa Xarici İşlər Nazirliyi teleqram vuraraq özünün bir sıra ölkələrdə olan diplomatik nümayəndəliklərini və Ali Komissarlarını Azərbaycan və Gürcüstanın tanınması haqqında Ali Şuranın qərarı barədə məlumatlandırdı.[2]

Versal Ali Şurasının tarixi qərarı haqqında məlumat yayılan kimi, Azərbaycan təmsilçiləri bir çox xarici dövlətlərin nümayəndələrindən, cəmiyyət və birliklərdən təbrik teleqramları aldılar. Müstəqilliyin tanınması münasibəti ilə Gürcüstan, Estoniya, İran, Hindistan və digər ölkələrin nümayəndələri, Lozannadakı Ukrayna bürosu, "Franko-Qafqaz" komitəsi, Cenevrədə yerləşən Rusiya imperiyası tərkibindən çıxmış müstəqil respublikalar liqasının sədri cənab Pittard və digərləri təbrik teleqramları göndərmişdilər.[3]

Yanvar ayının 15-də günün ikinci yarısı Versalda hərbi ekspertlər Şurası Azərbaycan və Gürcüstana hərbi yardım göstərmək məsələsini müzakirə etdi. Şuranın işində iştirak etmək üçün təcili surətdə Böyük Britaniyanın hərbi naziri U.Çerçil, İmperiya Baş qərargahının rəisi feldmarşal H.Vilson, admirallığın birinci lordu U.Lanq, admiral lord Bitti və digərləri Londondan Parisə gəldilər.[4] Hərbi ekspertlərin iclası, yüksək rütbəli ingilis hərbçilərinin Parisə dəvət edilməsi müxtəlif şayiələrin yayılmasına səbəb oldu. Fransa radiosu belə bir xəbər yaydı ki, on min ingilis əsgəri Bakıya yola düşmək üzrədir. Radionun məlumatına gorə, Lloyd Corc guya, Klemansodan xahiş etmişdi ki, Almaniyada olan fransız işğal ordusunun sayını artırsın, oradakı ingilis ordusunu o, çıxarıb Bakıya göndərmək istəyir. Lakin bütün bunlar hamısı şayiə idi. Aprel hadisələrinə qədər nə Bakıya, nə də, Tiflisə nəinki ingilis ordusu, heç ingilis hərbi müşavirləri də göndərilmədi.

Hərbi ekspertlərin iclası yanvar ayının 16-da öz işini davam etdirdi. İclasa J.Klemanso sədrlik edirdi. O, bir gün əvvəl Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşmüş J.Kambodan xahiş etdi ki, Cənubi Qafqazdakı vəziyyət haqqında məlumat versin. Kambon bu respublikaların ciddi maliyyə, hərbi və digər yardıma ehtiyacı olduğu və onların müdafiə qabiliyyəti barədə məlumat verdi. Jül Kambon qeyd etdi ki, hər iki respublikanın nümayəndələri siyasi, hərbi və maliyyə yardımı göstərilməsini xahiş ediblər. Əvvəllər onlar Denikindən ehtiyat edirdilər, lakin indi Könüllü ordu artıq zəifləyib.

Ötən müzakirədə F.Kerr hər iki nümayəndəliyə hərbi vəziyyət haqqında sual verdikdə aydın olmuşdu ki, Gürcüstan 50 min, Azərbaycan isə təxminən 100 min adamı orduya səfərbər edə bilər. Bu məlumatlar da öz növbəsində Klemansoya verildi. Lakin nə J.Kambonun, nə də F.Kerrin məlumatları Klemansonu qane etmədi. Jorj Klemanso bu rəqəmlərə şübhə ilə yanaşırdı. Lloyd Corc isə əksinə qeyd edirdi ki, bu ölkələrdə yaxşı intizamlı döyüş qabiliyyətinə malik dəstələr var ki, bunların da çoxunu tatarlar (azərbaycanlılar – C.H.) təşkil edir. J.Kambon əlavə etdi ki, hər iki respublikanın ordusu köhnə çar ordusu və milli qvardiyaların əsasında yaradılmışdır. Hər iki respublika cəbhə xəttini saxlamaq üçün kifayət qədər əsgərə malikdir. Yeganə çatışmayan silah və sursat tədarükküdür. Bilavasitə bununla bağlı respublikalar müttəfiqlərə müraciət ediblər. Sonra J.Kambon dedi ki, Azərbaycan və Gürcüstan nümayəndələri Dağlılar Respublikasının da de-fakto tanınmasını istəyirlər, xüsusilə, azərbaycanlılar belə hesab edirlər ki, bolşeviklər Denikini təqib etsə, Könüllü ordu Dərbəndə gələ bilər və bu Bakını böyük təhlükə qarşısında qoyar. Bakının işğalı isə bütün Xəzər hövzəsini təhlükə altına sala bilər. Lloyd Corc Dağlılar Respublikasının

[1] Mir Yacoub. Le probleme du Caucase, p.122

[2] Reconnaissance des Gouvernements de Géorgie et d'Azerbaïdjan Le 22 janvier 1920. // Ministère des Affaires Etrangère( MAE) de France (Archives Diplomatique) Correspondanse politique et commerciale, 1914-1940 Série «Z» Europe 1918-1940 Sous-Serie USSR Russia-Caucase (Azerbaidjan). Direction des Affaires Politiques et Commerciales 11 janvier 1919 – 31 mars 1920. Vol.638, folio 183

[3] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.2

[4] З.Авалов. Независимость Грузии в международной политике, с.243-244

tanınmasını ağıllı ideya kimi dəyərləndirdi. Onun fikrincə, müsəlmanlar bu addımı yaxşı qarşılaya bilərdilər. Eyni zamanda, o, əlavə etdi ki, müttəfiqlərin kifayət qədər silah və sursatı vardır, lakin iş bunun çatdırılması məsələsindədir. J.Klemanso dedi ki, Denikinə göndərilən silahın çoxu bolşeviklərin əlinə keçib.

Uzun müzakirələrdən sonra nəhayət, qərara alındı ki, sabah Azərbaycan və Gürcüstan nümayəndələrinin özlərinin iştirakı ilə feldmarşal H.Vilson müzakirələri davam etdirsin.[1]

Yanvar ayının 17-də Azərbaycan nümayəndələrinin yaşadığı Klaric mehmanxanasında feldmarşal H.Vilsonun sədrliyi, admiral Bittinin, İngiltərə Xarici İşlər Nazirliyinin nümayəndəsi Robert Vansittartın, Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Müşavirənin əsas məqsədi bolşeviklərin hücum edəcəyi təqdirdə Azərbaycan və Gürcüstana nə kimi maddi kömək göstərməyi aydınlaşdırmaq idi. Qafqaza müttəfiq qoşunlarının göndərilməsi məsələsi iclasda müzakirə edilmədi, yalnız hərbi sursat və ərzaq formasında yardım göstərilməsi məsələsinə toxunuldu. Admiral Bittinin – kənardan kömək olmadan Azərbaycan hərbi-dəniz donanması Xəzər dənizi sahillərinin müdafiəsini təşkil edə bilərmi? - sualına Ə.M.Topçubaşov - xeyr, təşkil edə bilməz – deyə cavab vermişdi.[2]

1920-ci ilin yanvarın 19-da hökumət başçılarının iştirakı ilə Paris Sülh konfransının Ali Şurasının iclası Cənubi Qafqaz respublikaları məsələsini ətraflı müzakirə etdi. Artıq həmin gün Azərbaycan nümayəndələri tam heyətdə Paris Sülh konfransının iclasında iştirak edirdi. İclasa zəmanənin ən böyük siyasi xadimləri - Lloyd Corc, Klemanso, Nitti, Kambon, Matsi, Kerzon, Çerçil, Foş, Bitti, Vilson və digərləri toplanmışdı.[3] İclasda Ali Şuranın 10 yanvardakı tapşırığı üzrə ingilis nümayəndələri tərəfindən hazırlanmış memorandum oxundu. Memorandumda aşağıdakı tədbirlər nəzərdə tutulurdu: 1. Azərbaycan və Gürcüstan tanınsın /bu bənd artıq həyata keçirilmişdi - C.H./; 2. Denikinə göndərilən və yolda olan silah və sursat Azərbaycana, Gürcüstana və Ermənistana göndərilsin; 3. Azərbaycan və Gürcüstana əlavə olaraq, ərzaq, maliyyə və hərbi /silah və sursat/ yardım göstərilsin; 4. Bakı və Batumun müdafiəsini möhkəmləndirmək məqsədi ilə əlavə tədbirlər görülsün; 5. Xəzər sahilinin müdafiəsi təmin edilsin, bolşevik ordusu və donanması Xəzər dənizinə buraxılmasın. Denikinin dəniz donanması müttəfiqlərin ümumi istifadəsinə qaytarılsın, bu mümkün olmadıqda həmin donanma batırılsın.[4]

İclasda marşal Ferdinand Foş müttəfiqlərin hərbi ekspertlər Şurasının məruzəsi ilə çıxış etdi. Ən böyük mübahisə, yardımın necə və hansı formada göstərilməsi barədə idi. Hərbi ekspertlərə başçılıq edən marşal Foş Cənubi Qafqaza bir neçə diviziya göndərməyi zəruri hesab edirdi. Feldmarşal Vilson Ferdinand Foşu müdafiə edərək əlavə etdi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü ələ almasa, Cənubi Qafqazı saxlamaq mümkün olmayacaq. Hərbi nazir U.Çerçil Henri Vilsonla razılaşdı və bildirdi ki, İngiltərə Xəzər dənizinə nəzarət etməsə, Zaqafqaziyaya göndərilən bütün silah bolşeviklərin əlinə keçəcəkdir.[5] Lloyd Corc hərbi ekspertlərin təkliflərinə qəti şəkildə etiraz etdi. O, qeyd edirdi ki, hərbçilər siyasətdən baş çıxara bilmirlər. "Əgər Cənubi Qafqazı ordu göndərmədən saxlamaq mümkün deyilsə və əgər göndərilən silah itiriləcəksə, məntiqi şəkildə yardımdan imtina etmək lazımdır. Hərbçilərin qərarını beləmi başa düşmək lazımdır?",[6] - deyə Lloyd Corc marşal Foşdan soruşurdu. Marşal Foş haqlı olaraq, Qafqazın bolşevik təcavüzündən xilas olunmasını ora ordu göndərilməsində görürdü.

Beləliklə, marşal Foşun başçılığı ilə hərbi ekspertlər bilavasitə ordu göndərilməsi, Lloyd Corcun təsiri altında olan siyasətçilər isə silah, hərbi sursat verilməsi ilə yardım göstərilməsinə tərəfdar oldular. Azərbaycan və Gürcüstana hərbi kömək göstərməyin zəruriliyini qeyd etməklə yanaşı, Lloyd Corc aydınlaşdırmaq istəyirdi ki, bu respublikalar göndərilən yardımdan səmərəli istifadə edə biləcəklərmi, yaxud general Denikinə göndərilən yardım kimi bu da bolşevik ordusunun əlinə keçməyəcək?

---

[1] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, vol.IX, p.866
[2] З.Авалов. Независимость Грузии в международной политике, c.245
[3] La reconnaissance de l'independance de l'Azerbaidjan et de la Georgie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.1-2
[4] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, vol.IX, p.903-904
[5] Ibid, p.903
[6] Ibid, p.891

Konfransın sədri J.Klemanso hərbi ekspertlərə müraciət edərək soruşdu: hansı təhlükə bu ölkələri təhdid edir və Lloyd Corc tərəfindən qaldırılan məsələlərlə bağlı müttəfiqlər tərəfindən göstərilən yardımdan səmərəli istifadə etmək mümkün olacaqmı?[1] Lord Kerzon məlumat verdi ki, o, hazırda gözləmə zalında olan Qafqaz respublikalarının nümayəndələri ilə geniş müzakirələr aparmışdır. Onlar hazırda bolşeviklərin hücum edəcəyindən bərk narahatdırlar. Onlar belə hesab edirlər ki, silah və sursat vaxtında çatsa, təhlükəni sovuşdurmaq olar. Əks təqdirdə, onların hökumətlərinin yıxılması qaçılmaz olacaq. Lord Kerzon dedi ki, hər ehtimala qarşı onları dinləmədən qərar qəbul etmək lazım deyildir. J.Klemanso bu ideyanı bəyəndi və qərara alındı ki, Azərbaycan və Gürcüstan nümayəndələrini dinləsinlər.[2]

Qafqaz nümayəndələri iclasa qatıldıqdan sonra Klemanso onlara müraciət edərək dedi: "Cənablar! Hazırda konfrans Azərbaycan, Gürcüstan və Dağıstana silah, sursat və ərzaq göndərilməsi məsələsini müzakirə edir. Təkliflər səsləndirildi ki, siz bolşeviklərin ölkələrinizə ehtimal olunan hücumunun mümkünlüyü və sərəncamınızda olan müdafiə vasitələri haqqında ətraflı məlumat verəsiniz. Biz bilmək istəyirik sizə ayırdığımız köməyi necə istifadə etmək niyyətindəsiniz. Biz sizə effektli yardım göstərməyə hazırıq, lakin bilmək istəyirik sizin ölkələriniz indi hansı vəziyyətdədir. Bu kömək bolşeviklərə qarşı effektli istifadə edilə biləcəkmi, yaxud Denikinlə olduğu kimi bolşeviklər bu silahı ələ keçirəcəklər və vəziyyət daha da ağırlaşacaq. Razılıq əsasında hər iki nümayəndənin adından İ.Sereteli çıxış etdi. O, qeyd etdi ki, Gürcüstan və Azərbaycanın müttəfiqlərin yardımına böyük ehtiyacı vardır. İ.Sereteli dedi: "Hər iki respublika eyni halda bolşeviklərin hücumunu gözləyir, lakin məlum deyildir biz müdafiə oluna biləcəyik, ya yox. Əgər Antantanın köməyi gəlsə, bolşeviklər hücumu təxirə sala bilərlər. Əgər biz bolşevik hücumundan müdafiə olunmaq istəyiriksə, bu halda yardıma böyük ehtiyacımız vardır." Jorj Klemansonun –"Siz ordu istəyirsinizmi?", – sualına İ.Sereteli – "bu daha yaxşı olar, bolşeviklər gec-tez Cənubi Qafqaza hücum edəcəklər", - deyə cavab verdi. İ.Sereteli dedi: "Bizim xalqlar belə düşünür: əgər bolşeviklər hücum edəndə Antanta kömək etsə, hücumu ötüşdürməyə ümid etmək olar. Lakin bu kömək çox mühümdür və təcili göstərilməlidir. Denikin bizim torpaqlarımıza soxulanda adamlar ona qarşı vuruşmaq istəyirdilər, lakin ümidsiz idilər. İndi xalq görür ki, onların müstəqilliyi tanınıb və bizi əmin edirlər ki, dağlılar da daxil olmaqla, bütün qüvvələri bolşeviklərə qarşı səfərbər edəcəklər və müstəqilliyi qoruyacaqlar. Biz müharibə istəmirik. Biz, hətta mümkün olsa, bolşeviklərlə sazişə gəlməyə belə hazırıq." Jorj Klemanso İ.Seretelidən soruşdu: "Siz həqiqətən bolşeviklərlə saziş imzalaya bilərsiniz?" Sereteli cavab verdi ki, "bəli, lakin onlar bizə hücum etməyəcəklərinə və xalq içərisinə nifaq salmayacaqlarına təminat verməlidirlər." O, əlavə etdi ki, "əgər biz güclü olsaq və Antanta bizə kömək etsə, bolşeviklər bizim istiqlaliyyətimizi tanımaq məcburiyyətində qalacaqlar və öz niyyətlərindən əl çəkəcəklər."

Sonra Lloyd Corc Azərbaycanın silahlı qüvvələri haqqında ətraflı sorğu-sual aparmağa başladı. Azərbaycan nümayəndəliyinin müşaviri M.Məhərrəmov məlumat verdi ki, zəruri olan silah və sursat olarsa, qısa müddətdə Azərbaycanda 100 min nəfər adamı orduya səfərbərliyə almaq olar. Lloyd Corcun "bu gün sizin ordunuz varmı?", - sualına cavab olaraq M.Məhərrəmov dedi: "Bizim kiçik ordumuz var, azərbaycanlı generalların komandanlığı altında yaxşı təlim görmüş 50 minlik ordu var. Lakin 10-12 min əsgərin silahı var." Lloyd Corc eyni sualı İ.Sereteliyə verdikdə Sereteli dedi ki, 15 min nəfərdən ibarət olan nizami ordu 16 batalyondan ibarət olub, yaxşı təlim görmüşdür. Əgər bizim silahımız olsa, iki həftə ərzində 50 min nəfər səfərbər edə bilərik. Lord Kerzon söz alaraq, Azərbaycan nümayəndələrinə belə bir sual verdi: "Məndə olan məlumata görə, Azərbaycan əsgərlərinin bir hissəsi türklərdir. Türk əsgərlərinin olması gələcəkdə bolşeviklərə qarşı döyüşə mane olmazmı? M.Məhərrəmov dedi ki, Azərbaycan Rusiya tərəfindən işğal edildiyindən əhalinin böyük bir hissəsi kömək üçün Türkiyəyə müraciət etdi. Onda türk ordusu Qafqazı azad etdi, bu ordunun zabitlərinin müəyyən hissəsi keçmiş Azərbaycan və Dağıstan sakinləri idi. Türklər Qafqazı tərk etdikdən sonra Azərbaycanda qalan türk zabitlərinin sayı 50 nəfərdən artıq deyillər, onlar qafqazlıdırlar və biz əminik ki, onlar da bütün xalq kimi bizim azadlığımız uğrunda bolşeviklərə qarşı vuruşacaqlar.[43] İclasda çıxış edən Ə.Topçubaşov qeyd etdi

[1] Ibid, p.893
[2] Ibid, p.891

ki, Azərbaycan Respublikasının bolşeviklər və Denikinin əleyhinə heç bir niyyəti yoxdur. O, Rusiyanın daxili işlərinə qarışmaq fikrində deyildir. Lakin Azərbaycanın müstəqilliyi üçün təhlükə törədən hər iki qüvvədən özünü müdafiə etmək üçün bütün imkanlardan, ilk növbədə isə müttəfiqlərin yardımından səmərəli istifadə etməyi zəruri hesab edir. Əli Mərdan bəyin fikrincə, müttəfiqlər Ənzəlidə olan ingilis donanması vasitəsi ilə Bakının müdafiəsinə əhəmiyyətli köməklik göstərə bilərdilər. Ə.Topçubaşov Şimaldan gələn ordu ilə Cənubi Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasının da Müttəfiqlər tərəfindən de-fakto tanınmasını təklif etdi.[1] Ə.M.Topçubaşovun bu sözlərindən sonra Lloyd Corc Denikinin Dağıstana hücumunun səbəbləri ilə maraqlandı. Sereteli dedi ki, Denikin Dağıstana və bütün Cənubi Qafqaza Rusiya əyaləti kimi baxır. F.Nitti bilmək istədi ki, Qafqaz dövlətlərinin tanınması bolşeviklərə qarşı müqavimət mühiti yaradacaqmı? İ.Sereteli bu sualı müsbət cavablandırdı və əlavə etdi ki, bu tanınma de-yure ilə tamamlansa, müqaviməti xeyli artıra bilər. M.Məhərrəmov söhbətə qoşulub məlumat verdi ki, Azərbaycan hökuməti Denikin donanmasının bölüşdürülməsinin əleyhinədir. İndi Denikin ordusu məğlub olduqda, matroslar arasında bolşeviklərə rəğbət yaranmışdır. Yəqin ki, onlar bolşeviklər tərəfinə keçəcəklər, bu da Bakı üçün və bütün Cənubi Qafqaz üçün təhlükə yaradacaq. Lloyd Corc maraqlandı ki, əgər silah gəlsə, Bakını müdafiə etmək olarmı? Bakının müdafiəsi üçün nə qədər adam səfərbər etmək olar? M.Məhərrəmov dedi ki, Bakıda artıq güclü qarnizon vardır. Klemanso bu qarnizonun sayını dəqiqləşdirmək istədikdə M.Məhərrəmov 7 min rəqəmini səsləndirdi. Sonrakı müzakirələr Qafqaz respublikalarının nümayəndələri olmadan davam etdirildi.[2] İclasın bu mərhələsində U.Çörçil marşal F.Foşdan soruşdu ki, o, Qafqazın müdafiəsi məsələsinə müstəqil məsələ kimi, yoxsa bolşeviklərə qarşı mübarizə məsələsinin bir hissəsi kimi baxır. Marşal Foş cavab verdi ki, o, bu məsələyə bolşeviklərə qarşı mübarizənin bir hissəsi kimi baxır. U.Çörçil Denikinin, yoxsa bolşeviklərin Qafqaz üçün daha təhlükəli olduğunu soruşduqda Ferdinand Foş bolşeviklərin daha təhlükəli olduğunu bildirdi və dedi ki, ilk növbədə, bolşeviklərin cənuba doğru hərəkətini dayandırmaq, yeni yaranmış dövlətləri gücləndirmək lazımdır. O, Şərqi Avropa və Cənubi Qafqaz respublikalarının bolşevizmə qarşı ittifaqının yaradılmasını təklif edirdi. Marşal Foşun bu sözlərindən sonra iclas hərbi ekspertlərin iştirakı olmadan öz işini davam etdirdi.[3]

İclasın gedişində lord Kerzon Ermənistanın Azərbaycan və Gürcüstanla birlikdə tanınmamasının səbəblərini izah etdi. O, dedi: mən Azərbaycan və Gürcüstanın tanınması təklifinə görə şəxsən məsuliyyət daşıyıram. Mən ona görə, Ermənistanı təklif etmədim ki, Türkiyə ilə sülh müqaviləsi imzalanmadığından Ermənistanın tanınması məsələsi məqsədə uyğun sayılmırdı. Amma buna baxmayaraq, bu gün Ermənistanın tanınması üçün əsas var. Bugünki mövcud Ermənistan, Gürcüstan və Azərbaycan kimi paytaxtı İrəvan olmaqla keçmiş Rusiyanın ucqarlarında yerləşir. Bundan əlavə, Ermənistan dövləti Cənubi Qafqazın digər dövlətləri kimi bolşevizmə qarşı vuruşacağına vəd verir. Ümid edirəm ki, bu tanınma Türkiyə ilə müqavilədən sonra Ermənistanın sərhədlərinin tanınmasına mane olmayacaqdır. J.Klemanso Ermənistanın de-fakto tanınması məsələsini də səsə qoydu və məsələ müsbət həll olundu. Sonra Lloyd Corc məlumat verdi ki, ABŞ konqresi Ermənistana 25 milyon dollar məbləğində köməklik göstərməyi müzakirə edir. Onun fikrincə, bu məbləğ Qafqaz dövlətləri arasında bölünsəydi, daha yaxşı olardı. Qafqaza ordu göndərməklə bağlı Lloyd Corc dedi: Marşal Foş Qafqaza üç diviziya ordu göndərilməsinin zəruriliyini bəyan etdi. Tamamilə aydındır ki, Britaniya hökuməti bu diviziyaları ayıra bilməyəcəkdir. Jorj Klemanso həmin anda əlavə etdi ki, biz də bunu edə bilmərik. F.Nitti də qeyd etdi ki, biz də heç bir ordu göndərə bilmərik. Bununla da fikir mübadiləsi başa çatdı.

İclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaz respublikalarına təcili şəkildə silah, hərbi sursat və ərzaq göndərilməsi ilə yardım göstərilməsini vacib hesab etdi. Azərbaycan və Gürcüstana ordu göndərmək məsələsinə gəldikdə isə o, etiraf etdi ki, bu mümkün deyildir. Cənubi Qafqaz respublikaları özləri öz hərbi qüvvələrini möhkəmləndirmək üçün tədbirlər görməlidirlər və Bakının müdafiəsi xüsusilə möhkəmləndirilməlidir. Lloyd Corc

[1] Ibid, p.895-896
[2] Ibid, p.901-902
[3] Ibid, p.892-895

Ə.Topçubaşovun Dağlılar Respublikasının de-fakto tanınması barəsindəki təklifini müdafiə etdi.[1] Eyni zamanda o, açıq şəkildə bəyan etdi ki, bolşeviklərə, ancaq Bakı lazımdır. Göndəriləcək silahın bolşeviklərin əlinə keçmə təhlükəsi ilə bağlı Lloyd Corc dedi ki, onsuz da bolşeviklərin əlinə böyük həcmdə silah keçib, indi 25 min və ya 50 min silahın onların əlinə keçməsi heç nəyi dəyişmir. Nəticədə müzakirə edilən məsələlərlə bağlı Ali Şura Qafqaz məsələsinə dair dörd bənddən ibarət qərar qəbul etdi:1. Ermənistan və Dağlılar İttifaqı de-fakto tanınmalıdır. Bu qərar Türkiyə məsələsi ilə bağlı baxılacaq, Ermənistanın sərhədləri məsələsinə toxunmur; 2. Müttəfiq hökumətləri Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanına malik deyildirlər; 3. Müttəfiqlər Cənubi Qafqaz respublikalarına silah, hərbi sursat və ərzaq göndərməklə köməklik göstərəcəklər; 4. Marşal Foşdan və feldmarşal Vilsondan xahiş edilsin ki, Cənubi Qafqaz respublikalarına göndəriləcək hərbi materialların nədən ibarət olması və hansı yolla çatdırılması məsələsinə baxsınlar.[2] Bu iclasla nəinki Paris Sülh konfransı öz işini, eyni zamanda onun sonuncu iclasına sədrlik edən Fransanın Baş Naziri Jorj Klemanso da öz siyasi fəaliyyətini başa çatdırdı. 1929-cu ildə J.Klemanso vəfat edən zaman Azərbaycanın istiqlaliyyətinin tanınmasındakı roluna və xidmətlərinə görə Ə.M.Topçubaşov Azərbaycan Sülh nümayəndəliyinin rəhbəri kimi Fransa hökumətinə səmimi bir başsağlığı verdi. Orada deyilirdi: "Fransanın böyük siyasi xadimlərindən biri kimi Jorj Klemansonun vəfatı bizi dərindən kədərləndirmişdir. Biz azərbaycanlılar həmişə xatırlayacağıq ki, Azərbaycanın müstəqilliyi Klemansonun sədrliyi ilə tanınmışdır."[3] Müttəfiqlərin Ali Şurası tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınması barədə məlumatı Qafqazda olan İngiltərənin səlahiyyətli nümayəndəsi Oliver Uordrop Azərbaycan hökumətinə bildirdi. Yanvar ayının 12-də o, Tiflisdən Bakıya göndərdiyi teleqramda yazırdı: "Lord Kerzon məni vəkil etmişdir Azərbaycan hökumətinə bildirim ki, dünən o, Parisdə təcili olaraq Azərbaycanın və Gürcüstanın de-fakto tanınması barədə təklif vermişdir. Müttəfiqlərin Ali Şurası yekdilliklə bu qərarı qəbul etmişdir."[4] Azərbaycan nümayəndələrinin respublikanın müstəqilliyinin de-fakto tanınması barədə Parisdən göndərdikləri məlumat da bu məktubdan az sonra respublika hökumətinə yetişdi.[5] Yanvar ayının 18-də isə İtaliyada olan Azərbaycan hərbi missiyasının başçısı general İ.Usubov Romadan Azərbaycan hökumətinin sədrinə və müdafiə nazirinə göndərdiyi teleqramda Azərbaycan Respublikasının tanınması haqqında qərarın yanvarın 17-də İtaliya Xarici İşlər Nazirliyində ona təqdim edildiyini bildirirdi.[6]

Yanvar ayının 12-də O.Uordropun teleqramı alınan kimi hökumətin təcili iclası çağırıldı. Paris Sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınması kimi böyük hadisəni qeyd etmək üçün xüsusi tədbirlər müəyyən edildi. Yanvar ayının 13-də bu mühüm hadisə ilə bağlı hökumət məlumatı elan edildi və hökumət teleqramı ilə yanvar ayının 14-də bütün Azərbaycanda bayram şənliklərinin keçirilməsi barədə məlumat verildi. Respublikanın paytaxtında mitinq və nümayişlərin, Azərbaycan ordusunun hərbi paradının və Azərbaycan Parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edildi. Yanvar ayının 14-nün bütün Azərbaycanda qeyri-iş günü olduğu bildirildi.[7] Yanvarın 14-də bu böyük hadisə ilə əlaqədər respublikanın baş naziri N.Usubbəyovun "Azərbaycan vətəndaşlarına" müraciəti elan edildi.

Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh konfransında Azərbaycan Respublikasının de-fakto tanınması dəyişən siyasi şəraitlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin, onun xarici işlər nazirliyinin, bütövlükdə Ə.Topçubaşov başda olmaqla Azərbaycan Respublikasının beynəlxalq sülh konfransındakı nümayəndələrinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi idi.

Sovet hakimiyyəti qurulduqdan dərhal

---

[1] Ibid, p.897-898

[2] Mir Yacoub. Le probleme du Caucase, p.123

[3] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, vol.IX, p.902
Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchi¬bacheff - Le Cabinet a envoyé carte 29 novembre 1929.// Ministère des Affaires Etrangère de France, (MAE) Archives Diplomatique, Correspondance politique et commerciale, 1914-1940 Série «Z» Europe 1918-1940 Sous-Série URSS Russie-Caucase (Azerbaïdjan) Direction des Affaires Politiques et Commerciales 1 avril 1920 – 31 décembre 1929, vol. 639, folio 307

[4] Tiflisdə Britaniya Ali komissarı Uordropun Azərbaycan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsi F.Vəkilova məlumatı. 12.01.1920. //ARDA, f.897, s.1, i.69, v.13

[5] Ə.M.Topçubaşovun N.Usubbəyova təcili diplomatik məlumatı. 12.01.1920. //ARDA, f.897, s.1, i.69, v.18

[6] General İ.Usubovun N.Usubbəyova teleqramı. 18.01.1919. //ARDA, f.970, s.1, i.157, v.48

[7] Celebration de l'independence de la Republique d'Azerbaidjan.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.4-5

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAĞLANMASI VƏ "YENİ XARİCİ SİYASƏT XƏTTİ" (1920-1922-ci illər)

**Musa QASIMLI***

XX əsr Azərbaycan diplomatiya tarixinin mürəkkəb və ziddiyyətli dövrlərindən biri 1920-ci ilin aprelində ölkəmiz işğal edilərək sovetləşdirildikdən Sovet Sosialist Respublikaları İttifaqı yaradılanadək olan müddətdir. 1920-1922-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikası diplomatiyasının bütün fəaliyyətini bir yazıda araşdırmaq imkansız olduğundan təqdim edilən məqalədə arxiv materialları əsasında başlıca olaraq aşağıdakı məsələlərə diqqət yetirilir: Xarici İşlər Nazirliyinin bağlanması; Azərbaycan Sovet Sosilaist Respublikası Xalq Xarici İşlər Komissarlığının yaradılması; Avropa ölkələrinin Azərbaycandakı, Azərbaycanın isə xarici ölkələrdəki nümayəndəliklərinin ləğv edilməsi; Xarici İşlər üzrə katibliyin yaradılması.

## Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin bağlanması

sonra Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyi bağlandı. Xalq Xarici İşlər Komissarlığı (XXİK) yaradıldı. Nəriman Nərimanov ilk xalq xarici işlər komissarı oldu.[1] Bir neçə gün sonra, may ayının 2-də isə Mirzədavud Hüseynov həmin vəzifəyə təyin edildi. O, bu vəzifədə 1921-ci ilin dekabr ayınadək qaldı.[2] Yaradılmış komissiya tərəfindən Xarici İşlər Nazirliyinin rəfləri və yazı stolları açıldı. 1920-ci il avqustun 10-da müvafiq akt tətbiq edildi.[3] Komissiya nazirlikdə 6 rəfi və 2 yazı stolunu açaraq ümumi şöbənin birinci yazı stolundan 11, ikinci yazı stolundan 7, ümumi şöbənin bir saylı rəfindən 28, iki saylı rəfindən 15, siyasi şöbənin bir saylı rəfindən 20, iki saylı rəfindən 151, informasiya şöbəsinin bir saylı rəfindən 4 sənədi və s. götürərək aktlaşdırdı.[4]

XXİK-in ilk tədbirlərindən biri komissarlığın işini yenidən qurmaq üçün təkliflər irəli sürmək oldu. Təkilflərdə deyilirdi: 1. Nazirlik bir neçə muxtar bölməyə ayrılmışdır və onların hər birinin öz dəftərxanası vardır. Bu da ümumi işdə hərc-mərclik yaradır, onun fəaliyyətini ləngidir, ziddiyyətlər və qarışıqlıq əmələ gətirir. Ona görə də fəaliyyətin əlaqələndirilməsi və razılaşdırılması üçün bütün dəftərxana işinin bir əldə - Komissarlığın İşlər idarəsində cəmləşdirilməsi lazımdır. 2. Pasport, vəsiqə, buraxılış vərəqələri və b. verilməsinin komissarlığın ümumi siyasəti və təsərrüfat fəaliyyəti ilə əlaqələndirilməsi yolverilməzdir. O, müvafiq heyəti xalis texniki işə cəlb edir və bilavasitə vəzifələrin həyata keçirilməsinə ziyan vurur. Bununla əlaqədar olaraq komissarlığın pasport verilməsi üzrə xüsusi bölmə yaradılmalıdır. 3. Xalq Xarici İşlər Komissarlığının başlıca vəzifələrindən biri müsəlman Şərqi ilə əlaqələri möhkəmləndirmək olduğundan sovet Rusiyası və Avropa bölmələrinin ləğv edilməsi və onların əvəzində Şərq bölməsi yaradılması məqsədəmüvafiqdir. Keçmiş siyasi şöbənin Şərq və Qərb bölmələrinə ayrılması, İnformasiya bölməsinin saxlanılması vacibdir. İnformasiya bölməsi həmçinin xəritə və çertyojların tərtibi ilə məşğul olmalıdır. 4. Yuxarıda göstərilən üç bölmə sırf siyasi məsələlərlə məşğul olmalıdır. Maliyyə, təsərrüfat, ümumi və dəftərxana işlərini müvafiq olaraq maliyyə-təsərrüfat və ümumi işlər bölmələri aparacaqdır. Bütün bu bölmələrin bir əldə cəmləşdirilməsi üçün Komissarlıqda iki şöbə yaradılması məsləhət görülürdü: birincisi, Ümumi şöbə. Onun

* Tarix elmləri doktoru, professor ( Bakı Dövlət Universiteti )

[1] Qasımlı M., Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri. Bakı, Adiloğlu nəşr., 2003, s. 43-59.

[2] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.28 (Azərbaycan SSR Xarici İşlər Nazirliyinin fondu) , siy. 1, iş 1, v.1; Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARSPİHDA), f.1 (Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin fondu) , siy.122, iş.206, v.2.

[3] Qasımlı M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradlana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, Qanun nəşr., 1998, s.33.

[4] ARDA, f.28, siy. 1, iş 6, v. 60-65.

işinə komissarlığın İşlər müdirinin köməkçisi rəhbərlik etməli idi; ikincisi, Siyasi şöbə. Onun işinə isə komissarlığın İşlər müdiri başçılıq etməli idi. Ümumi şöbənin tərkibinə maliyyə-təsərrüfat, ümumi bölmələr və pasport verilməsi bürosu daxil edilirdi. Siyasi şöbənin tərkibinə isə Qərb, Şərq və İnformasiya bölmələri daxil olmalı idi.

Aparılan struktur dəyişikliyi ilə bağlı olaraq komissarlığın ştat tərkibi ixtisar edildi. Azərbaycan Cümhuriyyəti dövründə Xarici İşlər Nazirliyi sistemində 239 nəfər işləyirdi.[1] Təklif edilən yeni ştat tərkibi aşağıdakı kimi idi: komissar və onun dəftərxanası - 4, Komissarlığın İşlər müdiri və köməkçisi - 2, ümumi şöbə - 35, Siyasi şöbə - 30 nəfər. Beləliklə, komissarlıqda cəmi 71 nəfərin işləməsi nəzərdə tutulmuşdu. Bu heyətin təqribən 30 nəfərdən çoxu azərbaycanlı idi.[2]

Bolşevik hökuməti XXİK sistemində "təmizləmə" işləri apardı. Peşəkar diplomatlar işdən azad edildilər. 1920-ci il mayın əvvəllərindən başlayan "təmizləmə" siyasəti 1922-ci ildə komissarlıq tamamilə ləğv edilənədək davam etdi. Milli dövlətçilik və müstəqillik tərəfdarı olan bir çox azərbaycanlılar ixtisar adı altında işdən çıxarıldılar.[3] Bolşevik hökuməti yeni kadrların seçilməsinə başladı. İşə qəbul edilərkən əsas meyar peşəkarlıq deyil, bolşevizmə sədaqət idi. 1920-ci il iyunun 10-dan - sentyabr ayınadək XXİK işə girmək üçün ərizə verən şəxslərin əksəriyyəti azərbaycanlı deyildi. İşə götürülərkən son rəyi Azərbaycan Fövqəladə Komissiyası verirdi.[4]

"Təmizləmə" işləri komissarlığın fəaliyyətində çoxlu çətinliklər yaratdı. Ona görə də bolşevik hökuməti kadr problemini həll etmək üçün diplomatik xidmətə hazırlıq işlərinə başladı. XXİK müvafiq təkliflər hazırladı.[5] XXİK yanında Şərqşünaslıq institutu yaratmaq təklif edilirdi. Burada İslam və Şərq tarixi, müsəlman hüququ, İran, Türkiyə və b. ölkələrin iqtisadiyyat tarixi, iqtisadi münasibətlər, bu ölkələrin dillərinin öyrədilməsi nəzərdə tutulurdu. İnstitutu bitirən şəxslər Yaxın Şərq haqqında iqtisadi, hüquqi və siyasi biliklərə yiyələnəcəkdilər. Hüquqi təhsillə yanaşı bu institutun nəzdində diplomatik xidmət üçün kurslar açılmalı idi. Ehtiyacı nəzərə alaraq kursların qısa müddətli olması təklif edilirdi.

XXİK qarşısında duran vəzifələr aşağıdakı kimi müəyyənləşdirildi: Azərbaycanın qonşuları və Avropa dövlətləri ilə siyasi və iqtisadi xarakterli müqavilə və sazişlər bağlamaq; sovet müəssisə və təşkilatlarına izahat göstərişləri vermək; xarici ölkələrin dövrü mətbuatının alınmasını təşkil etmək; müxtəlif xəritə və sərhəd xətlərini çəkmək; Avropaya pəncərə açmaq; Qara dənizə çıxış əldə etmək; Avropa ölkələri ilə ticarət etmək; Gürcüstanın bolşevikləşdirilməsi üçün daxili partlayışa səbəb ola biləcək təbliğat aparmaq; Ermənistanda burjua rejiminin yıxılmasını hazırlamaq; İran və Türkiyə ilə mehriban münasibətlər qurmaq; xarici pasport və viza vermək; xarici ölkə vətəndaşlarının problemlərini həll etmək; XI Qırmızı ordu qərargahı üçün Cənubi Qafqaz kəndlərinin etnoqrafik xəritəsini hazırlamaq.[6]

Bu zaman Azərbaycan rəhbərliyi daxilində xarici siyasət məsələlərinə münasibətdə fikir ayrılığı yaranmışdı. Bəzi azərbaycanlı bolşeviklər müstəqilliyə hələ də sadəlövhlüklə inanır, Rusiya ilə bərabərhüquqlu münasibətlərin qurulmasına və inkişafına ümid edirdilər. Belə şəraitdə Azərbaycanın hansı inkişaf yolunu seçməsi bolşeviklər arasında mübahisəli olaraq qalırdı. N. Nərimanov 1921-ci il mayın 8-də etdiyi çıxışında deyirdi ki, elə yoldaşlar vardır, onlar xarici siyasəti başa düşmürlər. "Bizim sovet respublikalarında, bizdə xarici siyasət yoxdur"[7]. O, etiraf edirdi: "... Azərbaycanın həyatı sovet Rusiyasından asılılıqda yerləşir"[8] və əgər "sovet Rusiyası yoxdursa, sovet Azərbaycanı da yoxdur".[9]

Doğrudan da sovetləşdirildikdən sonra Azərbaycanın daxili və xarici siyasət məsələlərinin tənzimlənməsinə bolşevik Rusiyası hakim oldu. Onun razılığı və göstərişi olmadan heç bir məsələni həll etmək mümkün deyildi.

---

[1] Qasımlı M. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti. Bakı, Azərbaycan Universiteti nəşr., 2002.
[2] ARDA, f.28, siy. 1, iş 12, v. 57, 58, 64.
[3] ARDA, f.28, siy. 1, iş 39, v. 7.
[4] ARDA, f.28, siy. 1, iş 39, v. 9.
[5] ARDA, f.28, siy. 1, iş 61, v. 179-186.
[6] ARDA, f.28, siy. 1, iş 90, v. 38-42.
[7] Bax; Нариманов Н. Избранные произведения. т.2. 1918-1921. Баку: Азернешр, 1989, с. 493.
[8] Yenə orada, s. 489.
[9] Yenə orada, s. 549.

## Avropa dövlətlərinin Bakıdakı nümayəndəliklərinin ləğv edilməsi

Aprel ərəfəsində Bakıda aşağıdakı dövlətlərin nümayəndəlikləri var idi: İngiltərə (vitse-konsul Hevelke), Ermənistan (diplomatik nümayəndə H.A.Bekzadyan), Belçika (konsul Ayvazov), Yunanıstan (konsul Kusis), Gürcüstan (diplomatik nümayəndə N.S.Alşibay), Danimarka (konsul E.F.Bisrinq), İtaliya (səkkizinci missiyanın rəisi Enriko İnsom və konsul L.Qrikurov), Litva (konsul agenti V.İ.Miçkeviç), İran (baş konsul Saad ül Vizir), Polşa (konsul agenti S.Rılskiy), ABŞ (vitse-konsul Randolf), Ukrayna (vitse-konsul Qolovan), Finlandiya (konsul agenti Veqelius), Fransa (konsul agenti Yemelyanov), İsveçrə (konsul Klottyu), İsveç (konsul R.K.Vander-Pluq).[1]

1920-ci il apreldən sonra Bakıda həm də Türkiyə Böyük Millət Məclisinin diplomatik nümayəndəliyi, İranın fövqəladə diplomatik nümayəndəliyi və konsulluğu, Rusiyanın baş konsulluğu, İtaliyanın siyasi agentliyinin nümayəndəsi və konsulluğu, İsveç və İsveçrənin konsul agenti, Hollandiya və Almaniyanın konsulluğu, Estoniya, Latviya və Litvanın konsul agenti, Ermənistanın diplomatik nümayəndəliyi, Gürcüstanın səlahiyyətli nümayəndəliyi və baş konsulluğu, Buxara Sovet Respublikasının nümayəndəliyi və RSFSR-in Cənubi Qafqazdakı nümayəndəsi Leqran daxil olmaqla 15 nümayəndəlik fəaliyyət göstərirdi.[2]

Çevrilişdən dərhal sonra Böyük Britaniyanın Bakıdakı vitse-konsulu həbs edildi. Onun azad edilməsi Azərbaycan-Rusiya-Türkiyə-İngiltərə arasında geniş diplomatik müzakirələr obyekti oldu və nəhayət, öz həllini tapdı.

Polşa ilə sovet Rusiyası arasında müharibəyə başladığı üçün Cənubi Qafqaz respublikalarında polyak diplomatik nümayəndəliyinin başçısı olan Titus Filippoviç və üzvləri Bakıda həbs edildilər[3]. Polşanın xarici işlər naziri Saleqe 1920-ci il noyabrın 20-də verdiyi radioqramda[4] Filippoviçin qanunsuz olaraq azadlıqdan məhrum edilməsinə öz etirazını bildirdi və Riqada keçirilən RSFSR-Polşa danışıqlarında polyak nümayəndə heyətinin başçısı Dombskdan bu məsələni qaldırmağı tələb etdi[5]. Danışıqlarda aparılan müzakirələrdən sonra tələblər yerinə yetirildi. 1920-ci il dekabrın əvvəllərində azad edilən Filippoviçə Polşaya qayıtmaq imkanı verildi.[6]

Hollandiyanın Bakıdakı konsulu Manassen idi. O, 1920-ci ilin may ayında Haaqaya Xarici İşlər Nazirliyinə teleqram vuraraq "inqilab baş verdiyini" və "Azərbaycanın Hollandiya ilə maneəsiz ticarət etməyə hazır olduğunu" bildirirdi[7]. Lakin ticarət əlaqələrinin qurmaq mümkün olmadı. Konsulluq bağlandı və əməkdaşları ölkədən çıxarıldı.

1920-ci il sentyabrın 19-da Azərbaycan sovet hökuməti İtaliya, Gürcüstan və Ermənistanın Bak;dak; diplomatik nümayəndəliklərini və konsulluqlarını tanıdığını bildirdi[8]. Lakin hökumətin xarici dövlətlərlə münasibətləri, yeni şəraitdə xarici ölkə vətəndaşlarının hüquq və vəzifələrinin nədən ibarət olması aydın deyildi. 1920-ci il noyabrın 25-də xarici dövlətlərin Azərbaycandakı nümayəndəliklərinin şurası Xalq Xarici İşlər Komissarlığından xaricilərin hüquq və vəzifələri haqqında izahat verilməsini xahiş etdi[9]. Lakin sovet hökuməti bu müraciətə cavab vermədi. Belə olduqda xarici dövlətlərin nümayəndəliklərinin şurası dekabrın 31-də XXİK-ə təkrar müraciət etdi. Cavab yalnız 1921-ci il martın 10-da verildi[10]. Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı "Xaricilərin hüquq və vəzifələri haqqında" 30 maddədən ibarət izahat verdi. Müvafiq sənədi xalq xarici işlər komissarı M.Hüseynov imzaladı. İzahatda diplomatik nümayəndəliklərin və konsulların hüquq və vəzifələrinə aid ayrıca bölmələr var idi. Bu bölmələrdə göstərilirdi: diplomatik nümayəndələr, konsullar, agentlər və kuryerlər

[1] Адрес-календарь Азербайджанской Республики. 1920 г. Баку: Азербайджан, 1920, с.69
[2] ARDA, f.28, siy. 1, iş 55, s. 67; iş 38, v. 135; ARSPİHDA, f. 1, siy. 85, iş 289,. 64.
[3] Документы внешней политики СССР. Т.III. М., Политиздат, 1959, с. 674.
[4] Yenə orada, s. 355-356.
[5] Qasimli M. The status of polish citizens in conquest of 1920 in the light of new archival documents.- "Pro Georgia", Warsaw-Varsovie, Centre for East European Studies oriental Institute Warsaw University, 2000-2003, N: 9-10, p.155-158.
[6] Yenə orada.
[7] ARDA, f. 28, siy. 1, iş 38, v. 208.
[8] ARDA, f.28, siy. 1, iş 168, v. 16.
[9] ARDA, f.28, siy. 1, iş 131, v. 1-3.
[10] Гасымлы М. Дипломатические представителства иностранных государств в Советском Азербайджане (апрел 1920г.- октуабруа 1923 г.). – Проблемы всеобщей истории в контексте подготовки педагогических кадров. Вопросы всеобщей истории. Вып.2.- Екатеринбург, Изд. Уральского Университета, 2000, с.58-65.

toxunulmazdır, həbs edilə, mənzilləri axtarıla, arxivləri yoxlanıla, məktublarına baxıla bilməzlər. Lakin eyni zamanda qeyd edilirdi ki, onların mənzilləri yoxlanılarkən heç bir müstəsna hüquqları yoxdur və Azərbaycan vətəndaşları ilə bərabər hüquqa malikdirlər. Xaricilərin hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməməsi narazılıq yaratdı.

1921-ci il aprelin 20-də "Kommunist" qəzetinin 90-cı sayında Azərbaycan İnqilab Komitəsinin əmək qabiliyyətli əhalinin mülki işlərə səfərbər edilməsi haqqında dekreti dərc edildi[1]. Dekretə görə, bütün əmək qabiliyyətli əhali, o cümlədən xaricilər səfərbər edilirdilər. Bu dekret xarici ölkələrin nümayəndəlikləri arasında narazılığa səbəb oldu. Sənəd xarici ölkə vətəndaşlarının Azərbaycana gəlməsinə mane olur, şəxsi, ailə və b. məsələlərlə bağlı uzunmüddətli qalmağı mümkünsüz edir, onların sərbəst hərəkətini dayandırır, vətənə dönmələrində çətinlik yaradırdı.

Xarici dövlətlərin nümayəndəliklərinin şurası (ağsaqqalı - İran konsulu Məmmədxan Saad ül Vizir, müavini - alman konsulu Emmerix Aleksandroviç Beme, üzvü-eston konsulu R.A.Puur (o olmadıqda onu E.M.Liltental əvəz edirdi. Katib E.İ.Dimmer idi) Xalq Xarici İşlər Komissarlığına aprelin 20-də yenidən müraciət etdilər[2]. Lakin Xalq Xarici İşlər Komissarlığı bu müraciətə də məhəl qoymadı[3]. Lakin az sonra Azərbaycan hökuməti "Xarici dövlətlərin nümayəndəlikləri ilə münasibətlərin qurulması və xarici təbəələrin işlərinin həll edilməsi və göndərilməsi haqqında" 7 maddədən ibarət dekret verdi[4]. Dekretdə deyilirdi: 1. Azərbaycandakı xarici dövlətlərin nümayəndəlikləri ilə bütün əlaqələr yalnız XXİK ilə saxlanılır. 2. Xarici dövlətlərin Azərbaycan ərazisindəki nümayəndəliklərinin bütün rəsmi sənədləri və aktları yalnız XXİK-nın vizası olduqda etibarlıdır. 3. Bütün nümayəndəliklərin təqdim etdikləri rəsmi sənəd və aktlar ya rus, ya da türk dilinə çevrilməli və XXİK-in vizası olmalıdır. 4. XXİK komissarlıqlarla və müəssisələrlə ümumi qaydalara uyğun olaraq qayda müəyyənləşdirə bilər. 5. Xarici ölkə təbəələri XXİK-a yalnız öz ölkələrinin nümayəndəlikləri vasitəsi ilə müraciət edə bilər. 6. Xarici təbəələrlə bağlı mübahisələr olduqda komissarlıqlar və müəssisələr onları XXİK-ə göndərməlidirlər. 7. Xalq Komissarlıqları öz fəaliyyətlərində 1921-ci il 10 mart tarixli "Xaricilərin hüquq və vəzifələri haqqında" izahatı əsas götürməlidir.

Azərbaycan hökuməti hər hansı bir dövlətlə münasibətlərin qurulması və normallaşmasının şərti kimi "Müstəqil Azərbaycan Sovet Sosialist Respublikasını" tanımağı irəli sürürdü. Lakin bolşevik hakimiyyətinin tanımadıqları üçün Azərbaycandakı Litva, Latviya və Estoniyanın konsullarının və ya konsul agentlərinin fəaliyyəti dayandırıldı.

Finlandiya hökuməti Moskvadakı konsulluğunun Gürcüstandakı səlahiyyətli nümayəndəsi Knorinqin Bakıda konsul agenti kimi qəbul edilməsinə çalışırdı. Bu barədə Azərbaycan hökumətinə müraciət etmişdi. 1921-ci ildə M.Hüseynov G.Çiçerinə teleqram göndərərək Finlandiya ilə Azərbaycan arasında müqavilə münasibətlərinin olmamasına baxmayaraq, Knorinqin Bakıda konsul agenti kimi qəbul edildiyini bildirirdi[5]. Lakin Çiçerin "Azərbaycan bolşevik hökumətini tanımayınca" Finlandiya nümayəndəliyinin fəaliyyətinə icazə verilməyəcəyini dedi. Mayın 14-də M.Hüseynov G.Çiçerinə göndərdiyi təkrar teleqramında yazırdı: "Sizinlə tamamilə razıyıq. Finlandiya ASSR-i tanımayınca onun heç bir nümayəndəsini Bakıya buraxmayacağıq. Finlandiya vətəndaşlarını isə Finlandiya rəsmi nümayəndələrinin köməyi olmadan buraxacağıq"[6]. Mayın 30-da təkrar teleqramında Hüseynov bildirirdi: "Finlandiya bizi tanımayınca onun (Knorinqin - M.Q.) Azərbaycana gəlməsi üçün viza verə bilmərik"[7]. Bununla belə, "Finlandiya vətəndaşları Bakıdan çıxıb gedə bilərlər"[8]. Cavab teleqramında G.Çiçerin onunla razılaşaraq deyirdi: "Knorinqi Moskvadan uzağa buraxmaq olmaz"[9].

---

[1] Газ. «Коммунист», 1921, 20 апреля.
[2] ARDA, f. 28, siy. 1, iş 131, v. 16.
[3] ARDA, f. 28, siy. 1, iş 131, v. 1-3.
[4] ARDA, f. 28, siy. 1, iş 127, v. 75.
[5] ARSPİHDA, f.609 (Nəriman Nərimanov fondu), siy. 85, iş 96, v.44.
[6] Yenə orada, v. 88.
[7] Yenə orada, v.86.
[8] Yenə orada.
[9] ARDA, f. 28, siy. 1, iş 136, v. 130; ARSPİHDA, f.1, siy. 85, iş 289, v.64.

Bu zaman Bakıda Çexoslovakiyanın Qırmızı Xaç nümayəndəliyi (nümayəndə V.V.Peş idi) fəaliyyət göstərirdi. Xarici İşlər Nazirliyi 1921-ci il oktyabrın 14-də ölkəsinin nümayəndəliyini ləğv etdi[1].

Norveç hökuməti 1922-ci ilin yanvarında Qafqazdakı konsulluğunun ticarət şöbəsinin əməkdaşı Aleksandr Kupermanı Bakıda nümayəndə təyin etdi. O, Azərbaycan ilə Norveç arasında möhkəm ticarət əlaqələri qurmalı, ölkəsinin malları üçün bazarı genişləndirməli idi[2]. 1922-ci il martın 23-də Norveçin Cənubi Qafqaz respublikaları üzrə vitse konsulu Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığına müraciət edərək Norveç vitse konsulluğunun Tiflisdən Bakıya köçürülməsinə icazə verilməsini xahiş etdi. Lakin bolşevik hökuməti onun istəyini yerinə yetirmədi. Azərbaycan XXİK həmin müraciətin üstündə belə bir dərkənar yazdı: "Məlumatlar olmadığı üçün xahişin təmin edilməsi olduğu kimi saxlanılsın"[3]. İsveçrənin Bakıdakı konsul agenti Anri Klottyu idi. Bu konsulluq da ləğv edildi[37]. Azərbaycan bolşevik hökuməti ilə müqavilə münasibətlərinə girmədiyi üçün 1922-ci ilin aprelində Bakıdakı İsveç konsul agentliyi də ləğv edildi[4].

Sovet Rusiyasının müttəfiqi olan Türkiyəyə qarşı hərbi əməliyyatlar aparan Yunanıstan ilə münasibətlər gərgin idi. Azərbaycan SSR Xalq Komissarlar Sovetinin sədri N. Nərimanov XI Ordunun xüsusi şöbəsinin rəisinə 1920-ci il oktyabrın 28-də "tamamilə məxfi" məktub göndərərək Yunanıstan konsulu Kussisin yaşayış yerini dəyişmək barədə göstəriş verdi. Bu göstəriş noyabrın 15-də yerinə yetirildi[5]. Bir qədər sonra Yunanıstanın konsulluğu da bağlandı.

İtaliyanın diplomatik və konsulluq nümayəndəliklərinin tanınmasına baxmayaraq, bu ölkə ilə münasibətlərdə mürəkkəbliklər mövcud idi. İtaliya missiyasının Azərbaycana gəlib-getməsinə sərhəddəki bolşevik ordu hissələrinin çətinliklər törətməsi narazılıqlar yaradırdı. Enriko İnsom Azərbaycan hökuməti tərəfindən İtaliya hökumətinin nümayəndəsi kimi tanınsa da o, Tiflisdən Bakıya gələrkən əsasən ruslardan ibarət olan sərhədçilər Azərbaycan SSR XXİK-nin ona verdiyi vizaya məhəl qoymamışdılar. Sərhədçilər nümayəndəni xeyli gözlətmiş, üst-başını və yüklərini axtarmışdılar. Azərbaycanın Gürcüstan Demokratik Respublikasındakı nümayəndəsinə göndərdiyi notasında Enriko İnsom sərhədçilərin hərəkətlərini qeyri-normal hal hesab edirdi. Azərbaycanın GDR-dəki diplomatik nümayəndəliyinin rəhbəri 1920-ci il avqustun 19-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanova teleqram vuraraq bu vəziyyəti onun nəzərinə çatdırdı və "dəfələrlə təkrar olunan belə halların aradan qaldırılmasını"[6] xahiş etdi.

Azərbaycan-İtaliya münasibətlərində ən çox müzakirə olunan məsələlər aşağıdakılar idi: iki ölkə arasında ticarət əlaqələrinin qurulması; aprel çevrilişinin İtaliya vətəndaşlarına və şirkətləriinə vurduğu ziyanın ödənilməsi; artıq haqqı ödənilən məhsulların Batuma daşınması üçün şərait yaradılması; müsadirə edilən malların geri qaytarılması.

İtaliya hökumətinin siyasi agenti Y.Kolaianni 1921-ci il mayın 8-də Azərbaycan XXİK-ə nota göndərərək iki ölkə arasında ticarət əlaqələrinin qurulmasını xahiş etdi. Bununla yanaşı, o, Gürcüstandakı menşevik hökumətinin Azərbaycan-İtaliya əlaqələrini faktiki olaraq blokadaya aldığını göstərdi. Gürcüstanın sovetləşdirilməsindən sonra bu əlaqələrin daha da canlandırılmasına ümidini ifadə etdi. Lakin sovet hökumətinin İtaliya şirkətlərinə xeyirxah münasibətini nümayiş etdirməsi üçün aşağıdakı tələblərin yerinə yetirilməsini irəli sürdü: inqilabın onlara vurduğu ziyanlar ödənilməlidir; haqqı ödənilmiş məhsulların Batumiyə daşınmasına kömək edilməlidir; XI ordunun və sovet hökumətinin müsadirə etdiyi xammal, valyuta malları geri qaytarılmalıdır; xüsusən İtaliyanın Hella, Marinoti, Saqo, Kotonyere, Marnero, Bakizadə Əli Fəhmi və b. şirkətlərinin problemləri həll edilməlidir[7]. İtaliya tərəfi "ən yaxşı addım kimi aprel çevrilişindən sonra müsadirə edilmiş malların İtaliya nümayəndəliyinin anbarlarına qaytarılmasında"[8] görürdü.

[1] ARDA, f.28, siy.1, iş 165, v.18.
[2] ARDA, f.28, siy. 1, iş 153, v.3.
[3] ARDA, f. 28, siy. 1, iş 163, v. 13.
[4] ARDA, f. 28, siy. 1, iş 146, v. 98.
[5] ARDA, f.28, siy. 1, iş 45, v.45, 49-69.
[6] ARDA, f. 28, siy. 1, iş 71, v. 53.
[7] ARDA, f. 28, siy. 1, iş 45, v. 71; Документы внешней политики СССР. Т.IV. М., Политиздат, 1960, с. 149-150.
[8] ARDA, f. 28, siy. 1, iş 131, v. 1-3.

Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı 8 may tarixli cavab notasında "özündən asılı olmayaraq yaranmış şəraitdə Azərbaycan sovet hökumətinin İtaliya ilə sıx işgüzar əməkdaşlıq etmək istədiyini"[1] bildirdi. Eyni zamanda, "İtaliya hökumətindən Azərbaycan SSR-i de-yure tanımağı və onunla müqavilə münasibətləri yaratmağı xahiş etdi"[2]. İtaliya şirəkətləri üçün Azərbaycanla ticarət işlərinə inamla başlamaqdan ötrü təminat verildiyini vurğuladı[3]. Lakin münasibətlər yazışma səviyyəsindən irəli getmədi. İtaliya hökuməti bolşevik hökumətini de-yure tanımadı. 1922-ci il aprelin 8-də XXİK İtaliya siyasi agentinə nota göndərdi. Notada deyilirdi: "Sizin hökumətiniz Azərbaycan SSR-i tanımadığına görə, Azərbaycan hökuməti Sizin Azərbaycanda bundan sonra qalmağınızı və fəaliyyət göstərməyinizi mümkünsüz hesab edir. Ona görə də on gün müddətində agentliyi ləğv etməyinizi və Azərbaycan ərazisindən çıxmağınızı xahiş edir"[4]. Lakin aprelin 18-də Azərbaycan Fövqəladə Komissiyasının sədr müavini L.Beriya, xüsusi şöbənin rəisi Moroz Azərbaycan XXİK-ə göndərdikləri "tamamilə məxfi", "təcili" qrifli məktubunda Zaqafqaziya FK-nın 341 N:-li teleqramına əsasən Azərbaycandakı bütün nümayəndəliklərin, konsulluqların, səlahiyyətli konsulluqların və b. (İtaliya, İran və Türkiyədən başqa) məlumatı aldıqları gündən sonra iki həftə ərzində Azərbaycan SSR ərazisindən çıxarılmalarını yerinə yetirmək barədə göstəriş verdi. Çıxarılma prosesinə nəzarəti Xalq Daxili İşlər Komissarlığı həyata keçirməli və icrası barədə məlumat verməli idi[5]. Lakin Zaqafqaziya İttifaq Şurasının 1922-ci il 22 aprel tarixli iclas qərarı ilə İtaliya nümayəndəliyini saxlamaq məqsədəuyğun hesab edildi[6]. Amma bir müddət sonra vəziyyət yenidən dəyişdi. Oktyabrın 1-də Azərbaycan SSR XXİK-in səlahiyyətli nümayəndəsi İtaliya konsulluğunun işlər müdiri A.Qrafiniyə məktub göndərərək "indiyədək İtaliya hökuməti ilə Cənubi Qafqaz respublikaları arasında müqavilə münasibətləri olmadığına görə, İttifaq Şurası İtaliyanın bütün diplomatik, həmçinin konsulluq nümayəndəliklərinin göstərilən respublikalarda ləğvi barədə qərar qəbul etmişdir. 24 saat müddətində konsulluğu ləğv etməyinizi xahiş edirik. Mənim hökumətim Azərbaycanda Sizin bir fərd kimi qalmağınıza etiraz etmir"[7].

A.Qrafini konsulluğun ləğvi barədə göstərişə əməl etdi. Cavab məktubunda "sevimli Azərbaycanda qalmağı təklif etdiyinə və icazə verdiyinə görə" Azərbaycan hökumətinə təşəkkürünü bildirdi[8]. Beləliklə, oktyabrın 2-də İtaliyanın siyasi agenti və konsulluğu ləğv edildi.

Azərbaycan-Almaniya münasibətlərinin qurulması və inkişafı da ziqzaqlı idi. Genuyada keçirilən Avropa iqtisadi konfransının (1922-ci il aprel - may) gedişində RSFSR ilə Almaniya arasında 1922-ci il aprelin 16-da Rapallo müqaviləsi imzalandı[9]. Müqaviləni RSFSR xalq xarici işlər komissarı G.Çiçerin və Almaniyanın xarici işlər naziri V.Ratenau imzaladılar. Tərəflər müharibə vaxtı aralarında mövcud olan məsələləri həll etmək barədə razılığa gəldilər. Bundan bir neçə gün sonra, aprelin 22-də Zaqafqaziya İttifaq Şurasının iclasında Azərbaycandakı Almaniya nümayəndəliyi barədə məsələ müzakirə edildi. İclas qərarı ilə Azərbaycandakı Almaniya nümayəndəliyi ləğv olundu[10]. Lakin elə həmin gün FK sədri Beriya məktub yazaraq Almaniya konsulunun Azərbaycandan çıxarılmasının müvəqqəti olaraq dayandırıldığını bildirdi[11]. Mövqedə baş verən belə dəyişiklik Rapallo müqaviləsiinin imzalanması ilə bağlı idi. Bu müqavilə ilə Almaniya konsulu Azərbaycana qayıtdı[12]. 1922-ci il oktyabrın 12-də Emmerix Bemeyə Almaniyanın Bakıdakı konsulu kimi tanınması barədə vəsiqə verildi[13]. Azərbaycan Fövqəladə Komissiyasının "xüsusilə məxfi" qrifli məlumatında deyilirdi: "E.A.Beme ali təhsilli şəxs kimi Müsavat vaxtında

[1] ARDA, f. 28, siy. 1, iş 45, v. 68; Документы внешней политики СССР. T.IV, c. 149.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] ARDA, f. 28, siy. 1, iş 146, v. 98.
[5] ARDA, f. 28, siy. 1, iş 160, v. 5.
[6] ARDA, f. 28, siy. 1, iş 40, v. 6.
[7] ARDA, f. 28, siy. 1, iş 150, v. 6.
[8] Yenə orada, v.7.
[9] Документы внешней политики СССР. T.V. M., Политиздат, 1961, c. 191-192. 223-226; Внешняя политика СССР. Сб. документов. T.II, M., Политиздат, 1944, c. 296-297.
[10] ARDA, f. 28, siy. 1, iş 40, v. 53.
[11] ARDA, f. 28, siy. 1, iş 160, v. 6.
[12] ARDA, f. 28, siy. 1, iş 38, v. 135.
[13] ARDA, f. 28, siy. 1, iş 40, v. 67.

və çevrilişdən sonra Nobel qardaşları zavodlarında mühəndis olmuşdur. Sovetləşmədən sonra İran konsulluğunda katib, Almaniya missiyasının səlahiyyətli nümayəndəsi, eyni zamanda İsveç konsulluğunda katib işləmişdir. O, Almaniya və İsveç konsulu təyin edilmişdir. Xalq xarici işlər komissarı M.Hüseynov ilə yaxşı münasibətləri vardır. Beme müharibə vaxtı həbs olunmuş və mükəlləfiyyətli şəxs kimi Rusiyanın şimalına göndərilmişdir. İngilislər Bakını tutarkən Almaniya baş qərargahının agenti olmuşdur. Almanlar onu bacarıqlı və istedadlı adam adlandırırlar"[1].

1922-ci il noyabrın 5-də Berlində Rapallo müqaviləsinin Azərbaycan, Ukrayna, Belorusiya, Gürcüstan, Ermənistan və Uzaq Şərq Respublikasına aid edilməsi haqqında müqavilə imzalandı[2]. Noyabrın 5 və 10-da edilən notalar mübadiləsində Almaniya hökumətinin göstərilən sovet respublikalarını de-yure tanıdığı və onlarla diplomatik və konsulluq münasibətlərini müqavilə təsdiq edilənədək qurmağa razı olduğu göstərilirdi[3]. Lakin bir qədər keçdikdən sonra Almaniya nümayəndəliyi də ləğv edildi. Xüsusi şöbənin rəisi diplomatik nümayəndələrin sərhəddi keçərkən özləri ilə götürdükləri əşyalarının siyahısının təqdim etmələrini tələb etdi[4].

Beləliklə, Azərbaycandakı Avropa ölkələrinin nümayəndəlikləri ləğv olundu, əməkdaşları isə ölkədən çıxarıldı.

## Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərin ləğv edilməsi

1920-ci ilin aprelinədək Azərbaycanın aşağıdakı ölkələrdə nümayəndəlikləri var idi: Gürcüstan (diplomatik nümayəndə Fərhad bəy Vəkilov, Batumda konsul Mahmud bəy Əfəndiyev); Ermənistan (diplomatik nümayəndə Əbdürrəhman bəy Haqverdiyev); İran (diplomatik nümayəndə Adilxan Ziyadxan); İstanbul (diplomatik nümayəndə Yusif bəy Vəzirov); Ukrayna (konsul Camal Sadıxov), Krım (konsul agenti Şeyxəli Hüseynov)[5]. Bundan başqa Azərbaycanın Kubanda və Donda diplomatik nümayəndəliyi, Petrovskda isə konsul agenti də təyin edilmişdi. İrkutskda da Azərbaycan konsulluğu fəaliyyət göstərirdi[6].

Sovetləşdirildikdən sonra Azərbaycanın Təbriz, Ənzəli, Kars, Trabzon və Batumda konsulluqları, Ankara, Tiflis və Moskvada səlahiyyətli nümayəndəlikləri və b. fəaliyyət göstərirdi[7].

Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərinin bağlanması əsasən iki mərhələdən keçmişdir: 1. Əvvəlcə xarici ölkələrdəki nümayəndəliklərin heyəti peşəkar diplomatlardan təmizləndi və onların yerinə azərbaycanlı olmayan bolşeviklər yerləşdirildi; 2. Bolşevik hökuməti tərəfindən nümayəndəliklərin fəaliyyəti üçün maliyyə, təşkilati və b. çətinliklər yaradıldı, sonra isə nümayəndəliklər bağlandı, onlar RSFSR nümayəndəliklərinə tabe etdirildi.

RSFSR XXİK nümayəndəliklərin fəaliyyəti üçün müxtəlif çətinliklər yaradırdı: onlara lazımi materiallar göndərilmirdi; göstərişlər verilmirdi; maliyyə vəsaiti ayrılmırdı; nümayəndəlik əməkdaşları hətta aylıq əmək haqqlarını ala bilmirdilər və s. Belə çətinliklərdən sonra RSFSR XXİK Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərinin ləğvi məsələsini qaldırdı. Bu, vahid xarici siyasət xəttinin həyata keçirilməsi zəruriliyi, maliyyə çatışmazlığı, ümumi düşmənə qarşı birgə mübarizənin vacibliyi və s. əsaslandırılırdı.

1921-ci ilin noyabrında Azərbaycanın İrandakı nümayəndəliyi bağlanıldı[8]. İranda Azərbaycanın səlahiyyətli nümayəndəsi təyin edilsə də, onun səfəri baş tutmadı[9]. 1922-ci il aprelin 22-də ZSFSR İttifaq Şurasının iclasında Azərbaycanın Təbriz və Ənzəlidəki konsulluqları barədə məsələ müzakirə olundu və onlar ləğv edildilər. İranda Azərbaycan təbəələrinin mənafelərini qorumaq hüququ müvafiq Rusiya konsulluğuna verildi. Bu konsulluğun tərkibinə yalnız bir nəfər azərbaycanlı texniki işçi daxil edildi[10].

Bir müddət sonra Azərbaycanın Rusiya, Əfqanıstan, Buxara, Gürcüstan və Ermənistandakı nümayəndəlikləri də ləğv edildi. Kars konfransı başa çatdıqdan sonra bu şəhərdəki konsulluq da bağlandı. Sonralar Ankaradakı nümayəndəlik də ləğv edildi.

---

1 ARDA, f. 28, siy. 1, iş 45, v. 9.
2 Документы внешней политики СССР. T.V, с. 658-663.
3 Летопись внешней политики СССР. 1917-1978. М., Политиздат, 1978, с. 29.
4 ARDA, f. 28, siy. 1, iş 160, v. 12.
5 Адрес- календарь Азербайджанской Республики. 1920 г. , с. 26-27.
6 Гасымлы М. Азербайджанское консульство в Иркутске. - Современные методы и технологии в преподавании международных отношений.Ч.2. Екатеринбург, Изд. Уральского Университета, 1999, с.67-68
7 ARDA, f.28, siy. 1, iş 108, v. 33.
8 ARDA, f.28, siy. 1, iş 108, v. 33.
9 ARDA, f.28, siy. 1, iş 38, v. 135.
10 ARDA, f.28, siy. 1, iş 40, v. 54.

## Xarici İşlər üzrə Katibliyin yaradılması

1921-ci il noyabrın 3-də Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin (RK(b)P MK) Qafqaz bürosu Cənubi Qafqaz respublikaları arasında federativ ittifaqın yaradılmasına tərəfdar çıxdı. Noyabrın 20-da isə RK(b)P MK Siyasi Bürosu Cənubi Qafqaz respublikalarının federasiyasını yaratmaq haqqında qətnamə qəbul etdi[1].

